RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN



№ 112 (9857) 31 may 2025-ci il ŞƏNBƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR

# Laçından dünyaya mesaj



## Azərbaycan-Türkiyə-Pakistan üçlük platforması artıq yeni model kimi mühüm faktora çevrilir

Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan və Pakistan İslam Respublikasının Baş naziri Məhəmməd Şahbaz Şərifin də iştirak etdikləri mərasimdə İlham Əliyev bir daha həqiqətləri səsləndirdi.

3 qardaş ölkənin rəhbərlərinin məhz Azərbaycanın Müstəqillik Günündə Laçın şəhərində görüşməsi, müxtəlif obyektlərin açılışlarında iştirak etmələri həm də rəmzi məna daşıyırdı. Çünki 44 günlük İkinci Qarabağ müharibəsi zamanı Azərbaycanı bu iki qardaş ölkə dəstəkləmişdi. Bu dəstək xalqımıza güc verməklə yanaşı, hərb meydanında olan müzəffər ordumuzun da döyüş ruhunu yüksəltmişdi. Bu gün isə qardaşlıq münasibətləri özünün ən yüksək mərhələsindədir desək, yanılmarıq.

Üç qardaş ölkənin liderlərinin iştirakı ilə Laçında keçirilən Zirvə görüşü tarixi əhəmiyyətli toplantı oldu. Sayca ikinci olan bu Zirvə görüşü Azərbaycan-Türkiyə-Pakistan birliyinin növbəti təzahürü idi. Bu görüş həm də ona görə diqqət mərkəzinə çevrildi ki, Laçın Beynəlxalq Hava Limanı öz qapılarını dünyaya açıq elan etdi. Belə ki, Füzulidən, Zəngilandan sonra Laçında da beynəlxalq aeroportumuz fəaliyyətə başladı. Bu, əlbəttə ki, Azərbaycanın iqtisadi qüdrətindən xəbər verdi. Ermənistanın 30 il ərzində bir daşı daş üstünə qoymadığı, əvəzində xarabalığa çevirdiyi ərazilərimizi dövlətimiz cəmi 5 ilə gülüstana çevirir. Müasir yollar, "ağıllı" yaşayış məntəqələri, sosial-iqtisadi infrastrukturlar inşa edən qüdrətli Azərbaycan bütün bunları yalnız öz gücünə, heç kimdən maddi yardım almadan həyata keçirir.

Təbii ki, 30 il ərzində işğal altında qalan Laçın şəhərində belə bir nüfuzlu tədbirin keçirilməsi də böyük rəmzi məna daşıyırdı. Prezident İlham Əliyev də dedi ki, bu gün üçtərəfli əməkdaşlığın yeni səhifəsi açılır. Zirvə görüşündə müzakirə olunan məsələlər, əldə edilmiş razılaşmalar 3 dostu bir-birinə daha da yaxınlaşdıracaq.

"Bu gün əziz qardaşlarımın - Türkiyə Prezidentinin və Pakistanın Baş nazirinin bizimlə bərabər bu bayram tədbirlərində iştirakı, bizə göstərilən dəstək və həmrəylik artıq tamamilə yeni dünya miqyasında reallıqlar yaradır. Bizim gücümüz birliyimizdədir. Bu gün birliyimizi üçtərəfli formatda bir daha təsdiqlədik", - deyən dövlətimizin başçısı qətiyyətlə vurğuladı ki, azad edilmiş Laçından üç ölkənin dünyaya verdiyi mesajlar lazımi ünvana çatacaq.

→ 7

## Azərbaycan Prezidentinin siyasi dəstəyi ilə "Yol xəritəsi" imzalanacaq

**Prezident İlham Əliyev Alman İqtisadiyyatının Şərq Komitəsinin sədrini qəbul edib**



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 30-da Alman İqtisadiyyatının Şərq Komitəsinin sədri Mixael Harmsı qəbul edib.

→ 2

## Azərbaycan-Pakistan: ali səviyyədə görüş, yüksək səviyyədə tərəfdaşlıq



Laçında Prezidentimizin Məhəmməd Şahbaz Şəriflə məhdud tərkibdə görüşündə bu səfərin Pakistanın "Qarabağ Azərbaycandır!" mövqeyinin növbəti təsdiqinin ifadəsi olduğu vurğulandı. Ali qonaq Prezident İlham Əliyevin rəhbərliyi ilə Laçında və ətraf ərazilərdə qısa müddət ərzində həyata keçirilən bərpa və quruculuq işlərinin böyük təəssürat doğurduğunu dedi, bunlara görə dövlətimizin başçısını və Azərbaycan xalqını səmimi-qəlbdən təbrik etdi.

Təbii ki, ali səviyyədə görüşlərin bu dinamikası Azərbaycan-Pakistan əlaqələrinə, o cümlədən iqtisadi əməkdaşlığın genişlənməsinə və güclənməsinə böyük təkan verir. Azərbaycan Prezidentinin və Pakistanın Baş nazirinin iştirakı ilə bir neçə ay əvvəl imzalanmış sənədlərin mübadiləsi də göstərir ki, iki ölkə arasında iqtisadi əlaqələrin yeni səhifələri açılır. Müxtəlif sahələrdə əməkdaşlığın genişləndirilməsinə yol açan həmin sənədlər sırasında enerji sahəsinə aid olanlar da diqqət çəkir.

→ 7

## Əlaqələrimizin perspektivləri və gələcək təmaslar barədə fikir mübadiləsi aparılıb



Mayın 30-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyana zəng edib.

Telefon danışığı əsnasında dövlət başçıları əlaqələrimizin inkişafından məmnunluqlarını bildirib, xüsusilə iki ölkə arasında yüksəksəviyyəli qarşılıqlı səfərləri və iqtisadi-ticari əməkdaşlığın genişləndirilməsi məsələlərini vurğulayıblar.

Prezident İlham Əliyev dünən Birləşmiş Ərəb Əmirliklərindən olan iş adamlarından ibarət nümayəndə heyətini qəbul etdiyini xatırladaraq, aparılan səmərəli müzakirələrə toxunub.

Telefon söhbəti zamanı Azərbaycanla Birləşmiş Ərəb Əmirliklərinin beynəlxalq təşkilatlar çərçivəsində yaxından əməkdaşlıq etdikləri və bir-birini daim dəstəklədikləri məmnunluqla vurğulanıb, əlaqələrimizin perspektivləri və gələcək təmaslar barədə fikir mübadiləsi aparılıb.

*Prezidentin Mətbuat xidməti*

## Azərbaycan BMT-nin Məskunlaşma Proqramının İcraiyyə Şurasına üzv seçilib

**BMT-nin Məskunlaşma Proqramı (UN-Habitat) Assambleyasının mayın 30-da Keniyanın paytaxtı Nayrobi şəhərində keçirilmiş növbəti sessiyası çərçivəsində Azərbaycan ilk dəfə olaraq UN-Habitat İcraiyyə Şurasına üzv seçilib.**

Xarici İşlər Nazirliyindən AZƏRTAC-a bildirilib ki, UN-Habitat İcraiyyə Şurası proqramın sessiyalararası fəaliyyət göstərən əsas qərarverici orqanıdır. Şurada 36 ölkə təmsil olunur. Nüfuzlu BMT strukturuna Azərbaycanın üzvlüyü 2025-2029-cu illəri əhatə edəcək.

Dayanıqlı şəhərsalma və insan məskənləri sahəsində ixtisaslaşmış UN-Habitat və Azərbaycan arasında əməkdaşlıq son illərdə dinamik inkişaf edir. Bunun bariz nümunəsi 2023-cü ildə UN-Habitatın Ümumdünya Məskunlaşma Gününün (WHD23) Azərbaycanda keçirilməsi olub. Bununla yanaşı, Azərbaycan 2026-cı il mayın 17-22-si BMT-nin qlobal əhəmiyyətli Ümumdünya Şəhərsalma Forumunun 13-cü sessiyasına (WUF13) evsahibliyi edəcək.

## Sənayeləşən Qarabağ

### Ağdamda ümid doğrulur, Araz vadisində gələcək qurulur

2021-ci ildə təməli qoyulan və 190 hektar ərazini əhatə edən Ağdam Sənaye Parkına biznes strukturları böyük maraq göstərirlər. Parkda ümumi investisiyaların həcmi 271 milyon manat olan 29 sahibkarlıq subyektinə rezidentlik, 4 sahibkara isə qeyri-rezidentlik statusu verilib. Burada ümumilikdə 2400-dən çox iş yerinin yaradılması nəzərdə tutulur. Bu günədək sənaye parkında görülmüş işlərə rezidentlər tərəfindən 97 milyon manata yaxın investisiya yatırılıb, 380 nəfərlik daimi iş yeri yaradılıb. Hazırda Ağdam Sənaye Parkında 9 müəssisə fəaliyyət göstərir. İqtisadiyyat Nazirliyinin məlumatına görə, Ağdam Sənaye Parkında 2024-cü ilin sentyabrından 2025-ci ilin birinci rübünün sonunadək sahibkarlar tərəfindən 85 milyon manatlıq məhsul istehsal olunub. Artıq sahibkarlar tərəfindən sənaye parkında görülmüş işlərə 111,7 milyon manat investisiya yatırılıb, 649 iş yeri açılıb. Bu da o deməkdir ki, parkın 70 faizdən çox hissəsi sahibkarların istifadəsinə verilib.

→ 10




## YAP Sədrinin müavini ICAPP Daimi Komitəsinin 43-cü iclasında iştirak edib



**Yeni Azərbaycan Partiyası (YAP) Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov mayın 30-da "Yedinaya Rossiya" Ümumrusiya Siyasi Partiyasının evsahibliyi ilə Rusiyanın Perm şəhərində keçirilən Asiya Siyasi Partiyaları Beynəlxalq Konfransı (ICAPP) Daimi Komitəsinin (DK) 43-cü iclasında iştirak edib.**

Tədbiri giriş nitqi ilə açan ICAPP Daimi Komitəsinin sədri Çunq Eu-yonq DK-nın 42-ci iclasından ötən dövrdəki fəaliyyətinə nəzər salıb, görülən işləri diqqətə çatdırıb.

İclas iştirakçıları Özbəkistanın hakim Sahibkarlar və İş Adamları Hərəkatı - Özbəkistan Liberal-Demokratik Partiyası və ölkənin ikinci böyük partiyası olan Özbəkistan Milli Dirçəliş Demokrat Partiyasının Daimi Komitənin üzvlüyünə qəbul edilməsi məsələsini dəstəkləyiblər.

İclasda çıxış edən YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov ICAPP DK-nın 44-cü iclası və təşkilatın nəzdindəki qurumlardan birinin növbəti tədbirinə Yeni Azərbaycan Partiyasının evsahibliyi etməsi ilə bağlı ICAPP rəhbərliyinin müraciətinin müsbət qarşılandığını qeyd edərək ICAPP üzvlərini 2025-ci il 16-19 oktyabr tarixlərində Bakıda keçiriləcək DK-nın 44-cü və Asiya Mədəniyyət Şurasının 4-cü iclaslarında iştiraka dəvət edib.

İclasda daha sonra qarşıda duran vəzifələrə dair fikir mübadiləsi aparılıb.

*"Azərbaycan"*

## Türkiyə növbəti İstanbul görüşündən sonra Zelenski, Putin və Trampın görüşünü təklif edir

"European Pravda"nın məlumatına görə, Fidan qeyd edib ki, üç liderin, eləcə də Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə danışıqlar Ukrayna və Rusiya arasında gələn həftə İstanbulda baş tuta biləcək potensial ikinci danışıqlardan sonra keçirilə bilər. Hakan Fidan Kiyevə səfəri zamanı deyib: "Biz səmimi-qəlbdən inanırıq ki, İstanbulda birinci və ikinci birbaşa danışıqları cənab Donald Tramp, cənab Vladimir Putin və cənab Volodimir Zelenski arasında cənab Ərdoğanın rəhbərliyi altında keçiriləcək görüşlə yekunlaşdırmaq olar". Mayın 30-da Kiyevdə Zelenski ilə görüşən Fidan əlavə edib ki, "danışıqlar davam etsə, irəliləyiş, şübhəsiz ki, mümkündür". Xatırladaq ki, həftənin əvvəlində türkiyəli nazir Moskvada yüksəkvəzifəli şəxslərlə, o cümlədən Putinlə danışıqlar aparmışdır.

→ 16

# Azərbaycan Prezidentinin siyasi dəstəyi ilə "Yol xəritəsi" imzalanacaq

## Prezident İlham Əliyev Alman İqtisadiyyatının Şərq Komitəsinin sədrini qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 30-da Alman İqtisadiyyatının Şərq Komitəsinin sədri Mixael Harmsı qəbul edib.**

AZƏRTAC xəbər verir ki, söhbət zamanı dövlətimizin başçısının Mixael Harmsla, həmçinin Almaniya biznes dairələri və şirkətlərinin nümayəndələri ilə görüşləri məmnunluqla xatırlandı, Almaniya Prezidentinin ölkəmizə səfərinin ikitərəfli münasibətlərimizin, o cümlədən iqtisadi sahədə əlaqələrimizin genişlənməsində rolu vurğulandı.

Azərbaycanla Almaniya arasında müxtəlif sahələrdə, o cümlədən iqtisadi-ticari sahədə əməkdaşlığın inkişaf etdiyi bildirildi.

Mixael Harmsın ölkəmizə səfərinin səmərəli olacağına və iqtisadi əməkdaşlıqla bağlı gündəliyimizin müzakirəsi üçün yaxşı imkan yaradacağına ümidvarlıq ifadə edildi. Qonaq bu gün qarşılıqlı iqtisadi layihələrlə bağlı AZPROMO ilə "Yol xəritəsi"nin imzalanacağını qeyd edərək, bu məsələdə Azərbaycan Prezidentinin siyasi dəstəyini vurğuladı. Görüşdə Azərbaycanda mövcud olan əlverişli investisiya şəraitinə toxunularaq, bu xüsusda alman iş adamlarının ölkəmizə sərmayə yatırmaları qeyd edildi və iqtisadi əlaqələrin perspektivlərinə dair fikir mübadiləsi aparıldı.

# Xorvatiya Respublikasının Baş naziri zati-aliləri cənab Andrey Plenkoviçə

Hörmətli cənab Baş nazir!

Ölkənizin milli bayramı - Dövlətçilik Günü münasibətilə Sizə və bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi çatdırıram.

Azərbaycan ilə Xorvatiya arasında xoş ənənələr üzərində qurulan əlaqələrin möhkəmlənməsi və yeni məzmunla zənginləşməsi məmnunluq doğurur. Fəal siyasi dialoqumuz, ali və yüksəksəviyyəli qarşılıqlı səfərlər və müntəzəm təmaslar müxtəlif sahələrdə əməkdaşlığımızı genişləndirmək üçün yaxşı zəmin yaradır.

Hazırda Azərbaycan ilə Xorvatiya iqtisadi-ticari, humanitar, xüsusilə də minatəmizləmə sahələrində uğurla əməkdaşlıq edirlər. Eyni zamanda ölkələrimiz arasında tərəfdaşlığın prioritet istiqamətlərdən olan enerji sektorunda əməkdaşlıq inkişaf edərək hazırda yeni müstəviyə keçmişdir. Enerji sahəsində uğurlu işbirliyimiz Avropanın enerji təhlükəsizliyinin təminatına öz müsbət təsirini göstərir.

İnanıram ki, xalqlarımızın iradəsinə uyğun olaraq ölkələrimiz arasında ənənəvi dostluq münasibətləri, ikitərəfli və çoxtərəfli qaydada əməkdaşlığımız və strateji tərəfdaşlığımız bundan sonra da yüksələn xətt üzrə inkişaf edəcək və daha da güclənəcəkdir.

Bu bayram günündə Sizə ən xoş arzularımı yetirir, dost Xorvatiya xalqına daim əmin-amanlıq və rifah diləyirəm.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 27 may 2025-ci il*

# "Azərbaycan Respublikasının 2027-2030-cu illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nın və "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair II Dövlət Proqramı"nın hazırlanması haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 2 fevral tarixli 2469 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"ə uyğun olaraq hazırlanmış "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası", həmçinin "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı" uğurla icra olunur və bu, ölkənin sosial, iqtisadi və institusional inkişafı üçün mühüm zəmin yaratmışdır.

Sözügedən Strategiya sosial-iqtisadi inkişaf üzrə müəyyən edilmiş beş Milli Prioritet əsasında həyata keçirilir. Həmin Strategiyanın ardıcıl və sistemli icrası sayəsində iqtisadiyyatın xarici təsirlərə qarşı dayanıqlığı daha da möhkəmlənmiş, şaxələnməsi dərinləşmiş, iqtisadi artım davamlı və inklüziv xarakter almış, əhalinin rifah səviyyəsi yüksəlmiş və gələcək nəsillər üçün irihəcmli maliyyə ehtiyatları formalaşmışdır.

Qeyd olunan nəticələrin əldə edilməsində özəl təşəbbüslərin və investisiyaların cəlbinin təşviqi, biznes mühitinin əlverişliliyinin dəstəklənməsi, qlobal bazarlara çıxış imkanlarının genişləndirilməsi, eləcə də rəqəmsallaşma və insan kapitalının inkişafı mühüm rol oynamışdır. Bununla yanaşı, işğaldan azad edilmiş ərazilərin bərpası və iqtisadi fəaliyyətə reinteqrasiyası, əhalinin öz yurdlarına təhlükəsiz şəkildə qayıtması, habelə Qarabağ və Şərqi Zəngəzurda dayanıqlı məskunlaşmanın və məşğulluğun təmin olunması istiqamətində görülən işlər Böyük qayıdış prosesini ölkənin sosial-iqtisadi inkişafında qazanılan nailiyyətlərin ayrılmaz tərkib hissəsinə çevirmişdir.

Azərbaycan qarşıdakı illərdə daha mürəkkəb çağırışların və zəngin imkanların mövcudluğu ilə seçilən yeni mərhələyə daxil olur. Bu mərhələ qlobal iqtisadi qütbləşmənin dərinləşməsi, texnoloji tərəqqinin sürətlənməsi, eləcə də süni intellekt əsaslı texnologiyaların geniş tətbiqiilə səciyyələnir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, ölkəmizin ötən illərdə əldə etdiyi sosial-iqtisadi nailiyyətlərin davamlı şəkildə artırılması, bunun üçün özəl, o cümlədən birbaşa xarici investisiyaların cəlbinin genişləndirilməsi, biznes mühitinin əlverişliliyinin yüksəldilməsi, iqtisadiyyatın bilik və texnologiya tutumunun gücləndirilməsi, həmçinin işğaldan azad olunmuş ərazilərə Böyük qayıdışın davamlılığının təmin edilməsi məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. "Azərbaycan Respublikasının 2027-2030-cu illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nın və "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair II Dövlət Proqramı"nın layihələrini, habelə həmin layihələrdə nəzərdə tutulmuş tədbirlərin həyata keçirilməsi üçün zəruri maliyyə vəsaitinin həcminə və maliyyələşmə mənbələrinə dair təkliflərini doqquz ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. bu Sərəncamın 1.1-ci bəndində nəzərdə tutulan layihələr hazırlanarkən aşağıdakıları təmin etsin:

1.2.1. 2027-2030-cu illərdə hazırlanması planlaşdırılan dövlət proqramlarının, strategiyaların, milli fəaliyyət planlarının, konsepsiyaların və bu kimi digər sənədlərin "Azərbaycan Respublikasının 2027-2030-cu illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nda əhatə olunmasını;

1.2.2. qabaqcıl beynəlxalq təşkilatlarla və ixtisaslaşmış məsləhətçi şirkətlərlə səmərəli əməkdaşlığın həyata keçirilməsini;

1.2.3. aidiyyəti dövlət orqanlarının (qurumlarının), elmi təşkilatların, mütəxəssislərin və vətəndaş cəmiyyəti təsisatlarının cəlb olunmasını;

1.3. bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 30 may 2025-ci il*

# "Azərbaycan Respublikasının Cinayət Məcəlləsində və Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2025-ci il 11 aprel tarixli 178-VIIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Cinayət Məcəlləsində və Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2025-ci il 11 aprel tarixli 178-VIIQD nömrəli Qanununun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Müəyyən edilsin ki:

1.1. Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 293.12-ci, 294-3.2-ci, 294-3.3-cü, 295.6-cı, 403-1.1.1-ci, 403-1.1.2-ci və 403-1.2-ci maddələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Məcəllənin 293.12-ci maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Nazirlər Kabineti nəzərdə tutulur;

1.3. həmin Məcəllənin 539.1-1-ci və 539.3-cü maddələrində "müvafiq icra hakimiyyəti orqanı" dedikdə Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi nəzərdə tutulur;

1.4. həmin Məcəllənin 555.1-ci maddəsində "müvafiq icra hakimiyyəti orqanı" dedikdə, fəaliyyət istiqamətlərinə uyğun olaraq, Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi nəzərdə tutulur;

1.5. həmin Məcəllənin 295.6-cı maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti nəzərdə tutulur;

1.6. həmin Məcəllənin 403-1.1.1-ci, 403-1.1.2-ci və 403-1.2-ci maddələrində "orqan (qurum)" dedikdə aşağıdakılar nəzərdə tutulur:

1.6.1. qeyri-hökumət təşkilatlarına və xarici dövlətlərin qeyri-hökumət təşkilatlarının filial və nümayəndəliklərinə (o cümlədən Naxçıvan Muxtar Respublikasının ərazisində təsis edilən xarici dövlətlərin qeyri-hökumət təşkilatlarının filial və nümayəndəliklərinə) münasibətdə Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi, Naxçıvan Muxtar Respublikasının ərazisində təsis edilən qeyri-hökumət təşkilatlarına münasibətdə Naxçıvan Muxtar Respublikasının Ədliyyə Nazirliyi;

1.6.2. kommersiya hüquqi şəxslərinə və xarici kommersiya hüquqi şəxslərinin filial və nümayəndəliklərinə münasibətdə Dövlət Vergi Xidməti qismində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi, habelə Naxçıvan Muxtar Respublikasının Dövlət Vergi Xidməti;

1.6.3. dini qurumlara münasibətdə Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi və Naxçıvan Muxtar Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Agentliyi;

1.7. həmin Məcəllənin 294-3.2-ci və 294-3.3-cü maddələrində "orqan (qurum)" dedikdə "Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyəti nəzərdə tutulur.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1.Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 279.2-ci və 279.3-cü maddələrində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslər barədə təkliflərini iki ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.2. "Azərbaycan Respublikasının Cinayət Məcəlləsində və Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2025-ci il 11 aprel tarixli 178-VIIQD nömrəli Qanunundan irəli gələn digər məsələləri həll etsin.

3."Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 96-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 15 fevral tarixli 795 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2 (II kitab), maddə 259 (Cild I); 2024, № 2, maddələr 151, 157, № 7, maddələr 806, 812, 814, 815, № 8, maddələr 937, 948, № 12 (I kitab), maddə 1294, (II kitab), maddələr 1359, 1378, 1384; 2025, № 2, maddə 127; Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 19 mart tarixli 355 nömrəli, 1 aprel tarixli 358 nömrəli və 17 aprel tarixli 371 nömrəli fərmanları) aşağıdakı dəyişikliklər edilsin:

3.1. 4-cü hissə üzrə:

3.1.1. 4.1-ci bəndə "275.2," rəqəmlərindən sonra "293.12, 294-3.2, 294-3.3, 295.6," rəqəmləri, "395.1-1," rəqəmlərindən sonra "403-1.1.1, 403-1.1.2, 403-1.2," rəqəmləri əlavə edilsin;

3.1.2. 4.3-1-ci bəndə "307.4-cü" sözlərindən əvvəl "293.12-ci," sözləri əlavə edilsin;

3.1.3. 4.10-cu bənddə ", 295.6-cı və 295.7-ci maddələrində" sözləri "maddəsində" sözü ilə əvəz edilsin;

3.1.4. aşağıdakı məzmunda 4.10-1-ci bənd əlavə edilsin:

"4.10-1. həmin Məcəllənin 295.6-cı maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti nəzərdə tutulur;";

3.1.5. 4.11-ci bənddə "88.1.4 və 293.6-cı maddələrində" sözləri "88.1.4-cü maddəsində" sözləri ilə əvəz edilsin;

3.1.6. 4.20-ci bəndə "539.2" rəqəmlərindən sonra ", 539.3" rəqəmləri əlavə edilsin;

3.1.7. aşağıdakı məzmunda 4.26-1-ci və 4.31-2-ci bəndlər əlavə edilsin:

"4.26-1. həmin Məcəllənin 294-3.2 və 294-3.3-cü maddələrində "orqan (qurum)" dedikdə "Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyəti nəzərdə tutulur;";

"4.31-2. həmin Məcəllənin 403-1.1.1, 403-1.1.2 və 403-1.2-ci maddələrində "orqan (qurum)" dedikdə aşağıdakılar nəzərdə tutulur:

4.31-2.1. qeyri-hökumət təşkilatlarına və xarici dövlətlərin qeyri-hökumət təşkilatlarının filial və nümayəndəliklərinə (o cümlədən Naxçıvan Muxtar Respublikasının ərazisində təsis edilən xarici dövlətlərin qeyri-hökumət təşkilatlarının filial və nümayəndəliklərinə) münasibətdə Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi, Naxçıvan Muxtar Respublikasının ərazisində təsis edilən qeyri-hökumət təşkilatlarına münasibətdə Naxçıvan Muxtar Respublikasının Ədliyyə Nazirliyi;

4.31-2.2. kommersiya hüquqi şəxslərinə və xarici kommersiya hüquqi şəxslərinin filial və nümayəndəliklərinə münasibətdə Dövlət Vergi Xidməti qismində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi, habelə Naxçıvan Muxtar Respublikasının Dövlət Vergi Xidməti;

4.31-2.3. dini qurumlara münasibətdə Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi və Naxçıvan Muxtar Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Agentliyi;";

3.1.8. 4.44-cü bənd aşağıdakı redaksiyada verilsin:

"4.44. həmin Məcəllənin 555.1-ci maddəsində "müvafiq icra hakimiyyəti orqanı" dedikdə, fəaliyyət istiqamətlərinə uyğun olaraq, Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi nəzərdə tutulur;";

3.2. 5-ci hissə üzrə:

3.2.1.5.1-ci bəndə "327.1-327.7," rəqəmlərindən sonra "327-1.1," rəqəmləri əlavə edilsin;

3.2.2.5.4-cü bənddə "469.2-ci" sözləri "469-1-ci" sözləri ilə əvəz edilsin;

3.2.3. 5.25-ci bənddə "279-282-ci" sözləri "279.1 və 280-282-ci" sözləri ilə əvəz edilsin;

3.2.4.5.26-cı bənddən "293, 294, 295.1-295.5, 296-299, 319.6, 320.6," rəqəmləri çıxarılsın;

3.2.5. aşağıdakı məzmunda 5.26-1-ci bənd əlavə edilsin:

"5.26-1. həmin Məcəllənin 293, 294-294-5, 295.1-295.5, 295.8, 296-299, 319.6 və 320.6-cı maddələrində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə Dövlət Mülki Aviasiya Agentliyi qismində Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi baxır;";

3.2.6.5.27-ci bənddə "300-305" rəqəmləri "300.2, 300.3, 301, 303, 305" rəqəmləri ilə əvəz edilsin.

4. Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 23 fevral tarixli 1256 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 2, maddə 200 (Cild I); 2024, № 2, maddə 157, № 6 (I kitab), maddə 649, № 7, maddələr 806, 812, 814, № 8, maddə 948, № 12 (I kitab), maddələr 1294, 1295, (II kitab), maddə 1378; 2025, № 2, maddə 127; Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 1 aprel tarixli 358 nömrəli Fərmanı) ilə təsdiq edilmiş "İnzibati xətalar haqqında işlərə baxmağa səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"nın 2-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

4.1. 2.1-ci və 2.2-ci bəndlərə "327.1-327.7," rəqəmlərindən sonra "327-1.1," rəqəmləri əlavə edilsin;

4.2. 2.3-cü və 2.4-cü bəndlərə "327.1-327.5," rəqəmlərindən sonra "327-1.1,"rəqəmləri əlavə edilsin.

5. Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 3 may tarixli 1361 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 5, maddə 765 (Cild I); 2024, № 4, maddə 381, № 6 (I kitab), maddə 649, № 7, maddələr 812, 814, 815, № 12 (I kitab), maddə 1294, (II kitab), maddə 1367; 2025, № 2, maddə 127; Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 19 mart tarixli 356 nömrəli və 1 aprel tarixli 358 nömrəli fərmanları) ilə təsdiq edilmiş "Rayon (şəhər) məhkəmələrinin baxdığı inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"nda aşağıdakı dəyişikliklər edilsin:

5.1. 1-ci hissəyə "351-1" rəqəmlərindən əvvəl "294-6," rəqəmləri əlavə edilsin;

5.2. 15-ci hissəyə "221.1," rəqəmlərindən sonra "221.1-1, 221.3-1," rəqəmləri əlavə edilsin;

5.3.24-1-ci hissədə "və 295.7-ci maddələrində" sözləri "maddəsində" sözü ilə əvəz edilsin;

5.4. 25-ci hissəyə "327.8," rəqəmlərindən sonra "327-1.2, 327-1.3," rəqəmləri əlavə edilsin;

5.5. 26-cı hissəyə "Məcəllənin" sözündən sonra "300.1, 302, 304," rəqəmləri əlavə edilsin;

5.6. aşağıdakı məzmunda 36-1-ci hissə əlavə edilsin:

"36-1. Məcəllənin 403-1 və 403-2-ci maddələrində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlər üzrə protokol:

36-1.1. qeyri-hökumət təşkilatlarına və xarici dövlətlərin qeyri-hökumət təşkilatlarının filial və nümayəndəliklərinə (o cümlədən Naxçıvan Muxtar Respublikasının ərazisində təsis edilən xarici dövlətlərin qeyri-hökumət təşkilatlarının filial və nümayəndəliklərinə) münasibətdə Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi adından - bu Siyahının 36.2-ci bəndində nəzərdə tutulan vəzifəli şəxslər;

36-1.2. kommersiya hüquqi şəxslərinə və xarici kommersiya hüquqi şəxslərinin filial və nümayəndəliklərinə münasibətdə Dövlət Vergi Xidməti qismində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi adından - bu Siyahının 32.1-ci bəndində nəzərdə tutulan vəzifəli şəxslər;

36-1.3. dini qurumlara münasibətdə Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi adından - bu Siyahının 36.3-cü bəndində nəzərdə tutulan vəzifəli şəxslər.";

5.7. 42-1-ci hissə, 42-1.1-ci və 42-1.2-ci bəndlər müvafiq olaraq 42-2-ci hissə, 42-2.1-ci və 42-2.2-ci bəndlər hesab olunsun və aşağıdakı məzmunda 42-1-ci hissə əlavə edilsin:

"42-1. Məcəllənin 428.12-ci maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlər üzrə protokol Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi adından - bu Siyahının 26-2.2-ci bəndində nəzərdə tutulan vəzifəli şəxslər.";

5.8. 61-ci hissədə "maddəsində" sözü "və 534-1-ci maddələrində" sözləri ilə əvəz edilsin.

6. "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2023-cü il 6 iyul tarixli 938-VIQD nömrəli Qanununun tətbiqi və Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 96-VQ nömrəli Qanununun tətbiqi barədə" 2016-cı il 15 fevral tarixli 795 nömrəli, "İnzibati xətalar haqqında işlərə baxmağa səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"nın təsdiq edilməsi barədə" 2017-ci il 23 fevral tarixli 1256 nömrəli, "Rayon (şəhər) məhkəmələrinin baxdığı inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"nın təsdiq edilməsi barədə" 2017-ci il 3 may tarixli 1361 nömrəli fərmanlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 1 avqust tarixli 2272 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 8 (I kitab), maddə 1139 (Cild I) 1.1-ci bəndi ləğv edilsin.

7. Bu Fərmanın 3.2.3-cü yarımbəndi 60 Vt və daha yuxarı gücə malik olan közərmə lampalarına münasibətdə 2026-cı il yanvarın 1-dən, 25 Vt-dan (25 Vt daxil olmaqla) 60 Vt-a qədər gücə malik olan közərmə lampalarına münasibətdə 2026-cı il iyulun 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 30 may 2025-ci il*

# Azərbaycan Respublikasının Cinayət Məcəlləsində və Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** Azərbaycan Respublikasının Cinayət Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 4 (II kitab), maddə 251 (Cild I); 2024, № 1, maddələr 8, 18, № 3, maddə 250, № 7, maddə 772, № 11, maddə 1189, № 12 (II kitab), maddələr 1330, 1350; 2025, № 1, maddə 1; Azərbaycan Respublikasının 2024-cü il 27 dekabr tarixli 114-VIIQD və 115-VIIQD nömrəli, 2025-ci il 28 fevral tarixli 143-VIIQD nömrəli və 7 mart tarixli 153-VIIQD nömrəli qanunları) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 156.2.2-ci maddədə "məsafədən idarə edilən pilotsuz uçan aparatlardan" sözləri "pilotsuz uçuş aparatlarından" sözləri ilə əvəz edilsin;

1.2. 262.1-ci maddənin dispozisiyasına "hava nəqliyyatının" sözlərindən sonra ", yaxud pilotsuz uçuş aparatının və ya hava nəqliyyatı qismində istifadə təyinatı olmayan digər hava gəmisinin" sözləri əlavə edilsin.

**Maddə 2.** Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2 (I kitab), maddə 202 (Cild I); 2024, № 1, maddə 18, № 2, maddə 135, № 4, maddə 362, № 5(I kitab), maddələr 487, 489, 492, 503, № 7, maddələr 750, 768, 771, 772, № 12 (I kitab), maddə 1280, № 12 (II kitab), maddələr 1330, 1350; 2025, № 1, maddələr 1, 15; Azərbaycan Respublikasının 2024-cü il 27 dekabr tarixli 115-VIIQD nömrəli, 2025-ci il 14 fevral tarixli 138-VIIQD nömrəli və 28 fevral tarixli 143-VIIQD nömrəli qanunları) aşağıdakı dəyişikliklər edilsin:

2.1. 27.3-cü maddəyə "327.8," rəqəmlərindən sonra "327-1.2, 327-1.3," rəqəmləri əlavə edilsin;

2.2. 28.4.1-ci maddədə "18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxslərə" sözləri "əlilliyi olan uşaqlara" sözləri ilə əvəz edilsin;

2.3. 30.2-ci maddədə "18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxslər" sözləri "əlilliyi olan uşaqlar" sözləri ilə əvəz edilsin;

2.4. 38.1-ci maddənin ikinci cümləsində "maliyyə, vergilərin və rüsumların ödənilməsi" sözləri "vergilərin, rüsumların ödənilməsi, maliyyə və sığorta" sözləri ilə əvəz edilsin və həmin cümləyə "əmək qanunvericiliyinin" sözlərindən sonra ", o cümlədən əməyin mühafizəsi qaydalarının, istehsalatda baş verən bədbəxt hadisələrin araşdırılması və uçota alınması qaydalarının" sözləri əlavə edilsin;

2.5. 43.1-ci maddəyə "275.5," rəqəmlərindən sonra "279.2, 279.3," rəqəmləri, "290.3," rəqəmlərindən sonra "294-5.5, 294-6," rəqəmləri, "296.2," rəqəmlərindən sonra "300.1, 302, 304," rəqəmləri, "327.8," rəqəmlərindən sonra "327-1.2, 327-1.3," rəqəmləri, "428.10," rəqəmlərindən sonra "428.12," rəqəmləri əlavə edilsin və həmin maddədən "295.7," və "440.3," rəqəmləri çıxarılsın;

2.6. 81-1.1-ci maddədə "469.2-ci" sözləri "469-1-ci" sözləri ilə əvəz edilsin;

2.7. 102.1-ci maddəyə "232-1-ci," sözlərindən sonra "300.1-ci, 302-ci, 304-cü," sözləri əlavə edilsin;

2.8. 116.1-ci maddəyə "Məcəllənin" sözündən sonra "192.2, 192.4," rəqəmləri əlavə edilsin və həmin maddədə "279.0.1" rəqəmləri "279.1.1" rəqəmləri ilə əvəz edilsin;

2.9. 122.1-ci maddənin birinci cümləsinə və 122.4-cü maddəyə "328" rəqəmlərindən əvvəl "327-1.1," rəqəmləri əlavə edilsin;

2.10. 127-3-cü maddədə və 127-4.1-ci maddənin birinci cümləsində "469.2-ci" sözləri "469-1-ci" sözləri ilə əvəz edilsin;

2.11. 192.4-cü maddənin dispozisiyasında "hesablanmasında və ödənilməsində, riyazi hesablamalar nəticəsində yol verilən nöqsanlar istisna olmaqla, qanun pozuntularına yol verilməsinə" sözləri "əmək qanunvericiliyinə uyğun olaraq ödənilməməsinə və ya tam ödənilməməsinə" sözləri ilə əvəz edilsin;

2.12. 198.1.5-ci maddəyə "riayət edilməməsinə" sözlərindən sonra ", o cümlədən əmək qanunvericiliyinin tələbləri pozulmaqla işçinin iş vaxtından artıq işlərə cəlb edilməsinə" sözləri əlavə edilsin;

2.13. 276-1-ci maddənin adına və dispozisiyasına "dövlət" sözündən əvvəl "vahid" sözü əlavə edilsin;

2.14. 279-cu maddə üzrə:

2.14.1. 279.0, 279.0.1 - 279.0.7-ci maddələr müvafiq olaraq 279.1, 279.1.1 - 279.1.7-ci maddələr hesab edilsin;

2.14.2. aşağıdakı məzmunda 279.2-ci və 279.3-cü maddələr əlavə edilsin:

"279.2. İstehsal proseslərində və əsas məqsədi işıqlandırma olmayan məhsullarda xüsusi istifadəsi nəzərdə tutulan közərmə lampaları istisna olmaqla, dəyişən cərəyan dövrəsində işıqlandırma məqsədilə istifadə edilə bilən 25 Vt və daha yuxarı gücə malik olan elektrik közərmə lampalarının idxalına, istehsalına və ya satışına görə -

inzibati xətanın bilavasitə obyekti olan elektrik közərmə lampaları müsadirə edilməklə, vəzifəli şəxslər min manatdan min beş yüz manatadək məbləğdə, hüquqi şəxslər üç min manatdan dörd min manatadək məbləğdə cərimə edilir.

279.3. Bu Məcəllənin 279.2-ci maddəsində nəzərdə tutulmuş xətanın inzibati tənbeh almış şəxs tərəfindən inzibati tənbeh vermə haqqında qərar qüvvəyə mindiyi gündən bir il ərzində təkrar törədilməsinə görə -

inzibati xətanın bilavasitə obyekti olan elektrik közərmə lampaları müsadirə edilməklə, vəzifəli şəxslər min beş yüz manatdan iki min manatadək məbləğdə, hüquqi şəxslər dörd min manatdan beş min manatadək məbləğdə cərimə edilir.";

2.15. 293-cü maddə üzrə:

2.15.1. 293.1-ci maddənin dispozisiyasından "və ya müvafiq icazə olmadan pirotexnik məmulat yandırılmasına, yaxud hava gəmilərinin uçuşları üçün təhlükəli quşların kütləvi toplanmasına kömək edən obyektlər qurulmasına" sözləri çıxarılsın;

2.15.2. aşağıdakı məzmunda 293.1-1-ci maddə əlavə edilsin:

"293.1-1. Müvafiq icazə olmadan pirotexnik məmulat yandırılmasına, yaxud hava gəmilərinin uçuşları üçün təhlükəli quşların kütləvi toplanmasına kömək edən obyektlər qurulmasına görə -

fiziki şəxslər üç min manat məbləğində, vəzifəli şəxslər beş min manat məbləğində, hüquqi şəxslər on min manat məbləğində cərimə edilir.";

2.15.3. 293.2-ci maddə üzrə:

2.15.3.1. dispozisiyaya "digər" sözündən sonra "belə" sözü əlavə edilsin;

2.15.3.2. sanksiya aşağıdakı redaksiyada verilsin:

"fiziki şəxslər üç min manat məbləğində, vəzifəli şəxslər beş min manat məbləğində, hüquqi şəxslər on min manat məbləğində cərimə edilir.";

2.15.4. 293.6-cı maddənin dispozisiyası aşağıdakı redaksiyada verilsin:

"293.6. İcazə olmadan Azərbaycan Respublikasının hava məkanında hava gəmisinin səsdən iti sürətlə uçmasına görə -";

2.15.5. aşağıdakı məzmunda 293.7 - 293.12-ci maddələr əlavə edilsin:

"293.7. Müntəzəm və qeyri-müntəzəm (çarter) marşrutlara icazə olmadan uçuşların həyata keçirilməsinə görə -

fiziki şəxslər üç min manat məbləğində, vəzifəli şəxslər beş min manat məbləğində, hüquqi şəxslər on min manat məbləğində cərimə edilir.

293.8. Kommersiya uçuşlarının həyata keçirilməsi zamanı istismar tələblərinə uyğun olmayan sınaqların və qəza şəraitinin imitasiyasının aparılmasına görə -

fiziki şəxslər dörd min manat məbləğində, vəzifəli şəxslər səkkiz min manat məbləğində, hüquqi şəxslər iyirmi min manat məbləğində cərimə edilir.

293.9. Təlim və sınaq uçuşları istisna olmaqla, uçuş zamanı sistemlərin, mühərrikin və avadanlığın sıradan çıxması hallarının imitasiya edilməsinə görə -

fiziki şəxslər dörd min manat məbləğində, vəzifəli şəxslər səkkiz min manat məbləğində, hüquqi şəxslər iyirmi min manat məbləğində cərimə edilir.

293.10. Hava gəmisinin istismarçıları, aerodrom istismarçıları, hava gəmisinin istismarçılarına xidmət göstərən texniki xidmət təşkilatları, o cümlədən hava hərəkəti xidmətlərini təmin edən təchizatçı tərəfindən uçuşların təhlükəsizliyinin idarə edilməsi sisteminin yaradılmamasına və ya fəaliyyətinin təmin edilməməsinə görə -

fiziki şəxslər iki min manat məbləğində, vəzifəli şəxslər altı min manat məbləğində, hüquqi şəxslər səkkiz min manatdan on min manatadək məbləğdə cərimə edilir.

293.11. Uçuş əməliyyatının həyata keçirilməsinə dair məlumatlar üzrə qeydlərin, səs yazılarının, sənədlərin qorunub saxlanılmamasına və kənar müdaxilədən mühafizə edilməməsinə görə -

altı yüz manat məbləğində cərimə edilir.

293.12. Heyət üzvü uçuşdan əvvəl alkoqollu içki, narkotik vasitələr, psixotrop maddələr və onların prekursorlarını və ya uçuşların təhlükəsizliyinə təsir göstərə bilən dərman vasitələrini qəbul etdikdə, yaxud heyət üzvünün siyahısı müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən təsdiq edilən xəstəliyi olduqda hava gəmisinin bortunda vəzifəsini icra etməsinə görə -

üç min manat məbləğində cərimə edilir.";

2.16. 294-cü maddə aşağıdakı redaksiyada verilsin:

**"Maddə 294. Aviasiya hadisəsinin və ya insidentinin baş verdiyi yerdə aşkar edilən hava gəmisinin hər hansı elementinin, yaxud onun daşıdığı əşyaların (yükün, baqajın) yığışdırılması və ya götürülməsi**

"Aviasiya haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş razılıq olmadan aviasiya hadisəsinin və ya insidentinin baş verdiyi yerdə aşkar edilən hava gəmisinin hər hansı elementinin, yaxud onun daşıdığı əşyaların (yükün, baqajın) yığışdırılmasına və ya götürülməsinə görə -

altı yüz manat məbləğində cərimə edilir.";

2.17. aşağıdakı məzmunda 294-1 - 294-6-cı maddələr əlavə edilsin:

**"Maddə 294-1. Aviasiya hadisələrinin və insidentlərinin araşdırılması üzrə daimi komissiyanın fəaliyyətinə müdaxilə etmə**

Aviasiya hadisələrinin və insidentlərinin araşdırılması üzrə daimi komissiyanın fəaliyyətinə, o cümlədən aviasiya hadisələrinin və ya insidentlərinin araşdırılmasına və araşdırmanın nəticələrinə dair hesabatın tərtib edilməsinə müdaxilə olunmasına görə -

fiziki şəxslər min manat məbləğində, vəzifəli şəxslər beş min manat məbləğində, hüquqi şəxslər on min manat məbləğində cərimə edilir.

**Maddə 294-2. Aviasiya personalına dair tələblərin pozulması**

294-2.1. Şəhadətnamə, vəsiqə və sertifikata malik olmayan və ya digər dövlətdə verilən, müvafiq qaydada tanınmalı olan analoji sənədə malik olmayan şəxslərin mülki aviasiya personalı qismində fəaliyyət göstərməsinə görə -

fiziki şəxslər üç min manat məbləğində, vəzifəli şəxslər beş min manat məbləğində, hüquqi şəxslər iyirmi min manat məbləğində cərimə edilir.

294-2.2. Hava gəmilərinin uçuş və kabinə heyətlərinin, habelə aeronaviqasiya xidmətlərinin təmin edilməsinə cəlb olunan havada hərəkəti idarəetmə dispetçerlərinin ixtisaslarına uyğun müvafiq təlim, hazırlıq və tibbi yoxlamadan keçirilməsinin təmin edilməməsinə görə -

fiziki şəxslər dörd min manat məbləğində, vəzifəli şəxslər səkkiz min manat məbləğində, hüquqi şəxslər otuz min manat məbləğində cərimə edilir.

**Maddə 294-3. Mülki pilotsuz uçuş aparatı sistemlərinin istismarına dair ümumi tələblərin pozulması**

294-3.1. Müvafiq icazə alınmadan model pilotsuz uçuş aparatı klubu və ya assosiasiyasının fəaliyyət göstərməsinə görə -

fiziki şəxslər üç min manat məbləğində, vəzifəli şəxslər beş min manat məbləğində, hüquqi şəxslər səkkiz min manat məbləğində cərimə edilir.

294-3.2. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) yaratdığı mərkəzin icazəsi olmadan nəzarət olunan hava məkanında və aerodromyanı ərazidə mülki pilotsuz uçuş aparatı sistemləri əməliyyatlarının həyata keçirilməsinə görə -

fiziki şəxslər üç min manat məbləğində, vəzifəli şəxslər yeddi min manat məbləğində, hüquqi şəxslər on beş min manat məbləğində cərimə edilir.

294-3.3. Məsafədən idarə edən pilotun (operatorun) əməliyyatın dayandırılması və ya dəyişdirilməsi ilə əlaqədar müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) yaratdığı mərkəzin verdiyi göstərişi dərhal yerinə yetirməməsinə görə -

fiziki şəxslər dörd min manat məbləğində, vəzifəli şəxslər yeddi min manat məbləğində, hüquqi şəxslər on yeddi min manat məbləğində cərimə edilir.

**Maddə 294-4. Mülki aviasiya sahəsində sığorta tələblərinə əməl edilməməsi**

294-4.1. Bu Məcəllənin 294-4.2-ci maddəsində nəzərdə tutulan hal istisna olmaqla, hava gəmisi istismarçılarının hava gəmilərini və onların istismarı ilə əlaqədar vurulan zərərə görə öz məsuliyyətini sığortalamadan hava gəmisindən istifadə etməsinə görə -

fiziki şəxslər beş min manat məbləğində, vəzifəli şəxslər on min manat məbləğində, hüquqi şəxslər əlli min manat məbləğində cərimə edilir.

294-4.2. Pilotsuz uçuş aparatı istismarçılarının pilotsuz uçuş aparatını və onun istismarı ilə əlaqədar vurulan zərərə görə öz məsuliyyətini sığortalamadan pilotsuz uçuş aparatından istifadə etməsinə görə -

fiziki şəxslər üç min manat məbləğində, vəzifəli şəxslər beş min manat məbləğində, hüquqi şəxslər on min manat məbləğində cərimə edilir.

**Maddə 294-5. Mülki aviasiya sahəsində sertifikatlaşdırılma ilə bağlı tələblərə əməl edilməməsi**

294-5.1. Aviasiya personalının peşəyə yararlılığının müəyyən edilməsinin sertifikatlaşdırılmayan tibb müəssisələri və onların əməkdaşları tərəfindən həyata keçirilməsinə görə -

vəzifəli şəxslər beş min manatdan səkkiz min manatadək məbləğdə, hüquqi şəxslər iyirmi min manatdan otuz min manatadək məbləğdə cərimə edilir.

294-5.2. Mülki hava limanları və (və ya) aerodromlar, habelə helikopter meydançalarının sertifikatlaşdırılmadan istismarına görə -

fiziki şəxslər üç min manatdan dörd min manatadək məbləğdə, vəzifəli şəxslər yeddi min manatdan doqquz min manatadək məbləğdə, hüquqi şəxslər iyirmi min manatdan qırx min manatadək məbləğdə cərimə edilir.

294-5.3. Hava hərəkəti xidmətlərini təmin edən təchizatçıların, habelə sistemlərin, onların tərkib hissələrinin layihələndirilməsinə, istehsalına və ya texniki xidmətinə cəlb olunan təşkilatların sertifikatlaşdırılmadan fəaliyyət göstərməsinə görə -

vəzifəli şəxslər yeddi min manatdan doqquz min manatadək məbləğdə, hüquqi şəxslər iyirmi min manatdan qırx min manatadək məbləğdə cərimə edilir.

294-5.4. Mülki hava gəmilərinə texniki xidmət göstərən təşkilatların və ya mülki hava gəmilərinin və onların komponentlərinin uçuşa yararlılığının saxlanılmasını idarə edən təşkilatların sertifikatlaşdırılmadan fəaliyyət göstərməsinə görə -

vəzifəli şəxslər yeddi min manatdan doqquz min manatadək məbləğdə, hüquqi şəxslər iyirmi min manatdan qırx min manatadək məbləğdə cərimə edilir.

294-5.5. Sertifikatlaşdırılmamış aviasiya avadanlıqlarından və vasitələrindən istifadəyə görə -

avadanlıqlar və vasitələr müsadirə edilməklə və ya edilməməklə, fiziki şəxslər iki min manat məbləğində, vəzifəli şəxslər beş min manat məbləğində, hüquqi şəxslər əlli min manat məbləğində cərimə edilir.

**Maddə 294-6. Hava gəmilərinin istismar qaydalarının pozulması**

Yerinə yetirdiyi işlə və ya tutduğu vəzifə ilə əlaqədar hava gəmilərinin hərəkət təhlükəsizliyi və istismarı qaydalarına riayət etməyə borclu olan şəxs tərəfindən həmin qaydaların pozulması, ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin sağlamlığına yüngül zərər vurulmasına səbəb olduqda -

beş yüz manatdan min manatadək məbləğdə cərimə edilir və ya işin halları və pozuntu törədənin şəxsiyyəti nəzərə alınmaqla on gündən iyirmi günədək müddətə inzibati həbs tətbiq olunur.";

2.18. 295-ci maddə üzrə:

2.18.1. 295.1-ci maddə üzrə:

2.18.1.1. dispozisiyada "Aeroportun" sözü "Hava limanının (aeroportun)" sözləri ilə əvəz edilsin;

2.18.1.2. sanksiya aşağıdakı redaksiyada verilsin:

"fiziki şəxslər beş yüz manat məbləğində, vəzifəli şəxslər iki min manat məbləğində, hüquqi şəxslər beş min manat məbləğində cərimə edilir.";

2.18.2. 295.4-cü maddənin sanksiyası aşağıdakı redaksiyada verilsin:

"fiziki şəxslər beş yüz manat məbləğində, vəzifəli şəxslər min manat məbləğində, hüquqi şəxslər üç min manat məbləğində cərimə edilir.";

2.18.3. 295.6-cı maddə aşağıdakı redaksiyada verilsin:

"295.6. Hava gəmilərinin istismarçıları tərəfindən hava gəmisinin sərnişin və heyət üzvlərinə dair ilkin məlumatların və sərnişin adlarının qeydiyyat məlumatlarının sərnişin məlumatlarına dair "bir pəncərə" sistemi vasitəsilə real vaxt rejimində elektron formada müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) ötürülməməsinə görə -

fiziki şəxslər iki min manat məbləğində, vəzifəli şəxslər beş min manat məbləğində, hüquqi şəxslər iyirmi min manat məbləğində cərimə edilir.";

2.18.4. 295.7-ci maddə ləğv edilsin;

2.18.5. aşağıdakı məzmunda 295.8-ci maddə əlavə edilsin:

"295.8. Azərbaycan Respublikasına mənsub hava gəmilərinin dövlət qeydiyyatına, xarici dövlətə mənsub hava gəmilərinin dövlət uçotuna alınmadan istismarına görə -

fiziki şəxslər beş min manat məbləğində, vəzifəli şəxslər on min manat məbləğində, hüquqi şəxslər əlli min manat məbləğində cərimə edilir.";

2.19. 296-cı maddə üzrə:

2.19.1. adında "maddələr və predmetlər" sözləri "yüklər, hərbi silah və sursatlar" sözləri ilə əvəz edilsin;

2.19.2. 296.2-ci maddə aşağıdakı redaksiyada verilsin:

"296.2. Təhlükəli yüklərin, hərbi silah və sursatların daşınma qaydalarının pozulmasına görə -

təhlükəli yüklər, hərbi silah və sursatlar müsadirə edilməklə və ya edilməməklə, fiziki şəxslər iki yüz əlli manat məbləğində, vəzifəli şəxslər beş yüz manatdan min beş yüz manatadək məbləğdə cərimə edilir.";

2.19.3. aşağıdakı məzmunda 296.3-cü və 296.4-cü maddələr əlavə edilsin:

"296.3. Radioaktiv tullantıların, yenidən istifadəyə yararlı işlənmiş nüvə yanacağının, qanunvericiliklə müəyyən edilən siyahıya müvafiq toksik və digər təhlükəli tullantıların, digər radioaktiv maddələr və nüvə materiallarının, təkrar istifadə edilə bilinməyən qeyri-toksik tullantıların, habelə istifadəsi və təkrar istifadə texnologiyası ekoloji təhlükə yaradan maddələrin hava yolu ilə daşınmasına görə -

fiziki şəxslər dörd min manat məbləğində, vəzifəli şəxslər səkkiz min manat məbləğində, hüquqi şəxslər on beş min manat məbləğində cərimə edilir.

296.4. Təhlükəli yüklərin daşınması ilə bağlı hazırlıq keçməyən personalın təhlükəli yüklərin hava yolu ilə daşınmasına cəlb edilməsinə görə -

fiziki şəxslər min beş yüz manat məbləğində, vəzifəli şəxslər üç min manat məbləğində, hüquqi şəxslər on min manat məbləğində cərimə edilir.";

2.20. 298-ci maddə üzrə:

2.20.1. 298.1-ci maddə üzrə:

2.20.1.1. dispozisiyaya "yaxud" sözündən əvvəl "komanda verən pilotun," sözləri əlavə edilsin;

2.20.1.2. sanksiyaya "yüz" sözündən əvvəl "beş" sözü əlavə edilsin;

2.20.2. 298.2-ci maddənin sanksiyasına "yüz" sözündən əvvəl "beş" sözü əlavə edilsin;

2.20.3. 298.3-cü maddənin sanksiyasında "iki" sözü "beş" sözü ilə əvəz edilsin;

2.21. 299-cu maddənin sanksiyasına "yüz" sözündən əvvəl "beş" sözü əlavə edilsin;

2.22. 300-cü maddə üzrə:

2.22.1. 300.1-ci maddə üzrə:

2.22.1.1. dispozisiyadan "qardan" və "siqnalizasiya və rabitə" sözləri çıxarılsın;

2.22.1.2. sanksiyada "yüz əlli manat məbləğində" sözləri "inzibati xəta nəticəsində vurulmuş ziyanın bir mislindən iki mislinədək miqdarda" sözləri ilə əvəz edilsin;

2.22.2. 300.2-ci maddənin sanksiyasında "otuz" sözü "altmış" sözü ilə əvəz edilsin və həmin maddənin sanksiyasına "yüz" sözündən əvvəl "iki" sözü əlavə edilsin;

2.22.3. 300.3-cü maddənin sanksiyasında "iki" sözü "dörd" sözü ilə əvəz edilsin;

2.23. 301.1-ci maddənin sanksiyasında "əlli" sözü "yüz" sözü ilə əvəz edilsin;

2.24. 302-ci maddə aşağıdakı redaksiyada verilsin:

**"Maddə 302. Dəmir yolu nəqliyyatı vasitələrinin və daxili avadanlığının zədələnməsi**

Dəmir yolu nəqliyyatı vasitələrinin və daxili avadanlığının zədələnməsinə görə -

inzibati xəta nəticəsində vurulmuş ziyanın bir mislindən iki mislinədək miqdarda cərimə edilir.";

2.25. 304-cü maddə üzrə:

2.25.1. 304.1-ci maddənin sanksiyasında "yüz manat məbləğində" sözləri "inzibati xəta nəticəsində vurulmuş ziyanın bir mislindən iki mislinədək miqdarda" sözləri ilə əvəz edilsin;

2.25.2. 304.2-ci maddənin sanksiyasında "yüz əlli manat məbləğində" sözləri "inzibati xəta nəticəsində vurulmuş ziyanın bir mislindən iki mislinədək miqdarda" sözləri ilə əvəz edilsin;

2.26. 319.4-cü maddənin dispozisiyasına "biletsiz" sözündən sonra "və ya müvafiq qaydada ödəniş etmədən" sözləri əlavə edilsin;

2.27. 320.4-cü maddə üzrə:

2.27.1. dispozisiyaya "biletsiz" sözündən sonra "və ya müvafiq qaydada ödəniş edilmədən" sözləri əlavə edilsin;

2.27.2. sanksiyada "qırx" sözü "səksən" sözü ilə əvəz edilsin;

2.28. 327-ci maddə üzrə:

2.28.1. 327.3-cü maddənin dispozisiyasında "Dəmiryol keçidlərindən keçmə qaydalarının pozulmasına və ya nəqliyyat vasitələrinin dəmir yollarını dəmiryol keçidlərindən kənar yerlərdən keçməsinə, yaxud müvafiq" sözləri "Müvafiq" sözü ilə əvəz edilsin;

2.28.2. 327.7-ci maddənin dispozisiyasına "327.8," rəqəmlərindən sonra "327-1.1, 327-1.3," rəqəmləri əlavə edilsin;

2.28.3. "Qeyd" hissəsi üzrə:

2.28.3.1. 1-ci bəndə "328.4" rəqəmlərindən əvvəl "327-1.1," rəqəmləri əlavə edilsin;

2.28.3.2. 5-ci bəndə "327.8," rəqəmlərindən sonra "327-1.3," rəqəmləri əlavə edilsin;

2.29. aşağıdakı məzmunda 327-1-ci maddə əlavə edilsin:

**"Maddə 327-1. Nəqliyyat vasitələrinin sürücüləri tərəfindən dəmiryol keçidlərindən keçmə ilə bağlı qaydaların pozulması**

327-1.1. Dəmiryol keçidlərindən keçmə qaydalarının pozulmasına və ya nəqliyyat vasitələrinin dəmir yollarını dəmiryol keçidlərindən kənar yerlərdən keçməsinə görə -

iki yüz manat məbləğində cərimə edilir.

327-1.2. Bu Məcəllənin 327-1.1-ci maddəsində nəzərdə tutulmuş xətanın inzibati tənbeh almış şəxs tərəfindən inzibati tənbeh vermə haqqında qərar qüvvəyə mindiyi gündən bir il ərzində təkrar törədilməsinə görə -

nəqliyyat vasitəsini idarə etmək hüququ üç aydan altı ayadək müddətə məhdudlaşdırılır.

327-1.3. Bu Məcəllənin 327-1.1-ci maddəsində nəzərdə tutulmuş xəta nəticəsində zərər çəkmiş şəxsin sağlamlığına yüngül bədən xəsarətinin yetirilməsinə görə -

üç yüz manat məbləğində cərimə edilir və ya nəqliyyat vasitəsini idarə etmək hüququ altı aydan bir ilədək müddətə məhdudlaşdırılır.";

2.30. 338-ci maddə üzrə:

2.30.1. 338.2-ci maddənin dispozisiyasından ", dəmiryol keçidinin" sözləri çıxarılsın;

2.30.2. aşağıdakı məzmunda 338.2-2-ci maddə əlavə edilsin:

"338.2-2. Piyadalar tərəfindən dəmir yolunun piyadaların keçməsi üçün müəyyən edilmiş yerlərdən kənar keçilməsinə görə -

qırx manat məbləğində cərimə edilir.";

2.30.3. 338.5-ci maddənin sanksiyasında "qırx" sözü "səksən" sözü ilə əvəz edilsin;

2.31. aşağıdakı məzmunda 403-1-ci və 403-2-ci maddələr əlavə edilsin:

**"Maddə 403-1. Hüquqi şəxsin benefisiar mülkiyyətçisi barədə məlumatların və sənədlərin təqdim edilməməsi**

403-1.1. Hüquqi şəxsin benefisiar mülkiyyətçisi barədə məlumatların təqdim edilməməsinə, yəni:

403-1.1.1. hüquqi şəxsin, habelə xarici hüquqi şəxsin nümayəndəlik və ya filialına münasibətdə xarici hüquqi şəxsin benefisiar mülkiyyətçisi ilə bağlı dürüst, dəqiq və yenilənmiş məlumatların "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununda müəyyən edilmiş hallarda və qaydada müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) təqdim edilməməsinə;

403-1.1.2. hüquqi şəxs, habelə xarici hüquqi şəxsin nümayəndəlik və filialı tərəfindən benefisiar mülkiyyətçisi barədə məlumatların qanunla müəyyən edilmiş mərhələlər üzrə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) təqdim edilməməsinə görə -

vəzifəli şəxslər min manatdan iki min manatadək məbləğdə, hüquqi şəxslər iki min beş yüz manatdan üç min manatadək məbləğdə cərimə edilir.

403-1.2. Hüquqi şəxsin benefisiar mülkiyyətçisi ilə bağlı təsdiqedici sənədlərin "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş müddət ərzində müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) təqdim edilməməsinə görə -

vəzifəli şəxslər min manatdan iki min manatadək məbləğdə, hüquqi şəxslər iki min beş yüz manatdan üç min manatadək məbləğdə cərimə edilir.

**Maddə 403-2. Benefisiar mülkiyyətçinin hüquqi şəxslərin dövlət reyestri məlumatlarında dəyişiklik barədə məlumatlandırılmaması**

Benefisiar mülkiyyətçinin özü barədə hüquqi şəxslərin dövlət reyestri məlumatlarında dəyişiklik edilməsi ilə bağlı hüquqi şəxs tərəfindən məlumatlandırılmamasına görə -

vəzifəli şəxslər iki yüz manatdan üç yüz manatadək məbləğdə, hüquqi şəxslər beş yüz manatdan yeddi yüz manatadək məbləğdə cərimə edilir.";

2.32. 428-ci maddə üzrə:

2.32.1. 428.2-ci maddənin dispozisiyasında "yaxud "reklam hüququ əsasında" sözləri ", "reklam hüququ əsasında", "sponsorluq" və ya "tərəfdaşlıq" sözləri ilə əvəz edilsin;

2.32.2. 428.3-cü maddənin dispozisiyasına "reklam istehsalçısına" sözlərindən sonra ", rəqəmsal platforma təsirçisinə" sözləri əlavə edilsin;

2.32.3. aşağıdakı məzmunda 428.12-ci maddə əlavə edilsin:

"428.12. Bu Məcəllənin 428.1 - 428.4-1-ci, 428.6-cı və 428.10-cu maddələrində nəzərdə tutulmuş əməllərin rəqəmsal platforma təsirçisi tərəfindən törədilməsinə görə -

vəzifəli şəxslər yeddi yüz əlli manatdan min iki yüz əlli manatadək məbləğdə, hüquqi şəxslər iki min beş yüz manatdan dörd min manatadək məbləğdə cərimə edilir.";

2.33. 440.3-cü maddə ləğv edilsin;

2.34. 469-cu maddə üzrə:

2.34.1. 469.1-ci maddənin dispozisiyasında "469.2-ci və 469.3-cü" sözləri "469.3-cü və 469-1-ci" sözləri ilə əvəz edilsin;

2.34.2. 469.2-ci maddə ləğv edilsin;

2.35. aşağıdakı məzmunda 469-1-ci maddə əlavə edilsin:

**"Maddə 469-1. İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığortalanmanın təmin edilməməsi**

"İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən hər bir işçinin istehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığortalanmamasına, o cümlədən müvafiq riskləri icbari qaydada sığorta etdirmək vəzifəsi müəyyən edilmiş fiziki və ya hüquqi şəxslər tərəfindən sığortaçı ilə icbari sığorta müqaviləsinin bağlanmamasına görə -

vəzifəli şəxslər min beş yüz manat məbləğində, hüquqi şəxslər beş min manat məbləğində cərimə edilir.

**Qeyd:**

Şəxs bu maddədə nəzərdə tutulmuş inzibati xətaya görə inzibati məsuliyyətə cəlb olunduqda, 20 gün ərzində xeyrinə icbari sığorta müqaviləsi bağlanmalı olan şəxsin icbari sığortalanmasını təmin etməlidir. Bu müddətdə şəxs həmin əməlin törədilməsinə görə təkrarən inzibati məsuliyyətə cəlb olunmur.";

2.36. 534-cü maddənin sanksiyasında "üç yüz manatdan beş yüz" sözləri "səkkiz yüz manatdan min" sözləri ilə əvəz edilsin;

2.37. aşağıdakı məzmunda 534-1-ci maddə əlavə edilsin:

**"Maddə 534-1. Həqiqi hərbi xidmətdən ehtiyata və ya istefaya buraxılarkən hərbi geyim formasını daşımaq hüququ verilmiş şəxsin hərbi geyim formasını qanunla nəzərdə tutulmamış hallarda daşıması**

Həqiqi hərbi xidmətdən ehtiyata və ya istefaya buraxılarkən hərbi geyim formasını daşımaq hüququ verilmiş şəxsin hərbi geyim formasını qanunla nəzərdə tutulmamış hallarda daşımasına görə -

beş yüz manatdan yeddi yüz manatadək məbləğdə cərimə edilir.";

2.38. 539-cu maddə üzrə:

2.38.1. adında "qərarlarının və göstərişlərinin yerinə yetirilməməsi" sözləri "fəaliyyətinə mane olma" sözləri ilə əvəz edilsin;

2.38.2. 539.1-1-ci maddənin dispozisiyası aşağıdakı redaksiyada verilsin:

"539.1-1. Əmək müqaviləsinin bağlanması, dəyişdirilməsi və xitamının əsasları və sənədləşdirilməsi, kollektiv müqavilənin (sazişin) bağlanması və yerinə yetirilməsi, əmək şəraiti, işçilərin və iş yerlərinin attestasiyasının keçirilməsi, iş və istirahət vaxtı, məzuniyyət hüququnun həyata keçirilməsi, əmək və məzuniyyət haqlarının, ezamiyyə xərclərinin, müavinət və digər ödənişlərin ödənilməsi, qadınların və yaşı 18-dən az olan işçilərin əməyindən istifadənin xüsusiyyətləri, işçilərin sığorta olunmasının tənzimlənməsi, əməyin mühafizəsi norma və qaydaları ilə bağlı əmək qanunvericiliyinə əməl olunmasına dövlət nəzarətini həyata keçirən müvafiq icra hakimiyyəti orqanının icrası məcburi olan göstərişinin əmək münasibətlərinin iştirakçıları tərəfindən icra edilməməsinə görə -";

2.38.3. aşağıdakı məzmunda 539.3-cü maddə əlavə edilsin:

"539.3. Əmək qanunvericiliyinə əməl olunmasına dövlət nəzarətini həyata keçirən müvafiq icra hakimiyyəti orqanının tələbi ilə bu Məcəllənin 539.1-1-ci maddəsində nəzərdə tutulan hallarla bağlı zəruri olan məlumatların (sənədlərin) təqdim edilməməsinə, yaxud tam, düzgün və ya vaxtında təqdim edilməməsinə (sahibkarlıq fəaliyyətinin həyata keçirildiyi yerlərə gəlməklə aparılan yoxlamalara münasibətdə bu Məcəllənin 602.4-cü maddəsində nəzərdə tutulmuş hallar istisna olmaqla) görə -

vəzifəli şəxslər min manatdan min beş yüz manatadək məbləğdə, hüquqi şəxslər iki min manatdan iki min beş yüz manatadək məbləğdə cərimə edilir.";

2.39. 555-ci maddə üzrə:

2.39.1. 555.1-ci və 555.2-ci maddələr aşağıdakı redaksiyada verilsin:

"555.1. İşəgötürən tərəfindən istehsalatda baş verən bədbəxt hadisənin baş vermə faktının gizlədilməsinə və ya bədbəxt hadisənin araşdırılması üçün hadisə baş verən gün əmək qanunvericiliyinə əməl olunmasına dövlət nəzarətini həyata keçirən müvafiq icra hakimiyyəti orqanına məlumatın verilməməsinə görə -

min manatdan iki min iki yüz manatadək məbləğdə cərimə edilir.

555.2. Bədbəxt hadisənin araşdırılması başa çatdıqdan sonra işəgötürən tərəfindən bir gündən gec olmayaraq müvafiq akt tərtib edilməməsinə və ya aparılan araşdırma barədə müvafiq akt tərtib etməkdən boyun qaçırılmasına görə -

min beş yüz manatdan iki min iki yüz manatadək məbləğdə cərimə edilir.";

2.39.2. 555.3-cü maddə ləğv edilsin;

2.40. aşağıdakı məzmunda 602-1.6-cı maddə əlavə edilsin:

"602-1.6. Lisenziya sahibinin lisenziyanın şərtlərinə riayət etməsinə nəzarət edən orqanlar tərəfindən "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikası Qanununun 1 nömrəli əlavəsində nəzərdə tutulmuş fəaliyyət növlərinin həyata keçirilməsi zamanı lisenziyanın sahibi tərəfindən Azərbaycan Respublikası qanunlarının tələblərinə və lisenziyanın şərtlərinə riayət edilmədikdə və həmin Qanunun 25.1.2-ci maddəsində müəyyən edilən göstərişlər yerinə yetirilmədikdə, lisenziyanın dayandırılması və ləğvi üçün lisenziya verən orqana əsaslandırılmış təqdimatın göndərilməməsinə görə -

vəzifəli şəxslər min manatdan min beş yüz manatadək məbləğdə cərimə edilir.".

**Maddə 3.** Bu Qanunun 2.5-ci, 2.8-ci və 2.14-cü maddələrində Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 279-cu maddəsi ilə bağlı nəzərdə tutulmuş dəyişikliklər 60 Vt və daha yuxarı gücə malik olan közərmə lampalarına münasibətdə 2026-cı il yanvarın 1-dən, 25 Vt-dan (25 Vt daxil olmaqla) 60 Vt-a qədər gücə malik olan közərmə lampalarına münasibətdə 2026-cı il iyulun 1-dən qüvvəyə minir.

*İlham ƏLİYEV,*
*Azərbaycan Respublikasının Prezidenti*

*Bakı şəhəri, 11 aprel 2025-ci il*

# Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Zati-aliləri!

Azərbaycan Respublikasının Müstəqillik Günü münasibətilə Sizi Latviya xalqı adından və şəxsən öz adımdan səmimi-qəlbdən təbrik edir, xoş arzularımı çatdırıram.

Latviya və Azərbaycan ikitərəfli əlaqələri dinamik şəkildə inkişaf etdirib və bu əlaqələr qarşılıqlı maraq doğuran yeni sahələri əhatə etməkdə davam edir. Xalqlarımız arasında qurulmuş yaxşı əlaqələr ölkələrimizin gələcək əməkdaşlığı üçün mühüm baza təşkil edir. Davosdakı son görüşümüzü və fikir mübadiləmizi böyük məmnunluqla xatırlayıram. Ölkələrimizin sülh və təhlükəsizlik şəraitində daha da inkişafını təmin etmək üçün əlaqələrimizin genişləndirilməsini səbirsizliklə gözləyirəm.

Latviya inanır ki, Avropa İttifaqı ilə Azərbaycan arasında daha dərin əməkdaşlıq hər iki tərəfə iqtisadi inkişafın və regional sabitliyin artması da daxil olmaqla mühüm faydalar gətirə bilər. Ona görə də Latviya bu dialoqun gücləndirilməsi istiqamətində səyləri dəstəkləməkdə davam edəcəkdir.

Cənab Prezident, beynəlxalq qaydalara əsaslanan sistemin ciddi sınaqdan keçdiyi bu keşməkeşli vaxtlarda mən Sizi Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsinin əsas prinsiplərini dəstəkləmək üçün çoxtərəfli forumlarda sıx əməkdaşlıq etməyə dəvət edirəm.

Zati-aliləri, Sizə ali dövləti fəaliyyətinizdə davamlı uğurlar, ölkənizə və xalqınıza əmin-amanlıq və firavanlıq diləyirəm.

Ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

*Dərin hörmətlə,*

***Edqars RİNKEVİÇS,***
***Latviya Respublikasının Prezidenti***

❖ ❖ ❖

Hörmətli cənab Prezident!

İcazə verin, ölkənizin milli bayramı - Müstəqillik Günü münasibətilə Sizə və Azərbaycan xalqına təbriklərimi çatdırım. Zati-alinizə və xalqınıza uğurlar, firavanlıq və rifah arzulayıram.

Bu gün ölkələrimiz arasında dostluq münasibətləri mövcuddur. Ümidvaram ki, Estoniya-Azərbaycan əməkdaşlığı gələcəkdə daha da dərinləşəcəkdir.

Zati-aliləri, xahiş edirəm, ən yüksək ehtiramımı, Azərbaycan Respublikasının, onun xalqının rifahı və firavanlığı naminə ən xoş arzularımı qəbul edin.

*Səmimi hörmətlə,*

***Alar KARİS,***
***Estoniya Respublikasının Prezidenti***

❖ ❖ ❖

Cənab Prezident!

Azərbaycan Respublikasının milli bayramı - 28 May - Müstəqillik Günü münasibətilə Sizi təbrik edir, xalqınıza firavanlıq və əmin-amanlıq arzulayıram.

Azərbaycan Cənubi Qafqaz regionunda Rumıniyanın strateji, yaxın və etibarlı tərəfdaşıdır. Ölkələrimiz arasındakı sıx əlaqələr möhkəm prinsiplərə və ümumi məqsədlərə əsaslanır. Rumıniya ilə Azərbaycan Respublikası arasında həm ikitərəfli, həm də regional səviyyədə həyata keçirilən çoxsaylı layihələr əməkdaşlığımızın intensivliyini mükəmməl şəkildə əks etdirir.

Mən Rumıniyanın Azərbaycanın beynəlxalq səviyyədə tanınmış sərhədləri daxilində müstəqilliyi, suverenliyi və ərazi bütövlüyünü tam dəstəklədiyini bir daha təsdiqləyirəm. Eyni zamanda Rumıniyanın bütün səviyyələrdə strateji tərəfdaşlığımızı möhkəmləndirməyə və dərinləşdirməyə sadiqliyini bir daha bildirirəm. Tam əminəm ki, davamlı səylərimiz sayəsində Rumıniya ilə Azərbaycan Respublikası arasında ikitərəfli əməkdaşlıq enerji, ticarət, təhsil kimi xüsusi əhəmiyyət kəsb edən sahələrdə inkişaf edəcəkdir. Həmçinin Rumıniya Azərbaycan Respublikası ilə Avropa İttifaqı arasında konstruktiv və perspektivli əlaqələrin inkişafında fəal iştirakını davam etdirəcəkdir.

Cənab Prezident, xahiş edirəm, Sizə olan ən yüksək ehtiramımı qəbul edəsiniz.

***Nikuşor DAN,***
***Rumıniyanın Prezidenti***

❖ ❖ ❖

Zati-aliləri!

İcazə verin, Vyetnam dövləti və xalqı adından Sizə Azərbaycan Respublikasının Müstəqillik Gününün 107 illiyi münasibətilə ən səmimi təbriklərimi çatdırım.

Azərbaycan xalqının yaxın dostu olan Vyetnam ölkənizin Sizin rəhbərliyinizlə inkişafı, beynəlxalq inteqrasiya sahəsində nailiyyətləri, regionda və dünyada mövqeyinin, statusunun möhkəmləndirilməsi ilə bağlı uğurlara daim maraq göstərir və sevinir.

Məmnuniyyətlə qeyd edirəm ki, ölkələrimiz arasında ənənəvi dostluq münasibətləri güclü inkişaf mərhələsinə qədəm qoyub və bu baxımdan, 2025-ci ilin may ayında Vyetnam Kommunist Partiyası Mərkəzi Komitəsinin Baş katibi To Lamın Azərbaycana dövlət səfəri və iki ölkə arasında strateji tərəfdaşlığın qurulması mühüm tarixi mərhələ olub.

Əminəm ki, Vyetnam ilə Azərbaycan arasında mövcud ənənəvi dostluq və strateji tərəfdaşlıq əsasında ölkələrimiz əməkdaşlığın daha da möhkəmləndirilməsi və genişləndirilməsi, həmçinin bu əməkdaşlığın bütün potensialından hər iki xalqın rifahı naminə istifadə olunması üçün yeni imkanlar əldə edəcəklər.

Azərbaycan Respublikasına tərəqqi, Azərbaycan xalqına səadət arzulayıram.

Zati-aliləri, Sizə möhkəm cansağlığı, xoşbəxtlik və şərəfli vəzifənizdə böyük uğurlar diləyirəm.

*Hörmətlə,*

***Lıonq KIONQ,***
***Vyetnam Sosialist Respublikasının Prezidenti***



❖ ❖ ❖

Cənab Prezident!

Azərbaycan Respublikasının milli bayramı - 28 May - Müstəqillik Günü münasibətilə Sizə və dost Azərbaycan xalqına Monqolustan xalqı adından səmimi təbriklərimi çatdırıram.

Böyük məmnunluq hissi ilə qeyd edirəm ki, Monqolustan və Azərbaycan arasında qarşılıqlı hörmətə, ortaq tarixi və mədəni dəyərlərə əsaslanan ənənəvi dostluq və əməkdaşlıq birgə səylərimizlə daim genişlənir.

Cənab Prezident, COP29 çərçivəsində Bakıda səmimi görüşümüz zamanı razılaşdığımız məsələlərin həyata keçirilməsi üçün Sizinlə birlikdə işləməyə sadiqəm.

Fürsətdən istifadə edərək, Sizi gözəl, zəngin tarixə malik ölkəmizə dövlət səfərinə dəvət etdiyimi bir daha bildirirəm. Əminəm ki, Sizin səfəriniz əlaqələrimizdə yeni səhifə açmaqla yanaşı, Monqolustan və Azərbaycan arasında əməkdaşlığın genişlənməsinə dəyərli töhfələr verəcəkdir.

Cənab Prezident, Sizə və sevimli ailənizə möhkəm cansağlığı, rifah, dost Azərbaycan xalqına firavanlıq arzulayıram.

*Hörmətlə,*

***Uxnaaqiyn XURELSUX,***
***Monqolustanın Prezidenti***

❖ ❖ ❖

Zati-aliləri!

Azərbaycan Respublikasının milli bayramı - Müstəqillik Günü münasibətilə Sizə səmimi təbriklərimi və xalqınızın firavanlığı naminə ən xoş arzularımı çatdırıram.

Fürsətdən istifadə edərək, Yunanıstanın xalqlarımızın mənafeyi naminə əlaqələrimizi dərinləşdirməyə və bütün sahələrdə əməkdaşlığımızı möhkəmləndirməyə hazır olduğunu bildirirəm.

Əminəm ki, biz Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsi və beynəlxalq hüquq əsasında daha geniş regionda sülh və sabitliyin təşviqi üçün birgə çalışa bilərik.

Zati-aliləri, ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

***Konstantinos TASULAS,***
***Yunanıstan Respublikasının Prezidenti***

❖ ❖ ❖

Zati-aliləri cənab Prezident!

Azərbaycanın Müstəqillik Gününün ildönümü münasibətilə Zati-alinizə, Azərbaycan Respublikasının Hökumətinə və xalqına D-8 İqtisadi Əməkdaşlıq Təşkilatının adından və öz adımdan ən səmimi təbriklərimi çatdırıram.

Azərbaycan, şübhəsiz ki, Zati-alinizin müdrik rəhbərliyi ilə sosial-iqtisadi inkişaf istiqamətində möhtəşəm uğurlar əldə edib və bununla da həm regional, həm də qlobal məsələlərdə rolunu daha da artırıb.

D-8 ailəsinin ən yeni üzvü kimi Azərbaycan təşkilatımıza özü ilə zəngin təcrübə, dinamizm və inkişaf etməkdə olan ölkələr arasında əməkdaşlığa möhkəm sadiqlik gətirib. Biz Azərbaycanın çoxtərəfliliyə və inklüziv inkişafa davamlı dəstəyini yüksək qiymətləndiririk. Əminəm ki, Azərbaycanın D-8 təşkilatında fəal iştirakı qarşılıqlı fayda naminə qurumun daha da inkişaf etməsinə mühüm töhfə verəcək.

Möhtərəm Prezident, Sizi Müstəqillik Gününüzün ildönümü münasibətilə bir daha təbrik edir, Azərbaycan Respublikasına qarşıdakı illərdə davamlı sülh, tərəqqi, birlik və sabitlik arzulayıram.

Zati-aliləri, Sizə olan ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

*Hörmətlə,*

***İsiaka Abdulqadir İMAM,***
***D-8 İqtisadi Əməkdaşlıq Təşkilatının Baş katibi***

❖ ❖ ❖

Zati-aliləri!

Azərbaycanın milli bayramı - 28 May - Müstəqillik Günü münasibətilə Qana Respublikasının Hökuməti və xalqı adından Zati-alinizə, Azərbaycan Hökumətinə və xalqına ən səmimi təbriklərimi çatdırıram.

Mən ölkələrimiz və xalqlarımız arasında səmimi münasibətlərin inkişafı üçün Zati-alinizlə sıx əməkdaşlığı davam etdirməyə sadiqliyimi bir daha bildirirəm.

Zati-aliləri, Sizə cansağlığı, Azərbaycan xalqına firavanlıq arzulayıram.

*Hörmətlə,*

***Con Dramani MAHAMA,***
***Qana Respublikasının Prezidenti***

❖ ❖ ❖

Zati-aliləri!

Azərbaycan Respublikasının Müstəqillik Günü münasibətilə Sizə və xalqınıza ən səmimi təbriklərimi çatdırıram.

Zati-alinizə ən xoş arzularımı bildirir, ölkənizə və xalqınıza davamlı tərəqqi, firavanlıq və uğurlar diləyirəm.

*Hörmətlə,*

***II Əl-Hüseyn bin ABDULLAH,***
***İordaniya Haşimilər Krallığının Vəliəhd Şahzadəsi***

❖ ❖ ❖

Hörmətli cənab Prezident!

İcazə verin, Azərbaycanın milli bayramı - Müstəqillik Günü münasibətilə BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı adından və şəxsən öz adımdan Zati-alinizi təbrik edim.

Sizə cansağlığı və səadət, Azərbaycan xalqına isə əmin-amanlıq və firavanlıq arzulayıram.

Zati-alinizə ən yüksək ehtiramımı ifadə edirəm.

***Qu DONQYU,***
***BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının Baş direktoru***

❖ ❖ ❖

Zati-aliləri!

Xahiş edirəm, ölkənizin Müstəqillik Günü münasibətilə Zati-alinizə və Azərbaycan xalqına ən səmimi təbriklərimi və xoş arzularımı qəbul edin.

Azərbaycan bu tarixi günü çoxtərəfliliyin sadiq müdafiəçisi, eyni zamanda sülh və təhlükəsizliyə yönəlmiş qlobal və regional çağırışların geniş spektrinin öhdəsindən gəlmək üçün beynəlxalq səylərə rəhbərlik edərək böyük təcrübə qazanmış ölkə kimi qeyd edir. Azərbaycanın suverenliyini və ərazi bütövlüyünü bərpa etməsi kimi mühüm nailiyyəti regional sabitliyə əvəzsiz töhfədir.

Zati-alinizin aydın və strateji baxışı ilə Azərbaycanın Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirəyə sədrliyi təşkilatdakı proseslərə güclü təkan verir. Geniş sədrlik proqramı ilə Azərbaycan öz liderliyini təşkilatın əsas fəaliyyət sahələri olan iqtisadiyyat, ətraf mühit, insan amili, yeni çağırışlarla və təhdidlərlə mübarizə, hərbi-siyasi məsələlər üzrə nümayiş etdirir. Buraya, həmçinin Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirənin tamhüquqlu regional beynəlxalq təşkilata çevrilməsi prosesinin mühüm mərhələsində nəqliyyat və tranzit əməkdaşlığının inkişafı, eləcə də Azərbaycanın COP-29 Sədrliyinin mühüm uğurları ilə bağlı məsələlər də daxildir.

Cənab Prezident, bu ilin yanvarında Zati-aliniz tərəfindən səmimi qəbula, həmçinin siyasi uzaqgörənliyinizə, strateji baxışınıza, təşkilatımızın transformasiyasına verdiyiniz davamlı dəstəyə görə Sizə dərin minnətdarlığımı bildirirəm. Azərbaycanın uğurlu sədrliyi, üzv dövlətlər arasında təşkilatın Nizamnaməsinin layihəsi üzrə müzakirələrin gedişi bu sənədin 2025-ci ilin oktyabrında Bakıda keçirilməsi planlaşdırılan sammitdə qəbul ediləcəyinə ümid verir. Azərbaycanın səyləri təşkilatın daha da güclənəcəyinə, Asiyada dayanıqlı inkişafa, rəqəmsallaşma prosesinə töhfə verəcəyinə tam əminlik yaradır.

Zati-alinizə möhkəm cansağlığı, xoşbəxtlik, xalqınızın davamlı sülh və firavanlıq yolu ilə irəliyə doğru aparılması istiqamətində fəaliyyətinizdə uğurlar arzulayıram.

Sizə olan ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

***Kayrat SARIBAY,***
***Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirənin Baş katibi***

❖ ❖ ❖

Hörmətli İlham Heydər oğlu!

Sizi Azərbaycan Respublikasının Müstəqillik Günü münasibətilə səmimi-qəlbdən təbrik edirəm.

28 May Azərbaycan xalqının milli qürurunu, birliyini, xeyirxahlığını və rifahını təcəssüm etdirən bir gündür.

Sizin müdrik, uzaqgörən və praqmatik siyasətiniz sayəsində Azərbaycan dövlətçiliyi möhkəmlənmiş, vətəndaşların rifahı artmış və respublikanızın beynəlxalq arenadakı nüfuzu yüksəlmişdir.

Zəngin mədəni-tarixi irsə malik ölkəniz bu gün güclü dövlətə çevrilmiş, yüksək iqtisadi artım templərinə nail olmuşdur.

Zamanın sınağından çıxmış Rusiya-Azərbaycan münasibətləri sabit və qarşılıqlı faydalı əməkdaşlıq nümunəsi olaraq qalır. Ortaq dəyərlər, hörmət, etimad və dostluq dövlətlərarası əlaqələrin möhkəm təməlini təşkil edir.

Sankt-Peterburqa göstərdiyiniz daimi diqqətiniz üçün Sizə dərin minnətdarlığımı bildirirəm. Azərbaycan Respublikası Rusiyanın Şimal paytaxtının əsas tərəfdaşlarından biridir.

Əminəm ki, ortaq qəhrəmanlıq tariximiz və inkişaf istiqamətində səylərimiz iqtisadiyyat, mədəniyyət, təhsil, səhiyyə və turizm sahələrində Sankt-Peterburq-Azərbaycan əlaqələrinin daha da genişlənməsinə töhfə verəcəkdir.

Sizə və bütün Azərbaycan xalqına möhkəm cansağlığı və rifah, günəşli Odlar Yurduna isə inamla irəliləməkdə davam etməyi arzulayıram.

*Hörmətlə,*

***Aleksandr BEQLOV,***
***Rusiya Federasiyasının Sankt-Peterburq şəhərinin qubernatoru***

❖ ❖ ❖

Möhtərəm İlham Heydər oğlu!

Azərbaycan Respublikasının Müstəqillik Günü münasibətilə səmimi təbriklərimi qəbul etməyinizi xahiş edirəm.

Bu tarixi gün zəngin mədəni irs, müstəqillik səyləri, ləyaqət əsasında müasir suveren dövlət qurmuş Azərbaycan xalqının azadlıqsevərliyinin, uzaqgörənliyinin və dəyanətinin təcəssümüdür.

Azərbaycan Sizin rəhbərliyinizlə regional sabitliyə sanballı töhfə verməyə və dinamik inkişaf yolu ilə beynəlxalq əlaqələrini genişləndirməyə davam edir.

Bu əlamətdar bayram münasibətilə Azərbaycanın bütün vətəndaşlarına davamlı sülh, əmin-amanlıq və tərəqqi arzulayıram.

Cənab Prezident, ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

*Dərin hörmətlə,*

***Tatyana ANODİNA,***
***Dövlətlərarası Aviasiya Şurasının prezidenti***

❖ ❖ ❖

Möhtərəm cənab Prezident!

Rusiya Federasiyası Müsəlmanları Ruhani İdarəsinin adından Sizi və Azərbaycan Respublikasının bütün xalqını 28 May - Müstəqillik Günü münasibətilə ürəkdən təbrik edirəm.

Ölkəniz və xalqınız üçün bu əlamətdar gündə Sizə və Azərbaycanın bütün vətəndaşlarına uzun illər ərzində sülh, xeyirxahlıq, firavanlıq, həmçinin iqtisadiyyat, siyasət, mədəniyyət sahələrində sosial əhəmiyyətli layihələrin həyata keçirilməsində, o cümlədən dostluq əlaqələrinin, ikitərəfli əməkdaşlığın və Azərbaycan ilə Rusiya arasında səmərəli əlaqələrin möhkəmləndirilməsində yeni-yeni uğurlar arzulayıram.

Uca Rəbbimdən Azərbaycanın və onun qardaş xalqının firavanlığı naminə bütün xeyirxah işlərə, təşəbbüslərə öz rəhmətini və bərəkətini göndərməsini dua edirəm.

Möhtərəm cənab Prezident, Müstəqillik Gününüz mübarək olsun!

*Hörmətlə və xeyirxah dualarla,*

***Müfti şeyx Ravil QAYNUTDİN,***
***Rusiya Federasiyası Müsəlmanları Ruhani İdarəsinin sədri, Beynəlxalq Müsəlman Forumunun baş katibi***

❖ ❖ ❖

Hörmətli cənab Prezident!

Sizi "Konstitusiya və Suverenlik İli"ndə 28 May - Azərbaycan Respublikasının Müstəqillik Günü münasibətilə Türk Dünyası Mediatorlar Birliyi və bütün türkdilli dövlətlərin mediatorları adından təbrik etmək şərəfinə nail olduğum üçün çox xoşbəxtəm. Məhz Sizin liderliyinizlə 28 May tarixinə yeni ruh qatılaraq can Azərbaycanımızın ərazi bütövlüyü, suverenliyi tam təmin olunub və bu, ölkənin müasir tarixinə qızıl hərflərlə yazılıb.

Sizin söylədiyiniz və türk dünyası mediatorlarının bütün tədbirlərində sevə-sevə dinlədiyimiz, dillər əzbərimiz olan "Biz beynəlxalq təşkilatlarla bağlı bundan sonra da öz addımlarımızı atacağıq, ilk növbədə, Türk Dövlətləri Təşkilatı çərçivəsində səylərimizi davam etdirəcəyik. Bu, bizim üçün prioritetdir. Azərbaycanın yürütdüyü siyasət bunu aydın göstərir. Bu, bizim üçün əsas beynəlxalq təşkilatdır, çünki bu, bizim ailəmizdir. Bizim başqa ailəmiz yoxdur. Bizim ailəmiz türk dünyasıdır" sözləriniz bizim əsas fəaliyyət xəttimizi müəyyən edir. Eyni zamanda Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın və Sizin türk dünyası üçün müəyyən etdiyiniz strateji xətt bundan sonra yüz illər üçün böyük işlərin həm təməli, həm də davamıdır.

Cənab Prezident, Sizin Azərbaycanda apardığınız innovativ islahatlar bu gün nəinki türkdilli dövlətlər, eyni zamanda bir çox digər ölkələr üçün də nümunə sayılır. Sizin imzaladığınız "Mediasiya haqqında" qanun türkdilli dövlətlərin mediatorlarının, demək olar ki, bütün tədbirlərində örnək kimi qəbul edilir. Artıq bir neçə türkdilli dövlət bu qanunu model qanun olaraq qəbul edib və mediasiya institutunun, mediator peşəsinin inkişafında Azərbaycanın nümunəsini tətbiq edir. Bizim peşəmiz dünya üçün yeni yaradılan peşələr sırasındadır. Siz isə Azərbaycanda bu peşə fəaliyyətinin müəllifisiniz. Nəinki türkdilli dövlətlər, həmçinin mediasiya təsisatı olmayan bir çox ölkələr də Sizin bu qərarınızdan ilhamlanaraq öz ölkələrində həmin peşə növünün inkişafı üçün işlər görürlər. Bunun üçün Sizə xüsusi təşəkkür edirəm.

"Mediasiya haqqında" qanunda dəyişiklik edilməsi ilə bağlı bu yaxınlarda imzaladığınız qanun da bu gün mediatorların diqqət mərkəzindədir. Hətta Özbəkistanda təşkil olunacaq Mediatorların Beynəlxalq Yay Məktəbində həmin qanunun öyrənilməsi və digər dövlətlərdə tətbiqi ilə bağlı panel müzakirələr və təqdimatlar keçiriləcəkdir. Qurucu üzvlərindən biri də Azərbaycan olan Türk Dünyası Mediatorlar Birliyinin yaradılmasında Sizin strateji xəttinizin çox mühüm rolu var.

Cənab Prezident, Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev qeyd etmişdir ki, müstəqilliyin əldə olunması nə qədər çətindirsə, onun saxlanılması, daimi, əbədi olması bundan da çətindir. Məhz Sizin rəhbərliyinizlə can Azərbaycan bu çətin işi bacardı və ərazi bütövlüyünü bərpa etdi, müstəqilliyini qoruyub saxladı. Bütün türk dünyası Sizinlə qürur duyur.

Sizi bir daha təbrik edir və Zati-alinizə ən xoş arzularımızı bildiririk.

*Hörmətlə,*

***Yakup ERİKEL,***
***Türk Dünyası Mediatorlar Birliyinin İdarə Heyətinin sədri***

❖ ❖ ❖

Çox hörmətli cənab Prezident!

"Ukrayna Azərbaycanlıları Alimlər Şurası" İctimai Təşkilatının üzvləri adından və şəxsən öz adımdan Sizi və doğma Azərbaycan xalqını müsəlman Şərqində ilk dünyəvi demokratik dövlətin - Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 107-ci ildönümü münasibətilə səmimi-qəlbdən təbrik etməkdən böyük şərəf duyuram.

Ümummilli Liderimiz Heydər Əliyevin Azərbaycan dövlətçiliyinin inkişafı ilə bağlı arzu və vəsiyyətlərini həyata keçirmək istiqamətində yürütdüyünüz siyasət nəticəsində doğma Azərbaycanımızın ardıcıl şəkildə inkişafı, dünya ölkələri arasında tutduğu layiqli yer bizi olduqca fərəhləndirir. Sizin rəhbərliyinizlə qazanılan zəfərlər ata vəsiyyətinin yerinə yetirilməsinin əməli təsdiqidir. Uzaqgörənliyi və müdrik rəhbərliyi ilə Azərbaycanı uğur və tərəqqi yoluna çıxarmış Ümummilli Liderimizin anadan olmasının 102 illiyi münasibətilə xatirəsinə dərin ehtiram olaraq mənim Ukraynada işıq üzü görmüş "Oteü naüii" ("Millət atası") adlı monoqrafiyamın Ukrayna və Azərbaycan Milli Elmlər akademiyalarında, digər ictimai-siyasi dairələrdə təqdimatı Ulu Öndərə hörmət və məhəbbətimizin növbəti təzahürüdür.

Cənab Prezident, Azərbaycanımızın müasir dövrdə dövlət quruculuğu sahəsində əldə etdiyi təcrübəni, eləcə də ölkənin siyasi, iqtisadi, mədəni əməkdaşlığının inkişaf etdirilməsinə göstərdiyiniz diqqəti yüksək qiymətləndiririk.

Bu xoş fürsətdən istifadə edərək, Sizə möhkəm cansağlığı, uzun ömür, ali dövləti fəaliyyətinizdə zəfər dolu yeni uğurlar, Azərbaycan xalqına daim firavanlıq və tərəqqi arzulayıram.

*Dərin hörmətlə,*

***Arif QULİYEV,***
***"Ukrayna Azərbaycanlıları Alimlər Şurası" İctimai Təşkilatının sədri, hüquq elmləri doktoru, professor, diplomat, Ukraynanın Əməkdar təhsil işçisi, Ukrayna Ali Təhsil Milli Elmlər Akademiyasının akademiki***

# İqtisadi Şuranın növbəti iclası

**Mayın 30-da İqtisadi Şuranın növbəti iclası keçirilib.**



Nazirlər Kabinetindən AZƏRTAC-a bildiriblər ki, Azərbaycan Respublikası İqtisadi Şurasının sədri, Baş nazir Əli Əsədovun rəhbərliyi ilə keçirilən iclasın gündəliyində ortamüddətli dövr üzrə makroiqtisadi sabitliyin və dayanıqlı iqtisadi inkişafın təmin olunması üçün Tədbirlər Planı, dəstəkləyici iqtisadi siyasət alətləri, büdcə siyasəti və habelə digər prioritet məsələlər ətraflı müzakirə olunub.

Gündəlikdə olan məsələlər üzrə Azərbaycan Respublikası Prezidentinin köməkçisi Şahmar Mövsümovun və iqtisadiyyat naziri Mikayıl Cabbarovun məruzəsi dinlənilib. Təqdim olunan iqtisadi siyasət gündəliyinə dair İqtisadi Şuranın üzvləri tərəfindən geniş müzakirələr aparılıb.

İclasın yekununda İqtisadi Şuranın üzvlərinin rəy və təklifləri nəzərə alınmaqla qərarlar qəbul olunub və aidiyyəti qurumlara müvafiq tapşırıqlar verilib.

# Azərbaycanla ABŞ arasında enerji təhlükəsizliyi üzrə əməkdaşlıq məsələləri müzakirə edilib

**Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov ABŞ Dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə köməkçisinin müavini Coşua Hakın rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.**



Xarici İşlər Nazirliyindən AZƏRTAC-a bildirilib ki, görüşdə Azərbaycan və ABŞ arasında ikitərəfli və çoxtərəfli əməkdaşlıq məsələləri, habelə Azərbaycan ilə Ermənistan arasında normallaşma prosesinin cari vəziyyəti müzakirə olunub.

Azərbaycanla ABŞ arasında bir sıra istiqamətlərdə tarixi münasibətlərin, enerji təhlükəsizliyi və bir sıra digər sahələrdə faydalı əməkdaşlığın əhəmiyyəti, qarşılıqlı maraqlar çərçivəsində ikitərəfli münasibətlərin inkişafının vacibliyi qeyd olunub.

Görüş zamanı bölgədə enerji layihələri, alternativ enerji üzrə planlar, nəqliyyat və kommunikasiya xətlərinin perspektivləri, Mərkəzi Asiya ilə birgə əməkdaşlıq fəaliyyəti nəzərdən keçirilib. Ceyhun Bayramov postmünaqişə dövründə bölgədə vəziyyət, Azərbaycanla Ermənistan arasında sülh prosesinin cari vəziyyəti və perspektivləri, mövcud maneələr barədə qarşı tərəfə məlumat verib.

Görüşdə habelə qarşılıqlı maraq doğuran regional məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Xankəndidə İşçi qrupunun iclası olub

**Azərbaycanın işğaldan azad edilmiş ərazilərində məsələlərin mərkəzləşdirilmiş qaydada həlli ilə bağlı yaradılmış Əlaqələndirmə Qərargahının İdarələrarası Mərkəzinin nəzdində fəaliyyət göstərən Enerji təminatı məsələləri İşçi qrupunun növbəti iclası mayın 30-da Xankəndidə keçirilib.**



AZƏRTAC xəbər verir ki, İşçi qrupun rəhbəri, energetika nazirinin müavini Elnur Soltanov iclasda işğaldan azad olunmuş ərazilərimizdə energetika sahəsini əhatə edən tapşırıqların icra vəziyyəti barədə danışıb. Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasətin tərkib hissəsi kimi, azad olunmuş ərazilərdə enerji infrastrukturunun müasir tələblər əsasında qurulmasının prioritet təşkil etdiyi, bu istiqamətdə mərhələli və sistemli şəkildə genişmiqyaslı layihələrin icra olunduğu vurğulanıb.

İclasda Xankəndi şəhəri, Ağdərə və Xocalı rayonlarında, həmçinin işğaldan azad olunmuş digər ərazilərdə qazlaşdırılma prosesinə dair təqdimat edilib, həyata keçirilən layihələrin icra qrafiki və planlaşdırılan işlər barədə məlumat verilib. Elektrik enerjisi infrastrukturu üzrə isə kiçik su-elektrik stansiyalarının, yeni yarımstansiyaların, ötürücü və paylayıcı xətlərin tikintisi, mövcud şəbəkələrin yenidən qurulması və dayanıqlı enerji təminatının yaradılması məqsədilə icra olunan tədbirlər, o cümlədən "yaşıl enerji zonası" konsepsiyasına uyğun layihələrin icrası ilə bağlı görülən işlər müzakirə edilib.

Sonda müzakirə edilən məsələlərin həlli istiqamətində müvafiq qərarlar qəbul olunub.

# MDB-nin iştirakçısı olan dövlətlərin Gənclər Parlamentlərarası Assambleyasının iclası keçirilib




**Mayın 30-da Müstəqil Dövlətlər Birliyinin (MDB) iştirakçısı olan dövlətlərin Gənclər Parlamentlərarası Assambleyasının (MDB GPA) videokonfrans formatında 24-cü iclası keçirilib.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən bildirilib ki, tədbirdə MDB GPA-da Milli Məclisin nümayəndə heyətinin rəhbəri Könül Nurullayeva iştirak edib. O, "Gənclərin sosial problemlərinin həlli - MDB-nin iştirakçısı olan dövlətlərin təcrübəsi" mövzusunda məruzə ilə çıxış edib, Azərbaycanda bu sahədə görülən işlər barədə məlumat verib.

Onlayn iclasda həmçinin "MDB-yə üzv dövlətlərdə gənclərin iştirakı ilə nəqliyyat infrastrukturu sahəsində qanunvericiliyin təkmilləşdirilməsi", "2025-ci ildə MDB-yə üzv dövlətlərin gənclərlə iş üzrə əsas layihələri", "IX Sankt-Peterburq Beynəlxalq Gənclər Əmək Forumunun nəticələri" və digər mövzular üzrə məruzələr dinlənilib.

*"Azərbaycan"*

# BMT-nin Cənub-Cənub Əməkdaşlığı üzrə Ofisi Bakıda Qlobal Cənub QHT Platformasının yaradılmasını alqışlayıb

**Mayın 29-da Nyu Yorkda BMT-nin Cənub-Cənub Əməkdaşlığı üzrə Ofisinin (The United Nations Office for South-South Cooperation (UNOSSC) direktoru Dima Al-Khatib Azərbaycan Respublikasının QHT-lərə Dövlət Dəstəyi Agentliyinin nümayəndə heyətini qəbul edib.**

AZƏRTAC xəbər verir ki, Dima Al-Khatib aprelin 28-də 116 ölkədən QHT-lərin iştirakı ilə Bakıda təsis edilmiş Qlobal Cənub QHT Platformasını alqışladığını bildirərək deyib: "Qlobal Cənub QHT Platforması təşəbbüsünü yüksək qiymətləndiririk. Ümumilikdə Azərbaycan dövlətinin Qlobal Cənuba yönəlik siyasətini, eləcə də QHT-lərə göstərdiyi dəstəyi təqdir edirik".

O, BMT-nin Cənub-Cənub Əməkdaşlığı üzrə Ofisinin Qlobal Cənub QHT Platforması ilə sıx əməkdaşlıqda maraqlı olduğunu diqqətə çatdırıb.

İcraçı direktor Aygün Əliyeva QHT-lərə Dövlət Dəstəyi Agentliyinin bu qlobal toplantıya tərəfdaş kimi dəstək olduğunu vurğulayıb. O, bu platformanın yaradılması ideyasının COP29 dövründə Azərbaycan vətəndaş cəmiyyətindən gəldiyini məmnunluqla qeyd edib.

Dima Al-Khatib Azərbaycanın COP29-a uğurla sədrlik etməsinə, Bakıda ötən il keçirilmiş bu tədbirin mühüm önəminə və nəticələrinə diqqət çəkib.

# "Buzlaqların qorunması" üzrə birinci yüksəksəviyyəli beynəlxalq konfrans

**Tacikistan Respublikasının paytaxtı Düşənbə şəhərində "Buzlaqların qorunması" üzrə birinci yüksəksəviyyəli beynəlxalq konfrans keçirilir.**




Nazirlər Kabinetindən AZƏRTAC-a bildiriblər ki, 41 ölkənin və 57 beynəlxalq təşkilatın təmsil olunduğu tədbirdə Azərbaycanın nümayəndə heyəti də iştirak edir.

Azərbaycan Baş nazirinin müavini Samir Şərifovun rəhbərlik etdiyi nümayəndə heyətinə Ekologiya və Təbii Sərvətlər Nazirliyinin və Xarici İşlər Nazirliyinin rəsmiləri daxildir.

Konfrans Tacikistan Prezidenti Emoməli Rəhmonun təşəbbüsü ilə Birləşmiş Millətlər Təşkilatının 2025-ci ili "Beynəlxalq Buzlaqların Qorunması İli" elan etməsi çərçivəsində keçirilir və qlobal iqlim dəyişikliyi ilə mübarizə şəraitində buzlaqların mühüm roluna diqqət çəkir.

Mayın 30-da konfransın plenar iclasında çıxış edən Samir Şərifov 2024-cü ildə Azərbaycan Prezidentinin rəhbərliyi ilə Bakıda uğurla keçirilmiş BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasında (COP29) uzun illər ərzində razılaşdırılmamış məsələlərdə mühüm irəliləyişlərin əldə olunduğunu, inkişaf etməkdə olan ölkələrin iqlim dəyişiklikləri ilə mübarizəsi üçün ildə 300 milyard ABŞ dollarına qədər iqlim maliyyələşməsinin ayrıldığını, İtki və Zərər Fondunun yaradıldığını və karbon kreditləri ilə ticarəti tənzimləyən hüquqi çərçivənin razılaşdırıldığını xüsusi vurğulayıb.

Baş nazirin müavini buzlaqların mühafizəsinin yalnız regional deyil, eyni zamanda qlobal əhəmiyyət kəsb etdiyini diqqətə çatdırıb. O, buzlaqların sürətlə əriməsinin insanların gündəlik həyatı, ictimai səhiyyə, su və ərzaq təhlükəsizliyi, ekosistemlərin dayanıqlılığı, eləcə də Birləşmiş Millətlər Təşkilatının Dayanıqlı İnkişaf Məqsədlərinə göstərdiyi mənfi təsirləri baxımından ciddi təhdid yaratdığını bildirib. S.Şərifov Azərbaycanın da buzlaq ehtiyatlarına malik ölkə kimi bu məsələyə xüsusi həssaslıqla yanaşdığını qeyd edib.

Baş nazirin müavini buzlaqların qorunmasını qlobal iqlim dəyişikliyi ilə mübarizə proqramının mühüm mitiqasiya istiqamətlərindən biri kimi qiymətləndirib və vurğulayıb ki, qlobal temperatur artımının Paris İqlim Sazişi çərçivəsində razılaşdırılmış həddi aşmaması buzlaqların qorunması üçün başlıca şərtlərdəndir. O, ölkəmizdə iqlim dəyişikliyi ilə mübarizə və Dayanıqlı İnkişaf Məqsədlərinə nail olunmasının prioritet istiqamət kimi müəyyənləşdirildiyini, həmçinin ölkəmizin qlobal səylərə fəal və effektiv töhfə verməyə davam etməyə hazır olduğunu deyib. Bu xüsusda konfransda iştirak edən dövlətləri Qlobal İqlim Sazişində nəzərdə tutulmuş milli öhdəliklərini yerinə yetirməyə və iqlim dəyişikliklərinə qarşı qlobal səylərə əməli töhfə verməyə çağırıb.

Konfrans çərçivəsində S.Şərifov Tacikistanın Baş naziri Koxir Rasulzoda tərəfindən qəbul edilib, Tacikistanın Baş nazirinin müavini, Azərbaycan-Tacikistan İqtisadi Əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın həmsədri Usmonali Usmonzoda, həmçinin İqtisadi Əməkdaşlıq Təşkilatının Baş katibi Əsəd Məcid Xan ilə görüşlər keçirib, iqlim dəyişikliyi ilə mübarizə, habelə qarşılıqlı maraq doğuran digər məsələlər üzrə fikir mübadiləsi aparıb.

## MƏRKƏZİ SEÇKİ KOMİSSİYASINDA

# Mərkəzi Seçki Komissiyasının iclası keçirilib

**Mayın 30-da Məzahir Pənahovun sədrliyi ilə Mərkəzi Seçki Komissiyasının iclası keçirilib.**



AZƏRTAC xəbər verir ki, əvvəlcə komissiyanın 2025-ci il 26 may tarixli iclasının protokolu təsdiq olunub.

Sonra bəzi seçki dairələri üzrə dairə seçki komissiyalarının tərkibində dəyişiklik edilməsi məsələsinə baxılıb. Komissiya üzvlərinin müzakirəsinin ardınca 58 saylı Xaçmaz kənd və 62 saylı Kürdəmir seçki dairələri dairə seçki komissiyalarının tərkibində dəyişiklik olunması qərara alınıb.

Media mənsublarının iştirakı ilə keçirilən iclasda həmçinin cari məsələlərə də baxılıb.

### QƏRAR № 16/72

## Mərkəzi Seçki Komissiyasının 2025-ci il 26 may tarixli iclas protokolunun təsdiq edilməsi barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarı

Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci və 28.4-cü maddələrinə uyğun olaraq qərara alır:

Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının 2025-ci il 26 may tarixli iclasının protokolu təsdiq edilsin.

**Sədr** Məzahir Pənahov
**Katib** Arifə Muxtarova
**Katib** Mikayıl Rəhimov

*30.05.2025*

### QƏRAR № 16/73

## Bəzi dairə seçki komissiyalarının tərkibində dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarı

Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci, 28.4-cü və 30-cu maddələrinə uyğun olaraq **qərara alır:**

Yetkin Cavad oğlu Mehmanov 58 saylı Xaçmaz kənd, Şirvan Mövsüm oğlu Məmmədov 62 saylı Kürdəmir seçki dairəsi dairə seçki komissiyasının həlledici səs hüquqlu üzvü təyin edilsinlər.

**Sədr** Məzahir Pənahov
**Katib** Arifə Muxtarova
**Katib** Mikayıl Rəhimov

*30.05.2025*

# Azərbaycan və Gürcüstan Milli kitabxanaları arasında əlaqələrin daha da möhkəmləndirilməsi müzakirə olunub

XXVII Tbilisi Beynəlxalq Kitab Festivalı çərçivəsində mayın 30-da Azərbaycan Milli Kitabxanasının direktoru, professor Kərim Tahirov Gürcüstan Milli Kitabxanasında olub.



Kitabxanadan AZƏRTAC-a bildirilib ki, Kərim Tahirov Gürcüstan Milli Kitabxanasının direktoru Konstantin Qamsaxurdiya ilə görüşüb.

K.Qamsaxurdiya Gürcüstan Milli Kitabxanasında Azərbaycanla bağlı qiymətli kitabların olduğunu bildirib.

Direktor Kərim Tahirov isə iki ölkə arasındakı əlaqələrin daha da möhkəmləndirilməsi üçün kitabxanalar arasındakı əlaqələrin inkişaf etdirilməsinin vacibliyini vurğulayıb.

"Kitablar ölkələr arasında ən yaxşı körpüdür. Ölkələrimiz arasında kitab mübadiləsi bizi bir-birimizə daha da tanıdır. Oxucularımız ölkələrimizin tarixi və mədəniyyəti ilə yaxından tanış olurlar", - deyə o diqqətə çatdırıb.

Görüş zamanı Azərbaycan Milli Kitabxanası ilə Gürcüstan Milli Kitabxanası arasında mövcud Memoranduma əsasən, iki ölkənin Milli kitabxanalarının qarşılıqlı əməkdaşlıq fəaliyyəti, kitabxana arxivlərinin zənginləşdirilməsi məqsədilə nadir kitabların və əlyazmaların tədqiqi, kitab sərgilərinin təşkili, beynəlxalq kitab mübadiləsinin inkişafı və kitabxana elminin bütün sahələrində mütəxəssislərin təcrübə mübadiləsinin aparılması, treninq kursları, seminarlar, elmi konfranslar və simpoziumların keçirilməsi müzakirə olunub.

Görüşün sonunda Kərim Tahirov K.Qamsaxurdiyaya öz təşəkkürünü bildirib və Gürcüstan Milli Kitabxanasına Azərbaycana dair kitablar hədiyyə edib.

# Milli Məclisin yaz sessiyası başa çatdı

**Mayın 30-da Milli Məclisin yaz sessiyasının sonuncu plenar iclası keçirilib. Parlamentin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən bildirilib ki, iclası açan Milli Məclisin Sədri Sahibə Qafarova öncə 28 May - Müstəqillik Günündə Laçın Beynəlxalq Hava Limanının açılışı ilə bağlı fikirlərini bildirib. Açılış mərasimində Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın iştirak etdiklərini deyən Milli Məclisin Sədri xatırlatdı ki, Laçın Beynəlxalq Hava Limanı işğaldan azad edilmiş ərazilərdə inşa edilmiş üçüncü beynəlxalq hava limanıdır.**



"Hesab edirəm ki, strateji əhəmiyyət daşıyan bir ərazidə hava limanının açılması ərazi bütövlüyünü və suverenliyini təmin etmiş Azərbaycanın yeni milli hədəflərə doğru inamla irəlilədiyini göstərən son dərəcə önəmli hadisədir. Hava limanının açılışında qardaş Türkiyə Cümhuriyyəti rəhbərinin iştirakı Azərbaycan və Türkiyəni bir-birinə bağlayan strateji müttəfiqlik əlaqələrinin sarsılmazlığını bir daha nümayiş etdirdi", - deyə Milli Məclisin Sədri Sahibə Qafarova bildirib.

Milli Məclisin Sədri Müstəqillik Günündə Laçında keçirilən Azərbaycan-Türkiyə-Pakistan Zirvə görüşü ilə də bağlı fikirlərini bölüşüb. Qeyd edib ki, bu görüş ortaq dəyərləri bölüşən üç dost və qardaş ölkənin strateji birliyinin yeni bir təzahürü oldu. İnamla söyləmək olar ki, Zirvə görüşündə qəbul edilmiş qərarlar dost və qardaş ölkələrin ən müxtəlif sahələrdə əməkdaşlığında yeni mərhələ açacaqdır.

"Ulu Öndər Heydər Əliyevin siyasi kursunu yeni çağırışlara uyğun davam etdirən dövlət başçısı İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Respublikası müstəqillik yollarında bundan sonra da inamla addımlayacaq və yeni böyük uğurlara imza atacaqdır" - deyən Milli Məclisin Sədri diqqətə çatdırıb ki, Müstəqillik Günü münasibəti ilə Azərbaycan Prezidenti İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya Milli Məclisin adından təbrik məktubları da ünvanlanıb.

Sonra iclasda cari məsələlərin müzakirəsi keçirilib. Müzakirələrdə komitə sədrləri Zahid Oruc, Fazil Mustafa, deputatlar Nizami Səfərov, Razi Nurullayev, Vüqar Bayramov, Vasif Qafarov, Bəhruz Məhərrəmov, Vüqar İskəndərov, Rizvan Nəbiyev, Tural Gəncəliyev çıxış ediblər.

Deputatlar mayın 28-də Laçında keçirilmiş Azərbaycan, Türkiyə və Pakistan dövlət başçılarının Zirvə görüşünün ölkəmizin xarici siyasətində dostluq, qardaşlıq və strateji əməkdaşlıq münasibətlərinin önəmli yer tutduğunu bir daha nümayiş etdirdiyini vurğulayıblar. Çıxış edənlər Laçında sürətli yenidənqurma və bərpa işlərinin həyata keçirildiyini diqqətə çatdıraraq, burada istifadəyə verilmiş hava limanının həm strateji, həm də Şərqi Zəngəzurun iqtisadi inkişafı, habelə turizmin genişləndirilməsi, sərmayələrin cəlb edilməsi baxımından vacibliyindən bəhs ediblər.

Millət vəkilləri ölkə Prezidentinin uğurlu hərbi və diplomatik strategiyasına nəzər salaraq, Azərbaycanın 30 illik işğala öz resursları hesabına son qoyduğunu xüsusi qeyd ediblər. Dövlət başçımızın regionda sülhün bərqərar olması üçün göstərdiyi səylərin beynəlxalq səviyyədə yüksək dəyərləndirildiyini vurğulayıblar.

Çıxışlarda, habelə müasir dövrdə ölkənin kibersuverenliyinin təmin edilməsinin əhəmiyyətindən danışılıb. Kritik infrastruktur obyektlərinin etibarlı mühafizəsinin, vətəndaşların hüquq və mənafelərinin müdafiəsinin kibertəhlükəsizliyin təmin edilməsi ilə bağlı olduğu bildirilib.

Müzakirələr zamanı deputatlar bir sıra digər aktual məsələlər barədə də öz fikirlərini bölüşüblər.

Parlamentin Sədri Sahibə Qafarova iclasda 10 məsələnin müzakirə ediləcəyini, birinci məsələnin gender bərabərliyinin təmin edilməsinə nəzarəti həyata keçirən icra hakimiyyəti orqanının 2024-cü ildə fəaliyyəti haqqında məlumat olduğunu bildirib.

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova rəhbərlik etdiyi komitənin 2024-cü il üzrə məlumatını slaydlar vasitəsi ilə təqdim edib. O bildirib ki, 3 bölmədən ibarət məlumat 62 dövlət orqanından, 76 yerli icra hakimiyyəti və Naxçıvan Muxtar Respublikasından daxil olan informasiyalar, Dövlət Statistika Komitəsinin və digər təşkilatların məlumatları əsasında hazırlanıb.

Diqqətə çatdırılıb ki, məlumatın I bölməsində normativ-hüquqi bazanın təkmilləşdirilməsi, gender əsaslı ayrı-seçkilik halları ilə bağlı mövcud vəziyyət, idarəetmədə qadın və kişilərin təmsilçiliyi barədə məlumatlar öz əksini tapıb.

2024-cü ildə qanunvericiliyə edilən dəyişikliklər barədə söhbət açan komitə sədri Ailə Məcəlləsinin nikah yaşının bir ildən çox olmayaraq azaldılmasını nəzərdə tutan müvafiq maddəsinin ləğv edildiyini, erkən evlilik və məişət zorakılığı ilə bağlı cinayət və inzibati məsuliyyəti nəzərdə tutulan subyektlərin dairəsinin genişləndirildiyini, ümumi bioloji baba və nənəsi olan qohumlar arasında nikahın bağlanmasının qadağan edildiyini, məişət zorakılığının qarşısının alınması üzrə monitorinq və əlaqələndirmə mexanizminin yaradıldığını söyləyib.

Qeyd olunub ki, bir sıra problemli məsələlərə dair "860 Dəstək xətti"nə daxil olan müraciətlərdə artım, "Qadın Dəstək Xətt Xidməti"nə daxil olan müraciətlərin sayında isə azalma müşahidə edilir. Habelə Daxili İşlər Nazirliyinə məişət zəminində baş verən insidentlərə dair daxil olmuş müraciətlərin, o cümlədən cinayət hadisələrinin sayı azalıb.

Nəzərə çatdırılıb ki, Dövlət Statistika Komitəsinin məlumatına əsasən, 2024-cü ildə doğulan qız uşaqları ilə oğlan uşaqları arasındakı fərq azalıb.

Məlumatın II bölməsində əmək, təhsil, iqtisadi və sosial hüquqların həyata keçirilməsi sahəsində, həmçinin qeyri-hökumət təşkilatları, həmkarlar ittifaqları və siyasi partiyaların fəaliyyətində gender bərabərliyinin təmin edilməsi ilə bağlı vəziyyət öz əksini tapıb.

Təhsil hüququnun reallaşdırılmasını həyata keçirən müəssisələrdəki vəziyyətlə bağlı qeyd edilib ki, ümumtəhsil məktəblərində təhsil alan şagirdlər arasında oğlanlar, peşə təhsili üzrə kişilər, orta ixtisas təhsili üzrə qadınlar üstünlük təşkil edirlər.

Bildirilib ki, kişi və qadınların mülkiyyət hüququnun həyata keçirilməsinə və sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq üçün bərabər imkanların yaradılmasına dair vəziyyətdə canlanma müşahidə olunur.

Diqqətə çatdırılıb ki, məlumatın III bölməsində 2024-cü ildə Azərbaycanda gender bərabərliyinin təmin edilməsi sahəsində əldə edilmiş nəticələr, qarşıya qoyulan vəzifələr, o cümlədən təhsil, məşğulluq sahəsində gender bərabərliyinin gücləndirilməsi və gender əsaslı zorakılıq hallarının qarşısının alınması istiqamətində tövsiyələr öz əksini tapıb.

Bahar Muradova Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin gender bərabərliyinin təmin edilməsi istiqamətində aidiyyəti qurumlarla səmərəli əməkdaşlığı davam etdirdiyini, bu sahədə uğurlu nəticələr əldə olunduğunu bildirib.

Parlamentin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Hicran Hüseynova gender bərabərliyinin təmin edilməsinə nəzarəti həyata keçirən icra hakimiyyəti orqanının illik məlumatı barədə rəhbərlik etdiyi komitənin rəyini diqqətə çatdırıb. Komitə sədri müzakirəyə təqdim olunan Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin illik məlumatında bütün sahələr üzrə aparılan ətraflı təhlillərə dair göstəricilərin, əldə edilən uğurlu nəticələrin, təklif və tövsiyələrin, habelə qarşıda duran vəzifələrin əks olunduğunu deyib.

Hicran Hüseynova ölkəmizdə gender bərabərliyinin təmin edilməsi istiqamətində müsbət dinamikanın olduğunu qeyd edib. Bildirib ki, qərarların qəbulunda və dövlətin idarə edilməsində qadınların iştirakçılığının artdığı müşahidə olunur. Belə ki, inzibati vəzifələri icra edən, hüquq-mühafizə, prokurorluq orqanlarında xidmət edən, xüsusilə hakim və vəkil qadınların sayı hər il artır. O, ölkədə əmək bazarında gender bərabərsizliyinin aradan qaldırılması istiqamətində bir çox işlərin görüldüyünü, bununla bağlı qanunvericiliyə müvafiq dəyişikliklərin edildiyini diqqətə çatdırıb. Həmçinin gender əsaslı və məişət zorakılığının qarşısının alınması, zərər çəkmiş şəxslərin hüquqlarının müdafiəsinin gücləndirilməsi sahəsində qanunvericiliyin davamlı olaraq təkmilləşdirildiyini söyləyib. O, illik məlumatda məişət zorakılığı ilə bağlı komitəyə edilən müraciətlərə dair dərin təhlilin təqdim edildiyini deyib.

Hicran Hüseynova rəhbərlik etdiyi komitədə məsələnin geniş müzakirə edildiyini, illik məlumatın yüksək dəyərləndirildiyini diqqətə çatdırıb.

Məsələ ətrafında müzakirələrdə Milli Məclis Sədrinin birinci müavini Əli Əhmədov, komitə sədri Zahid Oruc, deputatlar Vüqar Bayramov, Əli Məsimli, Bəhruz Məhərrəmov, Aydın Mirzəzadə, Ceyhun Məmmədov, Mehriban Vəliyeva, Günay Ağamalı çıxış edərək fikir və qeydlərini bildiriblər.

Gender bərabərliyinin təmin edilməsinə nəzarəti həyata keçirən icra hakimiyyəti orqanının 2024-cü ildə fəaliyyəti haqqında məlumatı nəzərə alınıb.

Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli "Azərbaycan Respublikasının Milli Məclisinin Azərbaycan Respublikasının Nazirlər Kabinetinə etimad məsələsinin həll edilməsi hüququnun əlavə təminatları haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanununda dəyişiklik edilməsi barədə konstitusiya qanununun layihəsini (üçüncü oxunuş) təqdim edib. O, əvvəlki oxunuşlarda sənədin ətraflı müzakirə edildiyini, səslənən fikirlərə münasibət bildirildiyini söyləyib, layihənin olduğu kimi səsə qoyulmasını xahiş edib.

Sənəddə nəzərdə tutulan dəyişikliyə uyğun olaraq Nazirlər Kabinetinin hesabatının vaxtı iki orqan arasında razılaşdırılmaqla və hər iki orqanın iş qrafikinə daha uyğun vaxtda müəyyən ediləcək. Layihədə hesabatın verilməsi vaxtının martın 31-dək, yəni ilin I rübü ilə məhdudlaşdırılması təklif olunur.

Konstitusiya Qanununun layihəsi səsə qoyularaq üçüncü oxunuşda qəbul edilib.

Spiker Sahibə Qafarova xatırladıb ki, konstitusiya qanunları Milli Məclisdə iki dəfə səsə qoyulur. O, bu gün birinci səsvermənin keçirildiyini, 6 aydan sonra bu konstitusiya qanununa ikinci səsvermədə münasibət bildiriləcəyini qeyd edib.

İclasda "Azərbaycan Respublikası Hökuməti ilə Çin Xalq Respublikası Hökuməti arasında ümumvətəndaş pasportlarına malik vətəndaşların vizadan qarşılıqlı azad edilməsi haqqında Saziş"in təsdiq edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi də müzakirəyə çıxarılıb. Qeyd olunub ki, Sazişə əsasən, hər iki ölkənin ümumvətəndaş pasportuna malik vətəndaşları qarşı tərəfin ərazisinə vizasız şəkildə daxil ola bilər və orada hər dəfə maksimum 30 gün, həmçinin ardıcıl 180 günlük müddət ərzində ümumilikdə 90 gündən artıq olmamaq şərti ilə qala bilərlər. Saziş yalnız qısamüddətli səfərləri əhatə edir. Qarşı tərəfin ərazisində 30 gündən artıq qalmaq, yaşamaq, əmək fəaliyyəti ilə məşğul olmaq, təhsil almaq, media və digər icazə tələb edən sahələrdə fəaliyyət göstərmək üçün vətəndaşlar əvvəlcədən viza və müvafiq icazə almalıdırlar.

Qanun layihəsi səsə qoyularaq qəbul edilib.

Parlamentin spikeri gündəliyin növbəti beş məsələsinin ikinci oxunuşda qanun layihələri olduğunu bildirib.

Parlamentin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Bəhruz Məhərrəmov Azərbaycan Respublikasının Cinayət Məcəlləsində və Cinayət-Prosessual Məcəllədə dəyişiklik edilməsi haqqında (ikinci oxunuş) qanun layihəsini təqdim edib. O, birinci oxunuşda təqdimat zamanı sənəd haqqında ətraflı məlumat verildiyini deyib.

Layihədə Cinayət Məcəlləsinə cinayət məsuliyyətindən azad etməni nəzərdə tutan maddələrin dairəsinə, həmçinin şəraitin dəyişməsi ilə bağlı cinayət məsuliyyətindən azadetmə halının da əlavə edilməsi təklif olunur. Sənəddə Cinayət-Prosessual Məcəlləsi üzrə istintaq və təhqiqat orqanlarının struktur qurumlarının rəhbərlərinə cinayət təqibinə nəzarət çərçivəsində cinayət işi üzrə icraatın əhəmiyyətli dərəcədə ləngiməsinin qarşısının alınması məqsədilə müvafiq səlahiyyətlərin verilməsi təklif edilir. Eyni zamanda son dövrlərdə müasir informasiya texnologiyalarından istifadə olunmaqla əhalinin bank kartı hesablarından pul vəsaitlərinin talanması hallarında bu cinayətlərin təqibinin operativliyini təmin etmək məqsədilə müvafiq dəyişikliklər də nəzərdə tutulur.

Qanun layihəsi ikinci oxunuşda qəbul edilib.

Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Əminə Ağazadə Azərbaycan Respublikasının Cinayət Məcəlləsində, Cinayət-Prosessual Məcəlləsində və İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsini (ikinci oxunuş) təqdim edib. Layihə sağlamlığın qorunması hüququnun daha effektiv təmin edilməsi, həyat və sağlamlıq əleyhinə olan bəzi cinayətlərə qarşı mübarizənin gücləndirilməsi məqsədilə hazırlanıb. Sənəddə bir sıra cinayətlərin sanksiyalarında müəyyən müddətə azadlıqdan məhrumetmə cəzasına alternativ olan digər əsas cəzalar çıxarılmaqla həmin əməllərə görə sanksiyanın sərtləşdirilməsi təklif edilir.

Qanun layihəsi ikinci oxunuşda qəbul edilib.

Parlamentin Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov Azərbaycan Respublikasının Əmək Məcəlləsində, "Əhalinin sağlamlığının qorunması haqqında", "Özəl tibb fəaliyyəti haqqında" və "Dərman vasitələri haqqında" qanunlarda dəyişiklik edilməsi barədə (ikinci oxunuş) qanun layihəsinə dair məlumatı təqdim edib. Bildirib ki, layihədə nəzərdə tutulan əsas dəyişiklik tibb mütəxəssislərinə sertifikasiya şəhadətnaməsini əldə etmək üçün 5 ildən bir sertifikasiya imtahanında iştirak etməklə yanaşı, elmi, pedaqoji və digər tədris fəaliyyətini ehtiva edən yeni - davamlı peşəkar inkişaf (DPİ) konsepsiyasının tətbiqi nəticəsində müvafiq kredit balları toplayaraq sözügedən imtahandan azad olmaq hüququnu müəyyən edir. Digər dəyişiklikdə isə sertifikasiya imtahanından keçməyən tibb işçilərinin təkrar bu imtahandan keçənə qədər 6 ay müddətində vəzifə maaşının saxlanılması müəyyən edilir.

Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev məsələ barədə bu komitənin müsbət rəyini bildirdikdən sonra qanun layihəsi ikinci oxunuşda qəbul edilib.

Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli "Pasportlar haqqında" və "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə qanun layihəsini (ikinci oxunuş) təqdim edib. Layihədə "Dövlət qulluğu haqqında" qanuna təklif olunan dəyişiklikdə Prezident Administrasiyasında şöbə və ya ona bərabər tutulan digər struktur bölmə rəhbərinin müavini vəzifəsi inzibati vəzifələrin birinci təsnifatına aid edilib. Bu dəyişikliklərin icrası məqsədi ilə "Pasportlar haqqında" qanuna edilən düzəlişə əsasən, Prezident Administrasiyasında şöbə və ya ona bərabər tutulan digər struktur bölmə rəhbərinin müavinləri diplomatik pasportu əldə edə biləcək subyektlər dairəsinə daxil edilir.

Qanun layihəsi ikinci oxunuşda qəbul edilib.

Komitə sədri Əli Hüseynli Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsi (ikinci oxunuş) barədə də məlumat verib. Qeyd edib ki, layihənin məqsədi bütün inzibati xətalar haqqında protokol və qərarları ümumiləşdirərək onun uçotunun izlənilməsi üçün "İCMAL" informasiya sisteminin yaradılmasıdır.

Qanun layihəsi səsə qoyularaq ikinci oxunuşda qəbul edilib.

Sonra "İcra məmurları haqqında", "İcra haqqında" və "Ədliyyə orqanlarında qulluq keçmə haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsi birinci oxunuşda müzakirəyə təqdim olunub. Məsələ ilə bağlı məlumat verən Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli təklif olunan dəyişikliklərin ədliyyə orqanlarında keçirilən islahatların yeni mərhələsi ilə bağlı olduğunu deyib. Bildirilib ki, təqdim olunan qanun layihəsinin əsas mahiyyəti ədliyyə orqanlarının xüsusi xəzinə hesabının yaradılmasından ibarətdir. Bu hesabın yaradılmasında məqsəd nazirliyin hesabına daxil olan maliyyə vəsaitlərinin vahid hesaba cəmlənməsi, həmin vəsaitlər hesabına ədliyyə orqanlarında çalışan əməkdaşların maddi təminatının və sosial müdafiəsinin gücləndirilməsidir.

Həmçinin qanun layihəsində icra sənədini könüllü icra etməyən fiziki və hüquqi şəxslərin barəsində tətbiq edilən icra ödənişlərinin miqdarının artırılması təklif edilir. Təklif edilən mühüm dəyişikliklərdən biri də odur ki, icra məmuru vəzifəsinə qulluğa qəbul üçün ali hüquq təhsili tələbi götürülür.

Qanun layihəsi birinci oxunuşda qəbul edilib.

Gündəliyin sonuncu məsələsi - Vergi Məcəlləsində, "Bələdiyyələrin statusu haqqında", "Bələdiyyələrin maliyyəsinin əsasları haqqında", "Bələdiyyə torpaqlarının idarə edilməsi haqqında", "Yerli (bələdiyyə) vergilər və ödənişlər haqqında" və "Bələdiyyələrin vergi xidməti orqanı haqqında Əsasnamənin təsdiq edilməsi barədə" qanunlarda dəyişiklik edilməsi haqqında qanun layihəsi (birinci oxunuş) ilə bağlı Regional məsələlər komitəsinin sədri Siyavuş Novruzov məlumat verib. Komitə sədri bildirib ki, Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə təsdiq edilmiş "Korrupsiyaya qarşı mübarizənin gücləndirilməsinə dair 2022-2026-cı illər üçün Milli Fəaliyyət Planı"nda yerli özünüidarəetmə sahəsində korrupsiyaya şərait yaradan səbəblərin aradan qaldırılması ilə bağlı tədbirlərin görülməsi və bu sahədə qanunvericiliyin təkmilləşdirilməsi nəzərdə tutulur. Qeyd edilib ki, təklif olunan müvafiq dəyişikliklər də Milli Fəaliyyət Planında qeyd edilən tədbirlərin təmin edilməsi məqsədi ilə hazırlanıb. Belə ki, "Bələdiyyələrin statusu haqqında" qanuna təklif olunan yeni maddə bələdiyyələrin vahid informasiya sisteminin yaradılmasını nəzərdə tutur. Vahid informasiya sisteminin yaradılması bələdiyyələrin fəaliyyətində hüquqpozmaların qarşısının alınmasına və şəffaflığın artırılmasına xidmət edəcək. Sözügedən sistemin yerli büdcənin gəlirləri hesabına maliyyələşdirilməsi təklif olunur. Qanun layihəsində təklif olunan digər dəyişikliklər isə bələdiyyə bildirişlərinin elektron qaydada göndərilməsini nəzərdə tutur.

İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Azər Əmiraslanov məsələ ilə bağlı bu komitənin müsbət rəyini diqqətə çatdırıb. Müzakirədə deputat Elçin Mirzəbəylinin dəyişikliklərlə bağlı fikirləri dinlənildikdən sonra qanun layihəsi səsə qoyularaq birinci oxunuşda qəbul olunub.

Gündəlikdəki məsələlər başa çatdıqdan sonra Milli Məclisin Sədri Sahibə Qafarova bildirib ki, konstitusiyanın 88-ci maddəsinin II hissəsinə uyğun olaraq 85 deputat növbədənkənar sessiyanın çağırılması üçün ona müraciət edib və iyun ayında Milli Məclisin növbədənkənar sessiyası olacaq.

Yaz sessiyasının yekunları barədə məlumat verən Milli Məclisin Sədri qeyd edib ki, sessiya ərzində parlamentin 14 iclası keçirilib, 65 qanun qəbul edilib. 55 qanunda, o cümlədən 2 konstitusiya qanununda dəyişiklik qəbul edilib, 8 beynəlxalq sənəd təsdiq olunub. Milli Məclis konstitusiya ilə nəzərdə tutulan qanunvericilik səlahiyyətlərini tam həcmdə yerinə yetirib. Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən quruculuq işlərinin və islahatların qanunvericilik bazası daha da möhkəmləndirilib və təkmilləşdirilib.

Spiker qeyd edib ki, hakimiyyətin müxtəlif qolları arasında səmərəli əməkdaşlıq yeddinci çağırış dövründə də Milli Məclisin qarşısında dayanan vəzifələrin uğurla yerinə yetirilməsinə kömək göstərir. Bununla əlaqədar o, həmişə olduğu kimi, parlamentlə hökumət arasında konstruktiv iş birliyini xüsusi vurğulayaraq bildirib ki, yaz sessiyasında müxtəlif hökumət qurumlarının, o cümlədən nazirliklərin və dövlət komitələrinin nümayəndələri mütəmadi olaraq Milli Məclisin və komitələrin iclaslarına dəvət olunub, qanun layihələrinin müzakirəsi zamanı onların rəyləri dinlənilib. Bununla birlikdə deputatların bir sıra mülahizə və təklifləri də icra orqanları tərəfindən nəzərə alınıb.

Milli Məclisin Sədri deyib ki, 2025-ci ilin ölkəmizdə "Konstitusiya və Suverenlik İli" elan olunması ilə əlaqədar Milli Məclisdə bir neçə tədbir keçirilib. Mayın 8-də parlamentin "Ümummilli Lider Heydər Əliyev müstəqil Azərbaycan Konstitusiyasının müəllifidir" mövzusuna həsr olunan xüsusi iclası keçirilib. İclasda Ulu Öndərin müəllifi olduğu müstəqil dövlətimizin ilk konstitusiyasının qəbul edilməsi, Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə İkinci Qarabağ müharibəsinin və antiterror əməliyyatının qələbələrlə başa çatdırılması, ərazi bütövlüyümüzün və suverenliyimizin tam bərpa olunması kimi tarixi hadisələrin əhəmiyyətindən danışılıb. Bu mövzuda keçirilən digər bir tədbir Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin təşkil etdiyi elmi-praktik konfrans olub. Eyni mövzuda başqa bir tədbir isə Qarabağ Universitetinin bir qrup tələbəsi ilə keçirilən görüş olub.

Sessiya dövründə böyük ictimai əhəmiyyət daşıyan məsələlərin müzakirəsi və qanun layihələrinin keyfiyyətinin daha da yüksəldilməsi məqsədi ilə ictimai dinləmələr keçirilməsi praktikası davam etdirilib.

Üç ictimai dinləmə və üç ictimai müzakirə təşkil olunub. "Konstitusiya və Suverenlik İli" çərçivəsində Ailə, qadın və uşaq məsələləri komitəsi "Ailə, qadın və uşaq hüquqları konstitusion hüquqların əsas prioriteti kimi" mövzusunda, İctimai birliklər və dini qurumlar komitəsi "Qərbi Azərbaycana qayıdış prosesində QHT-lərin rolu" mövzusunda, Aqrar siyasət komitəsi isə "Aqrar sektorda sahibkarlığa dəstək: nəticələr və perspektivlər" mövzusunda ictimai dinləmə keçiriblər.

Təbii ehtiyatlar, energetika və ekologiya komitəsi "Enerji səmərəliliyi: nəticələr və gözləntilər" mövzusunda ictimai müzakirə təşkil edib. Xarici müdaxilələrə və hibrid təhdidlərə qarşı müvəqqəti komissiya isə iki ictimai müzakirə təşkil edib. Bu müzakirələrdən biri "Cənubi Qafqazda sabitliyə "sülh missiyası" adlı hibrid hücum" mövzusuna, digəri isə "Azərbaycanın media resurslarına 20 fevral hücumları: kibermüdaxilədən dezinformasiyaya" mövzusuna həsr edilib. Eyni zamanda Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin "Qlobal Cənubun yüksəlişi və Qərb: Azərbaycanın rolu, əməkdaşlıq və inkişaf üçün yeni imkanlar" mövzusunda genişləndirilmiş iclası keçirilib.

Spiker qeyd edib ki, yaz sessiyasında Milli Məclisin nəzarət funksiyasının yerinə yetirilməsi istiqamətində müvafiq tədbirlər görülüb. Belə ki, Nazirlər Kabinetinin, Hesablama Palatasının, İnsan alverinə qarşı mübarizə üzrə Milli Koordinatorun, İnsan hüquqları üzrə müvəkkilin, Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarəti həyata keçirən müvafiq qurumun, Gender bərabərliyinin təmin edilməsinə nəzarəti həyata keçirən icra hakimiyyəti orqanının hesabat, məruzə və məlumatları dinlənilib.

Milli Məclisin Sədri bildirib ki, yaz sessiyasında parlamentin beynəlxalq əlaqələrinin inkişafı sahəsində zəruri tədbirlər həyata keçirilib. Belə ki, Milli Məclisin 60 deputatı 32 ölkəyə 50 səfər həyata keçiriblər, 13 beynəlxalq təşkilatın tədbirlərində iştirak və çıxış ediblər. Millət vəkillərimiz Rumıniyada keçirilən prezident seçkilərini və Tacikistanda keçirilən parlament seçkilərini müşahidə ediblər. 41 ölkənin və 8 beynəlxalq təşkilatın 48 nümayəndə heyəti, ümumən 443 nəfər xarici qonaq Milli Məclisdə olub.

Spiker əlavə edib ki, Milli Məclis Sədrinin 4 ölkəyə rəsmi və 3 ölkəyə işgüzar səfərləri olub. Milli Məclisin Sədri parlamentdə 3 ölkənin dövlət başçıları, 16 ölkənin parlament sədrləri və sədr müavinləri, 3 beynəlxalq təşkilatın rəhbərləri, 2 ölkənin icra hakimiyyəti orqanı və partiya nümayəndələri, 7 dövlətin Azərbaycandakı səfirləri ilə görüşlər keçirib.

Milli Məclis 5 beynəlxalq tədbirə evsahibliyi edib. Belə ki, fevralın 18-dən 20-dək Asiya Parlament Assambleyasının 15-ci plenar sessiyası, martın 17-də Azərbaycan Milli Məclisi və Rusiya Federal Məclisinin ikitərəfli parlamentlərarası komissiyasının 22-ci iclası, aprelin 5-də Asiya Parlament Assambleyasının koordinasiya görüşü, aprelin 6-da Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin Dördüncü Konfransı, aprelin 15-də isə TÜRKPA-ya üzv dövlətlərin parlamentlərinin Müdafiə və təhlükəsizlik komitələri sədrlərinin ikinci iclası Milli Məclisin təşkilatçılığı ilə keçirilib.

Bildirilib ki, hazırda Milli Məclis 5 beynəlxalq təşkilata sədrlik edir. Həmin təşkilatlar Asiya Parlament Assambleyası, Qoşulmama Hərəkatının Parlament Şəbəkəsi, Türk Dövlətlərinin Parlament Assambleyası, Qara dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının Parlament Assambleyası və İqtisadi Əməkdaşlıq Təşkilatının Parlament Assambleyasıdır. Spiker onu da deyib ki, 2026-cı ildə Milli Məclis İslam Əməkdaşlıq Təşkilatı Parlament Assambleyasına da sədrlik edəcək.

Yaz sessiyası dövründə Milli Məclis və iki ölkənin - Gürcüstan və Birləşmiş Ərəb Əmirliklərinin parlamentləri ilə əməkdaşlıq haqqında, eləcə də Milli Məclisin sədrlik etdiyi Qoşulmama Hərəkatının Parlament Şəbəkəsi ilə Türk Mədəniyyəti və İrsi Fondu arasında, həmçinin Tolerantlıq və Sülh Təşkilatı arasında memorandumlar imzalanıb.

Çıxışına yekun vuran spiker qeyd edib ki, beləliklə, Milli Məclis yaz sessiyasını uğurla başa çatdırır. O, səmərəli iş üçün hər kəsə təşəkkürünü bildirib və Milli Məclisin yaz sessiyasını bağlı elan edib.

Sonda Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

*Rəşad CƏFƏRLİ,*
*"Azərbaycan"*

## Azərbaycanın xarici siyasətinin uğurları

# Laçından dünyaya mesaj

## Azərbaycan-Türkiyə-Pakistan üçlük platforması artıq yeni model kimi mühüm faktora çevrilir



**"Azərbaycan, Türkiyə və Pakistan - üç qardaş ölkə əməkdaşlığı ildən-ilə, gündən-günə gücləndirirlər. Biz yaxşı günlərdə də, ağır günlərdə də hər zaman bir-birimizin yanındayıq, həmrəylik, dəstək göstəririk. Bu gün ikinci üçtərəfli Zirvə görüşündə bir daha bizim strateji əməkdaşlığımız təsdiqləndi. İşğaldan azad edilmiş Laçında, Şərqi Zəngəzurda iki qardaş ölkənin liderlərinin iştirakı ilə keçirilən bugünkü mərasim Azərbaycan-Türkiyə-Pakistan birliyinin, qardaşlığının növbəti təzahürüdür".**

28 May Müstəqillik Günü münasibətilə Laçında keçirilən bayram tədbirində Prezident İlham Əliyev çıxışına bu səmimi fikirləri ilə başladı. Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan və Pakistan İslam Respublikasının Baş naziri Məhəmməd Şahbaz Şərifin də iştirak etdikləri mərasimdə İlham Əliyev bir daha həqiqətləri səsləndirdi.

3 qardaş ölkənin rəhbərlərinin məhz Azərbaycanın Müstəqillik Günündə Laçın şəhərində görüşməsi, müxtəlif obyektlərin açılışlarında iştirak etmələri həm də rəmzi məna daşıyırdı. Çünki 44 günlük İkinci Qarabağ müharibəsi zamanı Azərbaycanı bu iki qardaş ölkə dəstəkləmişdi. Bu dəstək xalqımıza güc verməklə yanaşı, hərb meydanında olan müzəffər ordumuzun da döyüş ruhunu yüksəltmişdi. Bu gün isə qardaşlıq münasibətləri özünün ən yüksək mərhələsindədir desək, yanılmarıq.

Üç qardaş ölkənin liderlərinin iştirakı ilə Laçında keçirilən Zirvə görüşü tarixi əhəmiyyətli toplantı oldu. Sayca ikinci olan bu Zirvə görüşü Azərbaycan-Türkiyə-Pakistan birliyinin növbəti təzahürü idi. Bu görüş həm də ona görə diqqət mərkəzinə çevrildi ki, Laçın Beynəlxalq Hava Limanı öz qapılarını dünyaya açıq elan etdi. Belə ki, Füzulidən, Zəngilandan sonra Laçında da beynəlxalq aeroportumuz fəaliyyətə başladı. Bu, əlbəttə ki, Azərbaycanın iqtisadi qüdrətindən xəbər verdi. Ermənistanın 30 il ərzində bir daşı daş üstünə qoymadığı, əvəzində xarabalığa çevirdiyi ərazilərimizi dövlətimiz cəmi 5 ilə gülüstana çevirir. Müasir yollar, "ağıllı" yaşayış məntəqələri, sosial-iqtisadi infrastrukturlar inşa edən qüdrətli Azərbaycan bütün bunları yalnız öz gücünə, heç kimdən maddi yardım almadan həyata keçirir.

Təbii ki, 30 il ərzində işğal altında qalan Laçın şəhərində belə bir nüfuzlu tədbirin keçirilməsi də böyük rəmzi məna daşıyırdı. Prezident İlham Əliyev də dedi ki, bu gün üçtərəfli əməkdaşlığın yeni səhifəsi açılır. Zirvə görüşündə müzakirə olunan məsələlər, əldə edilmiş razılaşmalar 3 dostu bir-birinə daha da yaxınlaşdıracaq.

"Bu gün əziz qardaşlarımın - Türkiyə Prezidentinin və Pakistanın Baş nazirinin bizimlə bərabər bu bayram tədbirlərində iştirakı, bizə göstərilən dəstək və həmrəylik artıq tamamilə yeni dünya miqyasında reallıqlar yaradır. Bizim gücümüz birliyimizdədir. Bu gün birliyimizi üçtərəfli formatda bir daha təsdiqlədik", - deyən dövlətimizin başçısı qətiyyətlə vurğuladı ki, azad edilmiş Laçından üç ölkənin dünyaya verdiyi mesajlar lazımi ünvana çatacaq.

### Azərbaycan Türkiyə iqtisadiyyatına 20 milyard dollardan çox sərmayə qoyub

Liderlərin iştirakı ilə keçirilən Zirvə görüşündə İlham Əliyev 3 ölkənin hazırkı münasibətlərinə, iqtisadi, sosial və humanitar əlaqələrinə aydınlıq gətirdi. Prezident dedi ki, ölkələrimizin strateji mövqeyindən və dinamik iqtisadi potensialdan istifadə etməklə qarşılıqlı faydalar əldə etmək üçün geniş imkanlar var. Siyasət, iqtisadiyyat, energetika, qarşılıqlı investisiyalar, nəqliyyat, müdafiə, kənd təsərrüfatı, informasiya texnologiyaları və digər sahələrdə əməkdaşlığın birgə layihələr və proqramlar vasitəsilə daha böyük sürətlə inkişaf edəcəyi qaçılmazdır.

Azərbaycan Türkiyə iqtisadiyyatına 20 milyard ABŞ dollarından çox sərmayə qoyub, Pakistan iqtisadiyyatına isə 2 milyard ABŞ dolları qoymağa hazırdır. Hazırda konkret investisiya layihələri üzrə işlər gedir. Azərbaycan və Türkiyənin əməkdaşlığı nəticəsində yalnız bölgəmizin deyil, geniş coğrafiyanın enerji xəritəsi dəyişib. Ölkələrimiz enerji təhlükəsizliyinin təmin edilməsində əhəmiyyətli rola malik olub və bu gün bərpaolunan enerjinin istehsalı və ixracı istiqamətində geniş layihələrə start verilib.

Prezident həmçinin 3 ölkənin beynəlxalq nəqliyyat marşrutlarına verə biləcəkləri töhfələrdən söz açaraq deyib ki, Azərbaycan və Türkiyədən keçməklə Asiya ilə Avropanı birləşdirən nəqliyyat yolları strateji əhəmiyyət daşıyır: "Multimodal yük marşrutunun inkişafı yolu ilə Pakistanın da bu təşəbbüsdə yaxından iştirakının əməkdaşlığımıza daha da təkan verəcəyinə əminik".

Bununla yanaşı, 3 qardaş ölkənin müdafiə sahəsində də əməkdaşlığı tərəfdaşlığın önəmli istiqamətlərindən biridir. Birgə hərbi təlimlər və hərbi-texniki sahədə layihələr silahlı qüvvələrimizin potensialını gücləndirib. Hərbi əməkdaşlıq geniş coğrafiyada sülhü və sabitliyi gücləndirir.

Bu sarsılmaz birlik həmçinin beynəlxalq arenada da eyni mövqe nümayiş etdirir. Beynəlxalq platformalarda və təşkilatlarda həmrəylik gücümüzə güc qatır.

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan isə çıxışında bildirdi ki, bu gün təxminən 350 milyon əhaliyə və 1,5 trilyon dollar iqtisadi gücə sahib 3 qardaş ölkə arasındakı bağlar daha da gücləndirilir. Bölgədə baş verən hadisələr ölkələrimiz arasındakı həmrəyliyin nə qədər vacib olduğunu gündən-günə daha aydın şəkildə göstərir.

Türkiyə enerjidən nəqliyyata, müdafiədən ticarətə, kənd təsərrüfatından təhsilə qədər hər sahədə Azərbaycanla güclü əməkdaşlıqlar qurur. İlham Əliyevin bənzərsiz töhfələri sayəsində münasibətlər hər gün təkcə bölgəyə deyil, bütün dünyaya nümunə olacaq səviyyəyə çatdırılır. "Sabitlik abidəsi kimi yüksələn Azərbaycanın uğurları ilə hamımız qürur duyuruq. Otuz ildən sonra əsarətdən azad olunan Qarabağ üçün artıq uğur, sülh və inkişaf hekayəsi yazmaq zamanıdır. Bu gün keçmişdə yaşadığımız ağrılardan dərs alaraq davamlı sülhün bərqərar olmasını, etimadın və mehriban qonşuluq münasibətlərinin qurulmasını hədəfləyirik. Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin sülhün də memarı olaraq adını tarixə yazdıracağına inanırıq" - Rəcəb Tayyib Ərdoğan dedi.

Türkiyə Prezidenti həmçinin vurğuladı ki, əməkdaşlığın son dərəcə strateji aspektini təşkil edən nəqliyyat sahəsində "İnkişaf yolu", "Orta dəhliz" və "Şimal-cənub nəqliyyat dəhlizi" kimi layihələrə birlikdə töhfə veriləcək. Mədəniyyət və təhsil sahələrində, xüsusilə də gənclərimizin və alimlərimizin qarşılıqlı təmaslarını artıracaq layihələr üzərində iş aparılacaq. Enerji təhlükəsizliyi, ərzaq təhlükəsizliyi və bərpaolunan enerji sahələrindəki imkanlar birlikdə dəyərləndiriləcək.

### "Pakistanın bəxti gətirib ki, Türkiyə və Azərbaycan kimi səmimi qardaşları var"

"Bugünkü dünyamızda ciddi çağırışlar, silahlı münaqişələr, iqlim dəyişikliyi, xəstəliklər və iqtisadi böhranlar mövcuddur. Bu səbəbdən ölkələrimiz bir araya gələrək münaqişəni rədd edir və mərhəməti seçir. Biz əminik ki, səbir və müdriklik nəticə etibarilə qalib gələcəkdir və firavanlığı təmin edəcəkdir. Bugünkü təlatümlü dünyada siyasi və təhlükəsizlik arxitekturaları, bağlantı layihələri və aparıcı texnologiyalar yeni reallığı şərtləndirir. Belə bir şəraitdə Pakistanın bəxti gətirib ki, Türkiyə və Azərbaycan kimi səmimi qardaşları var. Siz əzəmətli qaya kimi bizimlə bərabər dayandınız və biz tərəddüdsüz olaraq sizə etibar edirik. Biz silahdaş qardaşlar kimi sülhü, ədaləti və mənəvi dəyərləri hər zaman üstün tutacağıq".

Bu fikirləri isə Pakistanın Baş naziri Məhəmməd Şahbaz Şərif söylədi. Öncə Azərbaycan və Türkiyə prezidentlərinə Pakistanın ədalətli Cəmmu-Kəşmir məsələsində tutduqları mövqeyə görə təşəkkürünü bildirən baş nazir dedi ki, 3 qardaş ölkə səsini ən yüksək səviyyədə ucaltmalıdır ki, bütün dünya Türkiyənin, Azərbaycanın və Pakistanın səsini eşitsin.

Baş nazirin sözlərinə görə, Azərbaycan, Türkiyə və Pakistan əsrlər boyu təşəkkül tapmış birgə dəyərlərə və qarşılıqlı dəstəyə əsaslanan dərin tarixi, mədəni və mənəvi tellərlə bağlıdır. Bu sarsılmaz güc həmrəyliyə və qarşılıqlı hörmətə əsaslanır. Bugünkü dünyada ciddi çağırışlar, silahlı münaqişələr, iqlim dəyişikliyi, xəstəliklər və iqtisadi böhranlar mövcuddur. Bu səbəbdən ölkələrimiz bir araya gələrək münaqişəni rədd edir və mərhəməti seçir. Təlatümlü dünyada siyasi və təhlükəsizlik arxitekturaları, bağlantı layihələri və aparıcı texnologiyalar yeni reallığı şərtləndirir. Şahbaz Şərif əminliklə vurğuladı ki, zamanın sınağından keçmiş münasibətlər xalqlarımızın mənafeyinə xidmət edəcək, regionda və daha geniş coğrafiyada sülhə və firavanlığa töhfə verəcək.

Baş nazir arzusunu da səsləndirdi: "Türkiyənin, Azərbaycanın və Pakistanın bayraqlarında olan aypara hər zaman bir-birinin yanında ucalsın, işıq saçsın və bu, bizim gücümüzün, birliyimizin, inamımızın, xalqlarımızın və müsəlman dünyasının ümidinin rəmzinə çevrilsin".

Göründüyü kimi, strateji tərəfdaşlıq, qardaşılıq münasibətlərini yüksələn xətlə inkişaf etdirən Azərbaycan-Türkiyə-Pakistan əlaqələri mühüm mərhələyə qədəm qoyub. Laçın Zirvə görüşü isə bu yüksələn münasibətlərə çox müsbət impuls verdi.

Azərbaycan, Türkiyə və Pakistanın dünyaya verdikləri mesajlar onu deməyə əsas verdi ki, 3 qardaş daim çiyin-çiyinə bir-birinin yanındadır. Bu qardaşlıq və dostluq Cənubi Qafqaz regionunda, eyni zamanda onun hüdudlarından kənarda sabitliyin, təhlükəsizliyin, sülhün zəmanətidir.

*Rəşad BAXŞƏLİYEV,*
*"Azərbaycan"*

# Azərbaycan-Pakistan:
## ali səviyyədə görüş, yüksək səviyyədə tərəfdaşlıq

**Hamımız Prezident İlham Əliyevin keçən il iyulun 11-12-də Pakistan İslam Respublikasına dövlət səfərini, dost və qardaş ölkədə necə hərarətlə qarşılandığını xoş təəssüratlarla xatırlayırıq. Cari ilin fevralında isə Pakistanın Baş naziri Məhəmməd Şahbaz Şərif Azərbaycana dövlət səfəri etdi. Bu, son üç ildə Pakistanın Baş nazirinin ölkəmizə üçüncü səfəri idi və Bakıda dediyi sözləri bir daha yada salaq.**



Məhəmməd Şahbaz Şərif fevralın 24-də mətbuata bəyanatla çıxış edərkən demişdi: "Pakistan həmişə Azərbaycanı Qarabağ məsələsində dəstəkləmişdir və əlhəmdülillah, Sizin baxışınız, cəsarətiniz və qətiyyətli qərarlarınız bu bölgədə sülhə gətirib çıxardı. Sabah mən Füzuliyə, ondan sonra isə dağlara, Şuşaya getməli idim. Lakin düşünürəm ki, mən qarın yağması ilə bir növ soyuq havanı dünən axşam hiss etdim. Biz belə qərara gəldik ki, yayda sizin gözəl ölkənizə konfransda iştirak etmək üçün gələcəyik, ikinci evimizə yenidən səfər edəndə biz birlikdə oranı ziyarət edəcəyik və Sizin möhtəşəm nailiyyətinizi yüksək dəyərləndirəcəyik".

"Saf arzu qanadlı, xoş niyyət yüyrək olar", - deyiblər. Yəni məqsədin aydın, diləyin səmimidirsə, onlara tez yetişərsən. Dost və qardaş Pakistanın baş nazirinin Qarabağa səfər etmək arzusu hələ dediyi vaxtdan da tez, yaydan əvvəl, yazda yerinə yetdi. Üstəlik, onun təyyarəsi mayın 27-də mübarək Laçın aeroportuna endi. Dövlətimizin başçısının burada Məhəmməd Şahbaz Şəriflə istər ikili formatda, istərsə də qardaş Türkiyənin Prezidenti Rəcəb Tayyib Ərdoğanla birgə - üçlükdə çoxsaylı görüşləri və söhbətləri oldu.

Laçında Prezidentimizin Məhəmməd Şahbaz Şəriflə məhdud tərkibdə görüşündə bu səfərin Pakistanın "Qarabağ Azərbaycandır!" mövqeyinin növbəti təsdiqinin ifadəsi olduğu vurğulandı. Ali qonaq Prezident İlham Əliyevin rəhbərliyi ilə Laçında və ətraf ərazilərdə qısa müddət ərzində həyata keçirilən bərpa və quruculuq işlərinin böyük təəssürat doğurduğunu dedi, bunlara görə dövlətimizin başçısını və Azərbaycan xalqını səmimi-qəlbdən təbrik etdi.

Təbii ki, ali səviyyədə görüşlərin bu dinamikası Azərbaycan-Pakistan əlaqələrinə, o cümlədən iqtisadi əməkdaşlığın genişlənməsinə və güclənməsinə böyük təkan verir. Azərbaycan Prezidentinin və Pakistanın Baş nazirinin iştirakı ilə bir neçə ay əvvəl imzalanmış sənədlərin mübadiləsi də göstərir ki, iki ölkə arasında iqtisadi əlaqələrin yeni səhifələri açılır. Müxtəlif sahələrdə əməkdaşlığın genişləndirilməsinə yol açan həmin sənədlər sırasında enerji sahəsinə aid olanlar da diqqət çəkir. Belə ki, Azərbaycan Respublikası Dövlət Neft Şirkəti (SOCAR) ilə "Frontier Works Organisation" (FWO) və "Pakistan State Oil Company Limited" şirkəti arasında Anlaşma Memorandumu mübadilə edildi. SOCAR-la mübadilə edilən daha bir sənəd "Pakistan Refinery Limited" (PRL) və "Pakistan State Oil Company Limited" şirkəti ilə Anlaşma Memorandumudur. "SOCAR Trading SA" ilə də sənədlər mübadilə edildi. Bunlar "Pakistan LNG Limited" arasında mayeləşdirilmiş təbii qaz yüklərinin alqı-satqısı ilə bağlı Çərçivə Sazişinə 1 nömrəli Əlavə, "Pakistan State Oil Company Limited" şirkəti ilə Anlaşma Memorandumu və "Pakistan State Oil Company Limited"lə neft məhsullarının uzunmüddətli alqı-satqı Sazişidir. Prezident İlham Əliyev dəfələrlə rəsmən bəyan edib ki, Azərbaycan Pakistanda müxtəlif layihələrə minimum 2 milyard dollar sərmayə yatırmağa hazırdır. Hədəflənən layihələr infrastrukturun inkişafını, energetikanı, mədən işini və digər sahələri əhatə edir. Bir sözlə, iqtisadi əlaqələrimiz getdikcə daha çox sahələri əhatə edərək genişlənməkdədir. Əməkdaşlıq enerji və infrastruktur layihələrini, informasiya texnologiyalarını, əczaçılıq, tekstil və digər sahələrə aiddir və həm bu, həm də digər sahələrdə əlaqələrin daha da güclənməsi üçün böyük potensial var. Ekolgiya sahəsində də həmrəyik. Təsadüfi deyil ki, ölkəmizin yaşıllıq ekspertlərindən ibarət heyəti İslamabadın abadlaşdırılmasında çalışır və şəhərin yaşıllaşdırılmasında, eləcə də landşaftla bağlı təqdirəlayiq işlər görür.

İqtisadi əməkdaşlığın genişləndirilməsinin, idxal-ixracın artmasının hər iki ölkəyə dividendlər gətirəcəyinə şübhə yoxdur. İdxal-ixracdan söz düşmüşkən, hədəfdə olan vacib məsələlərdən biri ticarət dövriyyəsinin artırılmasıdır. Bu barədə Məhəmməd Şahbaz Şərif hələ fevral ayında belə demişdi: "Təəssüf olsun ki, bu gün ticarətimiz 14 milyon dollara bərabərdir və bu, qətiyyən bizim siyasi səviyyədə olan münasibətlərimizi əks etdirmir. Bu gün biz artıq bəyan edə bilərik ki, sərmayələri qısa bir zamanda 2 milyard dollar səviyyəsinə çatdıracağıq. Bu, sadəcə, bəyanat deyil. Məsələn, Pakistandan idxal olunan "Basmati" düyüsünə Azərbaycanda əziz qardaşımın tapşırığına əsasən, tətbiq edilən rüsum aradan qaldırılıbdır və əminəm ki, Azərbaycanda istehsal olunan müəyyən məhsullar var ki, biz də onların Pakistanda satışını təşviq edə bilərik. Biz tarifləri aşağı sala bilərik. Bizim kommersiya nazirimiz burada əyləşibdir. Əlbəttə, maye qaz daha bir əmtəədir və bu məsələ də bizim ticarət gündəliyimizə daxil edilə bilər. Əlbəttə, JF17 hərbi qırıcı təyyarəmiz var və Azərbaycanla Pakistan həmin təyyarə ilə bağlı fəal işlər aparır... Biz gündəlik əsasda səylərimizi səfərbər etsək, 2 milyard dollar həcmində ticarət dövriyyəsinə nail ola bilərik".

Qeyd edək ki, Azərbaycanın Ticarət Palatasının İslamabadda nümayəndəliyi təsis olunub. Bu da ikitərəfli ticarətin inkişaf etməsinə imkan verəcək amillərdəndir. Laçında Prezidentimizin Məhəmməd Şahbaz Şəriflə məhdud tərkibdə görüşündə də Azərbaycanla Pakistan arasında iqtisadi-ticari əlaqələrin genişləndirilməsi və bir sıra digər sahələrdə əməkdaşlıq məsələlərinə dair geniş fikir mübadiləsi aparıldı. Azərbaycan Prezidentinin, Türkiyə Prezidentinin və Pakistanın baş nazirinin Zirvə görüşündə isə dövlətimizin başçısı dedi: "Siyasət, iqtisadiyyat, energetika, qarşılıqlı investisiyalar, nəqliyyat, müdafiə, kənd təsərrüfatı, informasiya texnologiyaları və digər sahələrdə əməkdaşlığın birgə layihələr və proqramlar vasitəsilə daha böyük sürətlə inkişaf edəcəyinə inanırıq. Azərbaycan Türkiyə iqtisadiyyatına 20 milyard ABŞ dollarından çox sərmayə qoyub, Pakistan iqtisadiyyatına 2 milyard ABŞ dolları qoymağa hazırdır. Hazırda konkret investisiya layihələri üzrə işlər gedir. Azərbaycan və Türkiyənin əməkdaşlığı nəticəsində yalnız bölgəmizin deyil, geniş coğrafiyanın enerji xəritəsi dəyişib... Bununla yanaşı, Azərbaycan və Türkiyədən keçməklə Asiya ilə Avropanı birləşdirən nəqliyyat yolları strateji əhəmiyyət daşıyır. Multimodal yük marşrutunun inkişafı yolu ilə Pakistanın da bu təşəbbüsdə yaxından iştirakının əməkdaşlığımıza daha da təkan verəcəyinə əminik".

İnam və əminlik olanda isə yüksəliş də, qələbə də olur!

*Flora SADIQLI,*
*"Azərbaycan"*

# Azərbaycanı dünya siyasətində söz sahibinə çevirən Lider

## İlham Əliyevin nüfuzu sərhəd tanımır



**Azərbaycanın milli və regional siyasətində qardaş ölkələr olan Türkiyə və Pakistanla qurulan möhkəm və sarsılmaz əlaqələr xüsusi yer tutur. Tarixən ortaq dəyərlər, mədəniyyət, dil və din birliyi üzərində qurulan bu münasibətlər hər üç xalqın bir-birinə səmimi duyğuları ilə bağlı olduğunu göstərir.**

Prezident İlham Əliyev bu qardaşlıq bağlarının inkişafında aparıcı rol oynayır, ölkələr arasında siyasi, iqtisadi və hərbi sahələrdə strateji əməkdaşlığı möhkəmləndirir. Onun müdrik və uzaqgörən liderliyi nəticəsində Azərbaycan-Türkiyə və Azərbaycan-Pakistan münasibətləri təkcə diplomatik səviyyədə deyil, həm də xalqlarımız arasında dərin hörmət və etimada söykənir. Və təbii ki, bu da bölgədə sabitliyin, sülhün və inkişafın təmin olunmasında mühüm rol oynayır. Bu gün İlham Əliyev Türkiyə və Pakistan tərəfindən duyulan dərin hörmətin simvoludur. Dövlətimizin başçısının liderliyi və siyasi uzaqgörənliyi yalnız Azərbaycanda deyil, həm də qardaş Türkiyə və Pakistanda yüksək qiymətləndirilir. Həm bu ölkələrin liderləri, həm də xalqları İlham Əliyevə böyük hörmət və rəğbət bəsləyirlər.

Azərbaycan-Türkiyə münasibətləri "Bir millət, iki dövlət" fəlsəfəsinə əsaslanır və müəllifi Ulu Öndər olan bu ideya Prezident İlham Əliyevin fəaliyyətində öz əksini tapır. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanla İlham Əliyev arasındakı şəxsi dostluq və qarşılıqlı hörmət bu münasibətləri möhkəmləndirən əsas amillərdir. Rəcəb Tayyib Ərdoğan dəfələrlə İlham Əliyevin liderliyini, xüsusən 44 günlük Vətən müharibəsində Azərbaycanın qazandığı qələbəni yüksək qiymətləndirib. Ərdoğan onu "qətiyyətli lider", "xalqının və dövlətinin maraqlarını qoruyan müdrik rəhbər" kimi dəyərləndirib. Bir neçə gün əvvəl Laçında keçirilən Azərbaycan, Türkiyə və Pakistan liderlərinin üçtərəfli Zirvə görüşündə İlham Əliyevin liderlik xarizması bir daha özünü göstərdi. Çıxışlarında nümayiş etdirdiyi qətiyyət, siyasi balans və diplomatik incəlik Azərbaycanın bölgədə artan rolunun və nüfuzunun təsdiqi idi. Rəcəb Tayyib Ərdoğanın isə dövlətimizin başçısına göstərdiyi və diqqətlərdən yayınmayan açıq rəğbət və hörməti bir daha sübut etdi ki, İlham Əliyev təkcə Cənubi Qafqazın deyil, daha geniş coğrafiyanın etibarlı və uzaqgörən liderlərindəndir.

Türkiyə ictimaiyyəti də İlham Əliyevin siyasi uzaqgörənliyinə və milli maraqları müdafiə edən qətiyyətinə böyük rəğbət göstərir. Türk mətbuatında və ictimai diskussiyalarda İlham Əliyev tez-tez "türk dünyasının güclü liderlərindən biri" kimi təqdim olunur. Onun şəxsiyyətinə olan münasibət hörmət və qardaşlıq duyğuları ilə doludur. Türkiyənin sosial media seqmentində və ictimai forumlarda İlham Əliyevin çıxışlarına olan müsbət rəylər təkcə dövlət başçısının, siyasi xadimlərin deyil, sadə vətəndaşların, ziyalı insanların da fikirlərini əks etdirir. Təsadüfi deyil ki, "Yutub"da yayımlanan Türkiyəyə aid siyasi proqramlar və xəbərlərdə İlham Əliyevin çıxışları milyonlarla baxış toplayır və rəylərdə "haqqın müdafiəçisi", "liderlər lideri" kimi ifadələr çoxluq təşkil edir.

2020-ci ildəki 44 günlük Vətən müharibəsində Azərbaycan Ordusunun zəfərinin Türkiyədə böyük rəğbətlə qarşılandığını unutmamışıq. Türkiyə ictimaiyyəti Qarabağ uğrunda mübarizədə Azərbaycanın yanında olmağı həm qardaşlıq borcu, həm də ədalətin təntənəsi kimi qəbul etmişdir. Türkiyənin o dövrdəki mediasında deyilənləri və yazılanları ümumiləşdirib belə əks etdirmək olar: "İlham Əliyev sadəcə Azərbaycanın deyil, bütün türk dünyasının qürurudur". Türkiyə televiziyalarında, qəzetlərində və xəbər saytlarında İlham Əliyev haqqında materiallar, adətən, müsbət, bəzən isə heyranlıq tərzində təqdim olunur.

Türkiyə cəmiyyətində İlham Əliyev türk dövlətləri arasında birliyi təşviq edən və bu istiqamətdə ardıcıl fəaliyyət göstərən lider kimi tanınır. Onun Türk Dövlətləri Təşkilatına (TDT) verdiyi dəstək qardaş ölkədə geniş rezonans doğurur. Siyasi icmalçı Əhməd Şimşək dövlətimizin başçısının şəxsiyyətini belə qiymətləndirir: "İlham Əliyev türk dünyasının liderlərindən biridir. O, sadəcə ölkəsini deyil, bir çox ortaq dəyərləri təmsil edir". Bütün bunlar ona dəlalət edir ki, Türkiyə ictimaiyyəti İlham Əliyevi qardaş ölkənin güclü, müdrik və prinsipial lideri kimi qəbul edir.

Pakistan da Azərbaycanın müstəqilliyini ilk tanıyan ölkələrdən biridir. Bu dostluq əlaqələri zamanla daha da dərinləşmiş və Prezident İlham Əliyevin liderliyi dövründə yeni bir mərhələyə qədəm qoymuşdur. İlham Əliyev Pakistanla əməkdaşlığa və qardaşlıq münasibətlərinin inkişafına xüsusi önəm verir. Pakistanın keçmiş və indiki liderləri İlham Əliyevi "zəmanəmizin hörmətli liderlərindən biri" adlandırmışlar. Onlar dövlətimizin başçısına dərin hörmət göstərərək onun regionda sabitliyin və inkişafın qarantı olduğunu vurğulamışlar. Xüsusilə Azərbaycanın 44 günlük Vətən müharibəsi zamanı Pakistanın Azərbaycana verdiyi siyasi və mənəvi dəstək bu iki xalq arasında möhkəm qardaşlıq əlaqələrinin göstəricisi olmuşdur. Məlumdur ki, Pakistan Ermənistanı rəsmi olaraq tanımayan və Qarabağ münaqişəsində Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyən ilk ölkələrdəndir. Bu, İlham Əliyevin müstəqil və balanslaşdırılmış xarici siyasətinin Pakistan rəhbərliyi tərəfindən yüksək qiymətləndirildiyini göstərir.

Pakistanın Baş naziri Məhəmməd Şahbaz Şərif Laçındakı görüşdə Prezident İlham Əliyevin diplomatik bacarığını və sülhə yönəlmiş siyasətini yüksək qiymətləndirdi. Şərif Azərbaycanın Qarabağ məsələsində əldə etdiyi uğurların və regiondakı sülhə verdiyi töhfələrin əhəmiyyətini vurğuladı, həmçinin Pakistanın Azərbaycanla olan dostluq əlaqələrini daha da möhkəmləndirmək niyyətində olduqlarını bəyan etdi.

Hər zaman Pakistanın dəstəyini yüksək qiymətləndirməsi və iki ölkə arasında əlaqələrin gücləndirilməsi istiqamətində atdığı addımlar İlham Əliyevin şəxsi nüfuzunu Pakistan ictimaiyyətində də artırmışdır. Pakistan mediası və cəmiyyəti Prezidenti tez-tez "haqqın tərəfində duran lider", "müsəlman dünyasının dəyərli nümayəndəsi" kimi təqdim edir. Onun beynəlxalq arenada islam həmrəyliyi məsələlərinə verdiyi önəm Pakistan xalqının dövlətimizin başçısına olan rəğbətini gücləndirir.

Həm Türkiyə, həm də Pakistan İlham Əliyevi sabitlik, milli maraqlar və regional əməkdaşlıq naminə çalışan bir lider kimi qiymətləndirirlər. Azərbaycan Prezidentinin siyasi uzaqgörənliyi, xalqla birliyi və qətiyyətli mövqeyi bu ölkələrin liderləri tərəfindən hörmətlə qarşılanır. Prezident İlham Əliyev təkcə siyasi baxımdan deyil, eyni zamanda şəxsi keyfiyyətləri - dürüstlüyü, uzaqgörənliyi, prinsipiallığı və xalqına bağlılığı ilə Türkiyə və Pakistan liderlərinin, eləcə də ictimaiyyətlərinin dərin hörmətini qazanmışdır.

***Züleyxa ƏLİYEVA, "Azərbaycan"***

# Üç qardaş ölkənin Laçından dünyaya həmrəylik nümayişi

**Prezident İlham Əliyevin, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın və Pakistanın Baş naziri Məhəmməd Şahbaz Şərifin 28 May Müstəqillik Günündə Laçında Zirvə görüşündə iştirakı tarixi hadisə idi. Bu görüş xalqımızın yaddaşında dərin izlər buraxacaq və qürurla anılacaq əlamətdar məqamlardan biri kimi tariximizə həkk olundu. Üç qardaş ölkənin birlik, bərabərlik nümunəsinin nümayişi, eyni zamanda sülh, əməkdaşlıq, qarşılıqlı maraqlara xidmət edən birgə təşəbbüslərinin mesajıdır. Qardaş ölkələrin Azərbaycanın Müstəqillik Günündə, Ermənistanın işğalından sonra dirçəldilən Qarabağ və Şərqi Zəngəzurda birlik mesajlarının əhəmiyyəti isə olduqca böyükdür.**



Laçının 30 illik Ermənistanın işğalından və barbarlığından qurtularaq yenidən dirçəldiyini vurğulayan Milli Məclisin deputatı Sevinc Hüseynova qəzetimizə açıqlamasında bildirib ki, artıq bu rayonun sakinləri öz evlərinə qayıdırlar. Dövlətimizin başçısının Laçına budəfəki səfərində də bir qrup laçınlıya yeni evlərinin açarları təqdim edildi. 28 May Müstəqillik tariximizin ən qürurverici səhifələrindən biri kimi bu hadisələrin də böyük anlamı var. Azərbaycanın işğaldan azad edilmiş üçüncü, ümumilikdə isə 9-cu aeroportu - Laçın Beynəlxalq Hava Limanının qardaş Türkiyə Prezidentinin iştirakı ilə açılışının edilməsi olduqca önəmli idi. Bu, Prezident İlham Əliyevlə Rəcəb Tayyib Ərdoğanın Ermənistanın işğalından azad edilmiş Qarabağ və Şərqi Zəngəzurda açılışını etdiyi üçüncü beynəlxalq aeroport oldu. Bundan öncə Füzuli və Zəngilanda iki qardaş ölkənin rəhbərləri tərəfindən hava limanlarının açılışı baş tutmuşdu.

Deputat qeyd edib ki, Qarabağ və Şərqi Zəngəzurda üçüncü beynəlxalq hava limanının qısa zamanda açılışının edilməsi Azərbaycanın Böyük qayıdış konsepsiyasına uyğun olaraq qısa zamanda bu bölgədə görülmüş sürətli işlərin xarakterini nümayiş etdirir: "Bu gün qalib və suveren Azərbaycan öz tarixinin ən qürurlu dövrünü yaşamaqdadır. Laçında Azərbaycan-Türkiyə-Pakistan liderlərinin iştirakı ilə keçirilən Zirvə görüşündə də olduqca mühüm mesajlar səsləndirildi. Prezident İlham Əliyev çıxışında Zirvə görüşünün Azərbaycanın Müstəqillik Günündə, erməni işğalından azad edilmiş Laçında keçirilməsinin tarixi əhəmiyyətindən bəhs etdi. Vurğulandı ki, bunun böyük rəmzi mənası var. Azərbaycan, Türkiyə və Pakistan hər zaman ədalətin tərəfində olub. 2020-ci ildə 44 günlük Vətən müharibəsinin ilk günlərindən etibarən Türkiyə və Pakistanın ölkəmizə göstərdiyi siyasi və mənəvi dəstək xalqımızın yaddaşına əbədi həkk olunub. Həmçinin Azərbaycan da öz növbəsində daim Türkiyənin və Pakistanın yanında olub".

S.Hüseynova Azərbaycan-Türkiyə-Pakistan birliyinin regional və qlobal müstəvidə sülhə, əməkdaşlığa xidmət etdiyini söyləyib. Prezident İlham Əliyevin də qeyd etdiyi kimi, Azərbaycan və Türkiyənin əməkdaşlığı nəticəsində yalnız bölgəmizin deyil, geniş coğrafiyanın enerji xəritəsi dəyişib: "Ölkələrimiz enerji təhlükəsizliyinin təmin olunmasında əhəmiyyətli rola malik olub və bu gün bərpaolunan enerjinin istehsalı və ixracı istiqamətində geniş layihələrə start verilib. Bununla yanaşı, Azərbaycan və Türkiyədən keçməklə Asiya ilə Avropanı birləşdirən nəqliyyat yolları strateji əhəmiyyət daşıyır. Multimodal yük marşrutunun inkişafı yolu ilə Pakistanın da bu təşəbbüsdə yaxından iştirakı əməkdaşlığımıza daha da təkan verəcək. Həmçinin müdafiə sahəsində əməkdaşlıq tərəfdaşlığımızın önəmli istiqamətlərindən biridir. Birgə hərbi təlimlər və hərbi-texniki sahədə layihələr silahlı qüvvələrimizin potensialını gücləndirib. Bizim hərbi əməkdaşlığımız geniş coğrafiyada sülhə və sabitliyə xidmət edir".

Cənab Prezidentin də qeyd etdiyi kimi, hər 3 ölkə xoş günlərdə də, ağır günlərdə də hər zaman bir-birinin yanındadır, həmrəydir. Laçında üç dövlət arasında ikinci Zirvə görüşünün keçirilməsi strateji əməkdaşlığın xarakterini nümayiş etdirir.

Deputat Zirvə toplantısında da Prezident İlham Əliyev tərəfindən 1918-ci ilin 28 mayında yaradılan Azərbaycan Xalq Cümhuriyyətinin tarixinə nəzər salındığını diqqətə çəkdi: "Xalq Cumhuriyyətinin qısa zaman ərzində mövcudluğu, 1920-ci ilin aprel ayında müstəqilliyinin əlindən alındığı və ondan bir neçə ay sonra - 1920-ci ilin noyabr ayında sovet Rusiyası tərəfindən Qərbi Zəngəzur bölgəsinin Azərbaycandan ayrılıb Ermənistana birləşdirildiyi də Zirvə toplantısında xatırlandı. 1991-ci ildə Sovet İttifaqı dağılandan sonra Azərbaycan öz dövlət müstəqilliyini bərpa etdi. Amma bu dövrdə də Azərbaycan üçün yeni çətinliklər müşahidə olundu. Ermənistanın işğalçılıq siyasətinin ölkəmizə böyük faciələr gətirdiyi dövlətimizin başçısı tərəfindən Zirvə toplantısında bir daha bəyan edildi. Azərbaycanın ikinci dəfə öz müstəqilliyinə qovuşduqdan 4 ay sonra Ermənistan tərəfindən Xocalıda soyqırımı həyata keçirildi. Laçının, ondan öncə isə Şuşanın Ermənistanın təcavüzünə məruz qaldığı, beləliklə, ərazilərimizin 20 faizinin 30 ilə yaxın erməni işğalında saxlanıldığı da diqqətə çatdırıldı. Təbii ki, Azərbaycan xalqı bu işğal faktı ilə heç vaxt barışmadı və ərazilərini bir gün Ermənistanın işğalından qurtaracağına olan ümidini itirmədi. Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan xalqı 44 günlük İkinci Qarabağ müharibəsi nəticəsində beynəlxalq birlik tərəfindən tanınan ərazi bütövlüyünü, 2023-cü ilin 19-20 sentyabr tarixlərində isə suverenliyini tam təmin etməyə nail oldu".

Deputat bildirib ki, işğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzurda böyük bərpa və quruculuq işləri sürətlə icra edilir. Keçmiş məcburi köçkünlərin artıq mərhələli şəkildə öz ata-baba ocaqlarına geri dönüşü təmin olunur. Hazırda Şərqi Zəngəzur və Qarabağ bölgələrində 43 min insan yaşayır və çalışır. Azərbaycanın yaxın dostları və tərəfdaşları bu uğurlara sevinir. Türkiyə və Pakistan liderlərinin Laçında olması, bu ərazilərdə görülən işlərlə tanışlığı, hava limanının açılışının edilməsi, yaradılan ən müasir infrastruktur böyük qürur hissi ilə qarşılanır. Sözsüz ki, Türkiyə Prezidentinin və Pakistanın baş nazirinin belə xoş günlərdə Prezident İlham Əliyevlə həmrəylik nümayiş etdirməsi mühüm əhəmiyyət kəsb edir. Bu, üç ölkənin birliyini simvolizə edən bir mesaj kimi də dəyərləndirilir.

***Əsmər QARDAŞXANOVA, "Azərbaycan"***

# Zirvə görüşü münasibətlərin inkişafında yeni səhifə açdı

**Azərbaycan Türkiyə və Pakistan kimi qardaş ölkələrlə yüksəksəviyyəli əməkdaşlıq münasibətləri qurub. Bu münasibətlər yalnız siyasi və iqtisadi sahələrlə məhdudlaşmayaraq humanitar, mədəni və hərbi sahələri də əhatə edir.**



Milli Məclisin deputatı Pərvin Kərimzadə qəzetimizə açıqlamasında deyib ki, üç dövlətin hər biri yaxın dost və qardaş ölkə kimi beynəlxalq münasibətlər tarixində xüsusi yer tuturlar. Bu əlaqələrin əsasını xalqlarımızın ortaq tarixi, dini-mənəvi dəyərləri və bir-birinə olan sarsılmaz bağlılığı təşkil edir. "Tarixi köklərə dayanan bu münasibətlər zamanın sınaqlarından keçərək daim güclənib və müasir dövrdə strateji tərəfdaşlıq səviyyəsinə yüksəlib. Nəzərə alaq ki, 2020-ci ildən etibarən yeni mərhələyə qədəm qoyan bu üçtərəfli əməkdaşlıq, siyasi, iqtisadi əlaqələrlə yanaşı, humanitar, təhsil və digər sahələrdə də ortaq təşəbbüslərlə zənginləşib", - deyə o bildirib.

Deputat qeyd edib ki, mayın 28-də işğaldan azad olunmuş Laçın şəhərində Azərbaycan, Türkiyə və Pakistan liderlərinin Zirvə görüşünün keçirilməsi qarşılıqlı münasibətlərin inkişafında yeni səhifə açdı. Prezident İlham Əliyev Laçın şəhərində 28 May Müstəqillik Gününə həsr olunmuş bayram tədbirində çıxışı zamanı vurğuladı: "Bu gün əziz qardaşlarımın - Türkiyə Prezidentinin və Pakistanın baş nazirinin bizimlə bərabər bu bayram tədbirlərində iştirakı, bizə göstərilən dəstək və həmrəylik artıq tamamilə yeni dünya miqyasında reallıqlar yaradır. Bizim gücümüz birliyimizdədir. Bu gün birliyimizi üçtərəfli formatda bir daha təsdiqlədik. Bu gün bayram konsertində səslənəcək mahnılar bir daha bizim birliyimizi, nə qədər zəngin mədəniyyətə malik olmağımızı göstərəcək. Əminəm ki, azad edilmiş Laçından üç ölkənin bu gün dünyaya verdiyi mesajlar lazımi ünvana çatacaq".

P.Kərimzadə bildirib ki, Azərbaycan, Türkiyə və Pakistan arasında üçtərəfli əməkdaşlıq son illərdə yeni keyfiyyət mərhələsinə qədəm qoyaraq strateji tərəfdaşlıq səviyyəsinə yüksəlib. Bu əlaqələr yalnız ikitərəfli münasibətlər çərçivəsində deyil, həm də üçtərəfli formatda çoxşaxəli əməkdaşlıq modelinə çevrilib. Üç dövlət arasında dərin tarixi, dini və mənəvi köklərə əsaslanan münasibətlər son dövrlərdə intensiv siyasi dialoq, iqtisadi təşəbbüslər və təhlükəsizlik sahəsində qarşılıqlı fəaliyyətlə daha da möhkəmlənib. Azərbaycan, Türkiyə və Pakistan



liderləri arasında yüksəksəviyyəli görüşlərin təşkil olunması bu əməkdaşlığın strateji xarakterini təsdiqləyir.

Liderlərin ilk üçlü Zirvə görüşünün ötən il iyulun 3-də Astanada ŞƏT sammiti çərçivəsində baş tutduğunu xatırladan deputat əlavə edib ki, Prezident İlham Əliyev, Rəcəb Tayyib Ərdoğan və Baş nazir Məhəmməd Şahbaz Şərifin iştirakı ilə baş tutan bu görüş üç qardaş ölkənin qarşılıqlı siyasi dəstəyini nümayiş etdirməklə yanaşı, əməkdaşlığın institusional səviyyəyə keçidinin də rəmzinə çevrilib. İkinci Zirvə görüşünün Azərbaycanın işğaldan azad olunmuş Laçın şəhərində keçirilməsi isə rəmzi məna daşıyır və bunun siyasi-mənəvi əhəmiyyəti böyükdür. Hər iki ölkə 44 günlük Vətən müharibəsində və ondan əvvəl də hər zaman Azərbaycanın haqq işini dəstəkləyib. "Ölkəmiz də onlara öz qardaş dəstəyini göstərib. Zirvə görüşündə Prezident İlham Əliyevin vurğuladığı kimi, Azərbaycan, Türkiyə və Pakistan hər zaman suverenlik, ərazi bütövlüyü və ədalət tərəfində olub. "2020-ci ildə 44 günlük Vətən müharibəsinin ilk günlərindən etibarən Türkiyənin və Pakistanın ölkəmizə göstərdiyi siyasi və mənəvi dəstəyə görə bir daha minnətdarlığımızı bildiririk. Azərbaycan da öz növbəsində daim Türkiyənin və Pakistanın yanında olub. Bu gün biz bir daha xalqlarımızın birliyini təsdiqləyirik. Ölkələrimizin strateji mövqeyindən və dinamik iqtisadi potensialımızdan istifadə etməklə qarşılıqlı faydalar əldə etmək üçün geniş imkanlar var. Siyasət, iqtisadiyyat, energetika, qarşılıqlı investisiyalar, nəqliyyat, müdafiə, kənd təsərrüfatı, informasiya texnologiyaları və digər sahələrdə əməkdaşlığın birgə layihələr və proqramlar vasitəsilə daha böyük sürətlə inkişaf edəcəyinə inanırıq", - deyə dövlətimizin başçısı bəyan edib. Zirvə görüşündə Türkiyə və Pakistan liderləri də mühüm bəyanatlar veriblər. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın dediyi kimi, coğrafiyamızda və onun hüdudlarından kənarda təhlükəsizlik təhdidlərindən tutmuş iqtisadi çətinliklərə, enerji və qida böhranlarına qədər bir çox sınaqlarla eyni anda üzüzəyik. Bu çətinliklər qarşısında həmrəylik və birgə fəaliyyət məqsədimizin inkişaf etdirilməsini bir seçim deyil, zərurət olaraq görürük. Zirvə görüşündə oxşar mövqeyi Pakistanın Baş naziri Məhəmməd Şahbaz Şərif də ifadə edib. Pakistan lideri qeyd edib ki, bugünkü təlatümlü dünyada siyasi və təhlükəsizlik arxitekturaları, bağlantı layihələri və aparıcı texnologiyalar yeni reallığı şərtləndirir", - siyasətçi deyib.

P.Kərimzadə vurğulayıb ki, bütövlükdə, Azərbaycan, Türkiyə və Pakistan arasında üçtərəfli əməkdaşlıq yeni geosiyasi reallıqlar fonunda güc mərkəzinə çevrilmək potensialına sahibdir. Bu əməkdaşlıq modeli təkcə regionda sabitliyə deyil, həm də beynəlxalq səviyyədə sülh və təhlükəsizliyə əhəmiyyətli töhfələr verə bilər.

***Ə.QARDAŞXANOVA, "Azərbaycan"***

# Gəncənin bombalanmasının Ermənistanın siyasi-hərbi rəhbərliyinin bilavasitə nəzarəti və tapşırığı əsasında həyata keçirildiyi məhkəmədə elan edilib





**Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, o cümlədən təcavüzkar müharibənin hazırlanması və aparılması, soyqırımı, müharibə qanunlarını və qaydalarını pozma, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə, hakimiyyəti zorla ələ keçirmə, onu zorla saxlama və digər çoxsaylı cinayətlər törətməkdə təqsirləndirilən Ermənistan Respublikasının vətəndaşları Arayik Harutyunyan, Arkadi Qukasyan, Bako Sahakyan, Davit İşxanyan, David Babayan, Levon Mnatsakanyan və digərlərinin barəsində olan cinayət işləri üzrə açıq məhkəmə prosesinin baxış iclası mayın 30-da davam etdirilib.**

AZƏRTAC xəbər verir ki, Bakı Hərbi Məhkəməsində hakimlər Zeynal Ağayevin sədrliyi ilə, Camal Ramazanovdan və Anar Rzayevdən ibarət tərkibdə (ehtiyat hakim Günel Səmədova) keçirilən məhkəmə iclasında təqsirləndirilən şəxslərin hər biri bildikləri dildə tərcüməçi, həmçinin müdafiələri üçün vəkillərlə təmin olunub.

İclasda təqsirləndirilən şəxslər, onların müdafiəçiləri, zərərçəkmiş şəxslərin bir qismi, onların hüquqi varisləri və nümayəndələri, həmçinin dövlət ittihamını müdafiə edən prokurorlar iştirak ediblər.

Hakim Zeynal Ağayev prosesdə ilk dəfə iştirak edən zərərçəkmiş şəxslərə məhkəmə heyətini, dövlət ittihamını müdafiə edən prokurorları, tərcüməçiləri və s. təqdim edib, habelə onların qanunvericiliklə nəzərdə tutulmuş hüquqlarını və vəzifələrini izah edib.

Məhkəmədə baş prokurorun böyük köməkçisi Vüsal Əliyev tərəfindən 2020-ci ilin iyul ayında, şərti olaraq "Tovuz döyüşləri" adlandırılan hadisələrin baş verdiyi dövrdə Ermənistan tərəfindən təcavüzkar müharibə törədilməsi, o cümlədən Ermənistan silahlı qüvvələri tərəfindən mülki əhali yaşayan zonaların atəşə tutulması, mülki şəxs və hərbçilərin öldürülməsi və əhalinin mülklərinə vurulmuş ziyanla bağlı hadisə yerinə baxış və digər protokolların ekspert rəyləri tədqiq edilib.

Bildirilib ki, Azərbaycan Respublikasına qarşı törədilmiş təcavüzkar müharibə nəticəsində 12-16, 17, 24 və 25 iyul 2020-ci il tarixlərdə vahid niyyətlə apardıqları təcavüzkar müharibənin növbəti mərhələsində iriçaplı silahlar və istintaqla müəyyən edilməyən digər odlu silahlardan atəşlər açmaqla Tovuz rayonunun Ağdam kəndində mülki şəxs qəsdən öldürülüb, Tovuz rayonunun Ağdam, Dondar Quşçu, Əlibəyli, Yuxarı Öysüzlü, Vahidli, Aşağı Öysüzlü kəndləri və Qazax rayonunun Xanlıqlar kəndindən onlarla mülki şəxsə məxsus fərdi yaşayış evlərinə və təsərrüfatlara xüsusilə külli miqdarda ziyan vurmaqla təcavüzkar müharibəni davam etdiriblər.

Tədqiq olunan sənədlərə əsasən, Azərbaycan Respublikasına qarşı törədilmiş təcavüzkar müharibə nəticəsində Tovuz rayonunun Ağdam kəndi ərazisində öldürülən və yaralananlar olub.

Daha sonra məhkəmədə 2020-ci ildə 44 günlük müharibə nəticəsində zərərçəkmiş kimi tanınmış şəxslər dindirilib.

Zərərçəkmiş şəxs Elçin Şirinov bildirib ki, 2020-ci il oktyabrın 28-də saat 13 radələrində "VAZ 21074" markalı avtomobillə Bərdə şəhərində olarkən Ermənistan silahlı qüvvələri tərəfindən atılmış "Smerç" raketi düşüb.

O, hadisə nəticəsində dərəcəsinə görə sağlamlığa ağır zərər vurmaya aid qəlpə xəsarətləri alıb.

"Bərdəyə çox sayda hücum oldu. "Smerç"ləri dəfələrlə atıblar. Nəticədə çoxlu sayda ölənlər, yaralananlar oldu", - deyə zərərçəkmiş şəxs bildirib.

Bakı şəhərinin rayon məhkəmələrində dövlət ittihamının müdafiəsi üzrə şöbəsinin prokuroru Təranə Məmmədovanın suallarını cavablandıran E.Şirinov hadisə baş verən ərazidə hərbi obyekt olmadığını da söyləyib.

Zərərçəkmiş şəxs Faiq Kərimov bildirib ki, 2020-ci il oktyabrın 28-də gündüz işlədiyi idarənin yaxınlığında yolda təmizlik işləri görərkən olduğu yerdən təxminən 40-50 metr aralıya raket mərmisi düşüb. Mərminin qəlpələri ətrafa səpələnib. Dərhal yerə uzanıb, lakin ətrafa səpələnən qəlpələrin bir qismi sağ qoluna, sağ gözünə və başına xəsarət yetirib. "Gözümü itirdim, bədənimin digər hissələrindən xəsarətlər aldım. Nəticədə əlil oldum", - deyə F.Kərimov dövlət ittihamçısı Fuad Musayevin sualını cavablandıran zaman deyib.

Zərərçəkmiş şəxs Şükür Kərimli bildirib ki, 2020-ci il oktyabrın 27-də saat 16 radələrində Bərdə rayonunun Qarayusifli kəndində yaşadığı evdə olarkən partlayış səsi eşidib və çölə çıxıb. Çölə çıxan zaman qonşuluqda yaşayan Ehtiram İsmayılova məxsus fərdi yaşayış evinə mərmi düşməsinin şahidi olub. Dərhal evə daxil olmaq istəyərkən yaşadıqları evin üzərinə və ətrafına ümumilikdə 4 ədəd mərmi düşüb. Mərmi yaşadıqları evə düşərkən sağ bud və kürəyinin sağ nahiyəsindən, bacısı Elnurə Kərimova isə sağ bud nahiyəsindən xəsarət alıb. "Hadisə zamanı ətrafa 60-70 bombacıq düşdü", - deyə o əlavə edib.

Zərərçəkmiş şəxs Rasim Yaxin ifadəsində hərbçi kimi 2020-ci ildə 44 günlük müharibədə iştirak etdiyini, Cəbrayıl, Füzuli, Xocavənd, Şuşa və digər ərazilərdə döyüşlərdə olduğunu bildirib. O, 2020-ci il noyabrın 6-dan 7-nə keçən gecə Şuşada tank mərmisindən yaralandığını deyib. Nəticədə sol biləyimi, sol gözümü itirdim, bədənimdə qəlpə yaraları var", - deyə R.Yaxin əlavə edib.

Zərərçəkmiş şəxs Tural Təvəkküloğlu ifadəsində 2020-ci ildə 44 günlük müharibə zamanı Daşkəsən-Kəlbəcər istiqamətində onlar tərəfə atılan mərminin partlaması nəticəsində yaralandığını bildirib.

Müdafiə tərəfinin suallarını cavablandıran T.Təvəkküloğlu deyib ki, onlar tərəfə atəş həm Kəlbəcərdən, həm də Ermənistandan açılıb.

Zərərçəkmiş şəxs Bəxtiyar Kazımov ifadəsində 2020-ci il oktyabrın 10-dan bir neçə istiqamətdə vuruşduğunu deyib. O, 44 günlük müharibə zamanı noyabrın 4-də Şuşa yaxınlığında, "ferma" adlandırılan ərazidə artilleriya atəşi nəticəsində yaralandığını bildirib.

Zərərçəkmiş şəxs Sərxan Abbasov 44 günlük müharibədə iştirak etdiyini, müharibənin ilk günündən - sentyabrın 27-də Ermənistan silahlı qüvvələrinin Azərbaycanın yaşayış məntəqələrini ağır artilleriyadan atəşə tutduğunu söyləyib: "Həmin vaxt Göygöl rayonunun Toğanalı yaşayış məntəqəsini, Göygöl Milli Parkının ərazisini ağır artilleriyadan atəşə tuturdular. Bundan sonra əks-hücum başladı".

O, döyüşlər zamanı snayper atəşi nəticəsində yaralandığını bildirib.

Zərərçəkmiş şəxs həlak olanların və yaralıların ərazidən çıxarılması zamanı üzərində tibbi xidmət maşını olmasını göstərən işarə olmasına baxmayaraq, Ermənistan hərbçilərinin həmin avtomobilləri artilleriya atəşinə tutduğunu söyləyib.

S.Abbasov düşmən hərbçilərinin Azərbaycanın şəhid olmuş hərbçilərinin nəşlərinə qarşı qeyri-insani hərəkətlər edilməsi barədə videogörüntülərə baxdığını, videoda həmin hərbçilərin komandiri olan polkovnik Karen Calavyanın göründüyünü, K.Calavyanın hazırda təqsirləndirilən Arayik Harutyunyan tərəfindən qondarma rejimin "qəhrəmanı" adı ilə "təltif" edildiyini də bildirib.

Zərərçəkmiş şəxs Ramiz Ağayev 2020-ci il oktyabrın 17-də yaşadığı Gəncə şəhərinin bombalanması nəticəsində 16 nəfərin, o cümlədən atası Nürəddin Ağayevin həlak olduğunu, özünün, ailə üzvlərinin və digər şəxslərin yaralandığını bildirib.

R.Ağayevin oğlu - zərərçəkmiş şəxs Vüqar Ağayev 2020-ci il oktyabrın 17-də baş verənlərin dəhşətli olduğunu, həmin vaxt yaralandığını deyib.

Zərərçəkmiş şəxs Şiraz Həsənov ifadəsində 9 yaşında Füzuli rayonunun Qaraxanbəyli kəndindən məcburi köçkün düşdüyünü, 44 günlük müharibədə iştirak etdiyini, iki dəfə yaralandığını söyləyib.

Zərərçəkmiş şəxs İsmayıl Mehdiyev ifadəsində 2020-ci il sentyabrın 30-da yaşadığı Tərtər rayonunun Azad Qaraqoyunlu kəndində təsərrüfat işləri ilə məşğul olarkən mərmi düşməsi nəticəsində sol ayağından qəlpə xəsarəti aldığını bildirib.

O, yaxınlıqda hərbi hissə olmadığını da əlavə edib.

Zərərçəkmiş şəxs Mais Mirzəyev 2020-ci ildə 44 günlük müharibədə iştirak etdiyini, müxtəlif istiqamətlərdə döyüşlərdə olduğunu, oktyabr ayında Hadrut istiqamətində yaralandığını bildirib.

"Düşmən xüsusilə Hadrut istiqamətində artilleriya, o cümlədən minaatanlarla atəş açırdılar", - deyə o əlavə edib.

David Manukyan ona "Birinci kim hücum edib?" sualını ünvanlayıb. M.Mirzəyev suala "Biz əks hücumla cavab vermişik" deyərək cavab verib.

Məhkəmədə zərərçəkmiş şəxslərin barəsindəki tibbi-ekspertiza rəyləri də elan olunub.

Daha sonra Baş Prokurorluğun Dövlət ittihamının müdafiəsi üzrə idarəsinin Bakı şəhərinin rayon məhkəmələrində dövlət ittihamının müdafiəsi üzrə şöbəsinin rəisi Nəsir Bayramovun iştirakı ilə 2020-ci il oktyabrın 4-dən 18-dək olan müddət ərzində Gəncə şəhərinə atılmış raket atəşləri nəticəsində mülki şəxslərin qəsdən öldürülməsi, mülki infrastruktura ciddi ziyan vurulması və s. xüsusatlar üzrə cinayət işi materiallarında olan bəzi sənədlər tədqiq edilib.

Sənədlərə əsasən, Ermənistanın siyasi-hərbi rəhbərliyinin bilavasitə nəzarəti və şifahi tapşırığı əsasında Ermənistan Respublikasının 1-ci Ümumqoşun Ordusunun 10-cu dağ motoatıcı diviziyasının 6-cı dağ motoatıcı alayını işğal altında saxladıqları Azərbaycan Respublikasının Ağdərə rayonu Suqovuşan kəndi (əvvəlki adı ilə Tərtər rayonunun Suqovuşan kəndi) ərazisinə, həmin ordunun 42-ci əlahiddə artilleriya alayını işğal altında saxladıqları Ağdərə rayonu Aşağı Oratağ kəndi (əvvəlki adı ilə Tərtər rayonunun Aşağı Oratağ kəndi) ərazisinə, eləcə də həmin ordunun 62-ci əlahiddə artilleriya alayını işğal altında saxladıqları Xankəndi şəhər ərazisinə dislokasiya edilməsinə nail olmaqla həmin illər ərzində işğal altında saxladıqları Azərbaycanın digər ərazilərində Ermənistan istiqamətindən daşıyaraq gətirib qurduqları mühəndis-istehkam mövqelərində əvvəlcədən yerləşdirdikləri, habelə qeyd olunan alayların inventarına daxil etdikləri Rusiya Federasiyasında zavod üsulu ilə istehsal edilmiş, "Smerç" (NATO üzrə M1983) yaylım atəşli reaktiv sistemdə istifadə edilmək üçün nəzərdə tutulmuş 300 millimetrlik "9M528" markalı və 300 millimetrlik 9K58 markalı qəlpəli fuqaslı (dağıdıcı) partlayış dalğalı başlıqla təchiz olunmuş reaktiv raketlərdən, Ermənistan Respublikası ərazisində Azərbaycan Respublikası ilə şərti təmas xəttində yerləşdirdikləri Rusiya Federasiyasında zavod üsulu ilə istehsal edilmiş, "9K72"-"Elbrus" (NATO təsnifatı ilə adı "SS-1c Scud B") əməliyyat-taktiki təyinatlı raket kompleksində istifadə edilmək üçün nəzərdə tutulmuş fuqaslı təsirə malik olan, "8F44" tipli döyüş başlığı ilə təchiz edilmiş raketlərdən 2020-ci il oktyabrın 4-dən 18-dək olan müddət ərzində Gəncə şəhərinə davamlı olaraq intensiv atəşlər açılıb.

Beləliklə, Ermənistan silahlı qüvvələri 2020-ci il oktyabrın 4-də, 5-də, 8-də 11-də və 17-də Gəncə şəhərində vahid niyyətlə ümumilikdə 26 nəfər mülki şəxsi qəsdən öldürüb, habelə 175 nəfər mülki şəxsə qəsdən xəsarət yetirsə də, onların vaxtında zərbələrdən yayınmaları, müxtəlif predmetlər arxasında gizlənmələri, ixtisaslı tibbi yardım göstərilməsi səbəbindən onları qəsdən öldürə bilməyiblər. Həmçinin hadisələr zamanı ümumilikdə dövlət mülkiyyətinə, fiziki və hüquqi şəxslərə xüsusilə külli miqdarda ziyan vurulub.

Tədqiq olunan sənədlərdə Gəncəni raketlərlə hədəf almış Ermənistan silahlı qüvvələrinin hərbçilərinin adları da yer alıb.

Qeyd edilib ki, Gəncə şəhəri Ermənistan Respublikası Silahlı Qüvvələrinin Ermənistanın Stepanavan rayonunda dislokasiya olunmuş 71-ci hərbi texnikaların saxlanması bazasının (51556 saylı hərbi hissə) komandiri polkovnik Artaşen Rafiki Hacatyan, komandir müavini polkovnik-leytenant Ara Artuşi Sarqsyan, "Elbrus" taktiki raket kompleksləri diviziyasının komandiri polkovnik-leytenant Vazgen Daviti Vardanyan, "İsgəndər" taktiki raket kompleksləri diviziyasının komandiri polkovnik-leytenant Tiqran Norayri Vardanyan və qeyrilərinin rəhbərliyi ilə həmin hərbi hissənin ehtiyatında olan "Elbrus" taktiki raket kompleksini Ermənistan Respublikası Geqarqunik vilayətinin Vardenis (tarixi Basarkeçər) ərazisindən 2020-ci il oktyabrın 10-da saat 02 radələrində yenidən hədəfə alıb.

Belə ki, böyük insan tələfatı törətmək məqsədilə və düşünülmüş şəkildə Gəncə şəhərinin aşkar surətdə yalnız mülki obyektlərin mövcud olduğu istiqamətdə hədəfləyərək Gəncə şəhəri, Kəpəz rayonu, Ə.Rəfibəyli küçəsinin 4-cü dalanında yerləşən yaşayış binalarının üzərinə 1 ədəd raket atılıb.

Həmin raketin dinc əhalinin sıx yaşadığı qeyd edilən ünvanlara düşüb partlaması nəticəsində 10 mülki şəxs qəsdən öldürülüb, 1 mülki şəxsə ağır, 18 mülki şəxsə yüngül, 32 mülki şəxsə dərəcəsi təyin edilməyən xəsarət yetirilib.

Oktyabrın 17-də isə "Elbrus" taktiki raket kompleksinin Ermənistan Respublikasının Xnaçax rayon ərazisinə gətirilərək "8F44" tipli döyüş başlığı ilə təchiz edilmiş 2 ədəd raketi Gəncə şəhəri istiqamətində atıldığı qeyd edilib. Nəticədə 15 mülki şəxsi qəsdən öldürülüb, 2 mülki şəxsə ağır, 4 mülki şəxsə az ağır, 25 mülki şəxsə yüngül, 48 mülki şəxsə dərəcəsi təyin edilməyən xəsarəti yetirilib.

Məhkəmə prosesi iyunun 2-də davam etdiriləcək.

Qeyd edək ki, Ermənistan dövlətinin, onun dövlət qurumlarının vəzifəli şəxslərinin, hərbi qüvvələrinin və qanunsuz silahlı birləşmələrin bilavasitə rəhbərliyi və iştirakı, şifahi-yazılı qaydada verdiyi tapşırıq, göstəriş və təlimatları, maddi, texniki, şəxsi heyətlə verdiyi dəstəyi, mərkəzi qaydada idarəçiliyi əsasında, eləcə də ciddi nəzarəti altında Azərbaycan ərazisində daxili və beynəlxalq hüquq normalarına zidd şəkildə, Azərbaycana hərbi təcavüz etmək məqsədilə yaradılmış, həmçinin Köçəryan Robert Sedraki, Sarkisyan Serj Azati, Manukyan Vazgen Mikaeli, Sarkisyan Vazgen Zaveni, Babayan Samvel Andraniki, Balasanyan Vitali Mikaeli, Balayan Zori Hayki, Ohanyan Seyran Muşeqi, Qaramyan Arşavir Surenoviç, Melkonyan Monte Çarlz və digərlərinin rəhbərliyi, bilavasitə və dolayı iştirakları ilə Ermənistan dövləti, o cümlədən sözügedən cinayətkar birlik tərəfindən aparılan təcavüzkar müharibənin gedişində törədilmiş çoxsaylı cinayət faktlarına dair cinayət işi üzrə erməni əsilli 15 təqsirləndirilən şəxs ittiham edilir.

Həmin şəxslər, yəni Harutyunyan Arayik Vladimiri, Qukasyan Arkadi Arşaviri, Sahakyan Bako Sahaki, İşxanyan Davit Rubeni, Manukyan David Azatini, Babayan David Klimi, Mnatsakanyan Levon Henrikoviç, Beqlaryan Vasili İvani, Qazaryan Erik Roberti, Allahverdiyan Davit Nelsoni, Stepanyan Qurgen Homeri, Balayan Levon Romiki, Babayan Madat Arakeloviç, Martirosyan Qarik Qriqori, Paşayan Melikset Vladimiri Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 100 (təcavüzkar müharibəni planlaşdırma, hazırlama, başlama və aparma), 102 (beynəlxalq müdafiədən istifadə edən şəxslərə və ya təşkilatlara hücum etmə), 103 (soyqırımı), 105 (əhalini məhvetmə), 106 (köləlik), 107 (əhalini deportasiya etmə və ya məcburi köçürmə), 109 (təqib), 110 (insanları zorakılıqla yoxa çıxarma), 112 (beynəlxalq hüquq normalarına zidd azadlıqdan məhrumetmə), 113 (işgəncə), 114 (muzdluluq), 115 (müharibə qanunlarını və adətlərini pozma), 116 (silahlı münaqişə zamanı beynəlxalq humanitar hüquq normalarını pozma), 118 (hərbi soyğunçuluq), 120 (qəsdən adam öldürmə), 192 (qanunsuz sahibkarlıq), 214 (terrorçuluq), 214-1 (terrorçuluğu maliyyələşdirmə), 218 (cinayətkar birlik (təşkilat) yaratma), 228 (qanunsuz olaraq silah, onun komplekt hissələrini, döyüş sursatı, partlayıcı maddələr və qurğular əldə etmə, başqasına vermə, satma, saxlama, daşıma və gəzdirmə), 270-1 (aviasiya təhlükəsizliyinə təhdid yaradan əməllər), 277 (dövlət xadiminin və ya ictimai xadimin həyatına sui-qəsd etmə), 278 (hakimiyyəti zorla ələ keçirmə və onu zorla saxlama, dövlətin konstitusiya quruluşunu zorla dəyişdirmə), 279-cu (qanunvericiliklə nəzərdə tutulmayan silahlı birləşmələri və qrupları yaratma) və digər maddələri ilə ittiham olunurlar.

# İŞİMİZ, GÜZƏRANIMIZ

## Sənayeləşən Qarabağ




### Ağdamda ümid doğrulur, Araz vadisində gələcək qurulur

**Qarabağ və Şərqi Zəngəzur... Bu torpaqlar bir vaxtlar yalnız itirilmiş arzularımızın ünvanı idi. Bu iki ad uzun illər dilimizdə nisgillə səsləndi, ürəyimizdə qayıdış ümidi ilə yaşadı. İndi isə zaman dəyişib, həmin yurd yerləri yalnız tariximizin deyil, gələcəyimizin də mərkəzinə çevrilib. Torpağın altındakı sərvət, üstündəki zəhmət, gələcəyə uzanan arzular bir-birinə qovuşub.**

Qarabağ və Şərqi Zəngəzur artıq təkcə 44 günlük savaşın qəhrəman şəhidləri, igid qaziləri haqqında dastanların deyil, həm də iqtisadi dirçəlişin və sosial yenidənqurmanın rəmzinə çevrilib. Uzun illər susqun qalan bu torpaqlar indi öz səsini zavodların, istehsal sahələrinin uğultusunda tapır. Bu gün regionda çəkilən yollar, ucalan binalar, sürətlə inşa edilən infrastrukturlar ilə gələcəyin təməli qoyulur. Əvvəllər müharibənin izlərini daşıyan bu ərazilər artıq yeni həyatın, yeni imkanların ünvanına çevrilib. Prosesin mərkəzində isə Ağdam Sənaye Parkı və "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkı kimi layihələr dayanır.

2021-ci ildə təməli qoyulan və 190 hektar ərazini əhatə edən Ağdam Sənaye Parkına biznes strukturları böyük maraq göstərirlər. Parkda ümumi investisiyaların həcmi 271 milyon manat olan 29 sahibkarlıq subyektinə rezidentlik, 4 sahibkara isə qeyri-rezidentlik statusu verilib. Burada ümumilikdə 2400-dən çox iş yerinin yaradılması nəzərdə tutulur. Bu günədək sənaye parkında görülmüş işlərə rezidentlər tərəfindən 97 milyon manata yaxın investisiya yatırılıb, 380 nəfərlik daimi iş yeri yaradılıb. Hazırda Ağdam Sənaye Parkında 9 müəssisə fəaliyyət göstərir. İqtisadiyyat Nazirliyinin məlumatına görə, Ağdam Sənaye Parkında 2024-cü ilin sentyabrından 2025-ci ilin birinci rübünün sonunadək sahibkarlar tərəfindən 85 milyon manatlıq məhsul istehsal olunub . Artıq sahibkarlar tərəfindən sənaye parkında görülmüş işlərə 111,7 milyon manat investisiya yatırılıb, 649 iş yeri açılıb. Bu da o deməkdir ki, parkın 70 faizdən çox hissəsi sahibkarların istifadəsinə verilib. Bu il parkda tütün məmulatlarının istehsalı müəssisəsinin də fəaliyyətə başlaması planlaşdırılır.

Ağdam Sənaye Parkında istehsal olunan məhsullar artıq xarici bazarlara ixrac edilir. Parkın rezidenti olan "BAFCO İnvest" MMC müxtəlif növ qoruyucu ayaqqabılar və poliuretan çəkmələr istehlakçıya çatdırır. Bu məhsullar artıq Rusiya, Qazaxıstan, Özbəkistan və Birləşmiş Ərəb Əmirliklərinə ixrac olunub. Sənaye Parkının digər rezidenti - "Mister Decor" MMC tərəfindən istehsal olunan divar kağızları Gürcüstana ixrac edilib. Şirkətin bu məhsulu artıq Özbəkistana da ixrac olunmağa başlayıb. Qardaş ölkəyə ilkin mərhələdə 1,36 milyon manatlıq məhsulun göndərilməsi nəzərdə tutulub. Qeyd edək ki, "Mister Decor" MMC Ağdam Sənaye Parkının 1,6 hektar ərazisində divar kağızlarının istehsalını həyata keçirir. İnvestisiya həcmi 8 milyon manat olan müəssisə Cənubi Qafqazda divar kağızlarının istehsalı üzrə ixtisaslaşmış ilk zavoddur. Müəssisə il ərzində 2,1 milyon ədəd rulon divar kağızı istehsal etmək gücündədir. Parkın qısa müddətdə fəaliyyətinin genişlənməsi onu göstərir ki, yaxın zamanda bura yalnız məhsul istehsal edən bir məkana çevrilməyəcək, həm də yerli əhalinin məşğulluğuna töhfə verəcək, keçmiş məcburi köçkünlərin geri dönüşünü sürətləndirəcək, əlverişli biznes mühiti yaradacaqdır. Təbii ki, parkda iqtisadi canlanmanı yaradan əsas amillər dövlət tərəfindən verilən dəstək, yeni vergi güzəştləri, infrastruktur təminatı və investorlar üçün yaradılan şəraitdir.

Qarabağın iqtisadi dirçəlişində Ağdam Sənaye Parkının rolu danılmazdır və bu inkişafın davamı olaraq, "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkında da yeni sənaye imkanları və investisiya perspektivləri formalaşır. Zəngəzurun iqtisadi qapısı olan bu zonanın yaradılmasında məqsəd həm yerli istehsal imkanlarını artırmaq, həm də bölgənin logistika, ticarət və ixrac mərkəzinə çevrilməsini təmin etməkdir. Qeyd edək ki, Zəngəzur dəhlizinə yaxınlığı, dəmir yolu və avtomobil yolları ilə əlçatan olması bu zonanın strateji önəmini artırır. Burada təkcə sənaye və kənd təsərrüfatı sahələri deyil, eyni zamanda "yaşıl enerji", rəqəmsal iqtisadiyyat və "ağıllı kənd təsərrüfatı" modelləri də inkişaf etdirilir. Bunlar Şərqi Zəngəzurun yalnız ənənəvi deyil, innovativ inkişaf yolu ilə getdiyinin göstəricisidir.

Logistik imkanlar baxımından əlverişli ərazidə yerləşən "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkında hazırda investisiya portfeli 130 milyon manata yaxın olan 16 sahibkarlıq subyekti rezident, 3 sahibkar isə qeyri-rezident kimi qeydiyyatdan keçib. Sənaye parkında ümumilikdə 1800-ə yaxın daimi iş yerinin yaradılması nəzərdə tutulur. İqtisadiyyat Nazirliyinin məlumatına görə, bu günədək sənaye parkında görülmüş işlərə sahibkarlar tərəfindən 35 milyon manatdan çox investisiya yatırılıb, 100-ə yaxın daimi iş yeri yaradılıb. Məlumatda daha sonra deyilir: "Sənaye parkında sahibkarlar tərəfindən indiyədək 1,7 milyon manatlıq məhsul satışı və xidmətlər göstərilib. Bundan başqa, parkda hazırda 5-dən çox müəssisənin tikintisi istiqamətində işlər görülür". 200 hektar ərazini əhatə edən parkın 30 faizdən çox hissəsi sahibkarların istifadəsinə verilib. Parkda hazırda 2 müəssisə fəaliyyət göstərir.

Qarabağ və Şərqi Zəngəzurun hər iki sənaye subyekti regionun dayanıqlı iqtisadi inkişafının, sosial sabitliyinin, əhalinin yaşayış səviyyəsinin yaxşılaşdırılmasının və ölkənin ümumi iqtisadi gücünün artırılmasında önəmli rol oynayan obyektlərə çevrilməkdədir. Burada yaranacaq minlərlə iş yeri, yerli və xarici sərmayələrin artması, ixrac potensialının güclənməsi yalnız regional deyil, milli səviyyədə iqtisadi rifahın möhkəmlənməsinə xidmət edəcək.

*Züleyxa ƏLİYEVA,*
*"Azərbaycan"*

## Azərbaycanın bütün qitələrdə ticarət tərəfdaşı var

Beynəlxalq iqtisadiyyatın inkişafında üç əsas amil önəmli rol oynayır - kapital qoyuluşu, istehsal və məhsulun satışı. Hazırda dünya miqyasında baş verən gərgin qlobal geosiyasi proseslər hər üç amilə ciddi ziyan vurur.

Qərb-Şərq bloku arasında baş verən toqquşmadan qaynaqlanan sanksiyalar, ilk növbədə, dünyada formalaşmış investisiya qoyuluşu prosesinə zərbə vurur. Çünki dövlətlərin bir-birilərinə sanksiya tətbiq etməsi özəl investisiya axınlarının qarşısını alır. Digər vacib məsələ isə dünya səviyyəsində ticarətdə yaranan ləngimələrdir. Belə ki, qlobal ticarətin aparıldığı iki mühüm ticarət marşrutundan biri işləmir, ikincisi isə tam gücü ilə fəaliyyət göstərmir. O üzdən dünya yeni və təhlükəsiz marşrut olan Orta dəhlizə üstünlük verir. Bu dəhlizdə isə açar ölkə Azərbaycandır.

Prezident İlham Əliyev tərəfindən aparılan uğurlu xarici siyasət ölkəmizi dünyada mövcud olan risklərdən qoruyur. Heç bir dövlətin ölkəmizə qarşı iqtisadi sanksiya tətbiq etməməsi, əksinə, son dövrlər ticarət partnyorlarımızın sayının artması bunun sayəsindədir.

Statistikaya istinad edək. Dövlət Statistika Komitəsinin məlumatına görə, cari ilin yanvar-mart aylarında Azərbaycan dünyanın 151 ölkəsindəki tərəfdaşları ilə ticarət əməliyyatları həyata keçirmişdir. 96 ölkəyə məhsul ixrac, 142 ölkədən idxal olunmuşdur.

Hesabat dövründə gömrük orqanlarında qeydiyyatı aparılmış, lakin gömrük rəsmiləşdirilməsi tam başa çatdırılmamış ixrac olunan xam neft və təbii qazın statistik qiymətləndirilmiş dəyəri nəzərə alınmaqla xarici ticarət dövriyyəsinin dəyəri 11 milyard 956,3 milyon, o cümlədən ixracın dəyəri 6 milyard 293,3 milyon, idxalın dəyəri 5 milyard 663 milyon dollar təşkil etmiş, nəticədə 630,3 milyon dollarlıq müsbət ticarət saldosu yaranmışdır. Ötən ilin eyni vaxtı ilə müqayisədə xarici ticarət dövriyyəsi faktiki qiymətlərlə 20,1, real ifadədə 3,9 faiz artmışdır. İdxal real ifadədə 24,8 faiz artmış, ixrac isə 8,6 faiz azalmışdır.




Dövlət Gömrük Komitəsindən daxil olmuş məlumatlara əsasən, xarici ticarət dövriyyəsində İtaliya, Rusiya, Türkiyə, Çin, Almaniya, Birləşmiş Krallıq, Çexiya, Avstraliya, Rumıniya, Xorvatiya, Gürcüstan, Portuqaliya, Meksika, Yunanıstan, İsveçrə, Bolqarıstan, İran, Kanada, ABŞ, İrlandiya, Braziliya, Qazaxıstan və Ukrayna 90,2 faizlə əsas ticarət partnyorlarımız olmuşdur.

İdxalda qiymətli metallar, azqiymətli metallar və onlardan hazırlanan məmulatların, maşınların, mexanizmlərin, elektrotexniki avadanlıq və aparatların, nəqliyyat vasitələrinin, mineral məhsulların, kimya sənayesi məhsullarının, hazır ərzaq məhsulları, içkilər və tütün məmulatlarının, bitki mənşəli məhsulların, toxuculuq materialları və məmulatlarının, plastik kütlə və ondan hazırlanan məmulatların dəyəri üstünlük təşkil etmişdir. İxracın strukturunda isə xam neft, təbii qaz və neft məhsullarından savayı, meyvə və tərəvəz, kimya sənayesi məhsulları, plastik kütlə və ondan hazırlanan məmulatlar, alüminium və ondan hazırlanan məmulatlar, pambıq lifi və iplik, qara metallar və ondan hazırlanan məmulatlar, alkoqullu və alkoqulsuz içkilər, şəkər və bitki yağlarının payı daha yüksək olmuşdur.

*Rüstəm KAMAL,*
*"Azərbaycan"*

## Gələn həftə Xankəndidə əmək yarmarkası təşkil olunacaq

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyinin Qarabağ Regional Məşğulluq filialı Xankəndi şəhərində əmək yarmarkası keçirəcək.**



Tədbir iyunun 4-də filialın Xankəndi şəhər xidmət şöbəsinin inzibati binasında təşkil olunacaq.

"Qoç ət" Kəndli Fermer Təsərrüfatı" MMC-nin dəstəyi ilə keçiriləcək yarmarkada Xocalı rayonu üzrə həmin müəssisəyə aid mühasib, traktorçu, baytar, təmirçi-çilingər, mexanik və s. iş yerləri üzrə vakansiyaların çıxarılması nəzərdə tutulub.

Aktiv məşğulluq tədbirində bu vakansiyalara uyğun namizədlərin qeydiyyatı aparılacaq.

## Banklar inşaat və tikinti sektoruna 1,8 milyard manatdan çox kredit verib

**Bu ilin mayın 1-nə Azərbaycanda fəaliyyət göstərən banklar və qeyri-banklar tərəfindən inşaat və tikinti sektoruna qoyulmuş kreditlərin həcmi 1,820 milyard manata çatıb.**



Bu barədə "Trend" Azərbaycan Mərkəzi Bankına istinadən məlumat yayıb. Bildirilir ki, bu göstərici aylıq müqayisədə 0,8 milyon manat və ya 1 faiz az, ötən ilin eyni dövrü ilə müqayisədə 145,5 milyon manat və ya 8,7 faiz çoxdur.

Qeyd edək ki, ümumilikdə Azərbaycanda real sektora kredit qoyuluşu üzrə kredit portfeli 29,9 milyard manat təşkil edib. Bu da aylıq müqayisədə 219,4 milyon manat və ya 0,7 faiz, 2024-cü ilin eyni dövründəki göstərici ilə müqayisədə isə 3,9 milyard manat və ya 15,1 faiz artım deməkdir.

## Məşğulluğun təminatında qeyri-dövlət sektorunun payı artır

**Azərbaycanda icra edilən sosial tədbirlərin bir istiqaməti də vətəndaşların məşğulluğunun təmin olunmasıdır. Bununla bağlı bir çox layihələr həyata keçirilir, beynəlxalq təşkilatlarla əməkdaşlıq edilir. Məqsəd hər bir Azərbaycan vətəndaşının sosial güvənliyini təmin etmək üçün ona layiqli iş yeri tapmaqda yardımçı olmaq, dəstək verməkdir.**

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən verilən məlumata görə, son bir həftədə daha 329 nəfər işsiz və işaxtaran şəxs əmək bazarının tələblərinə uyğun peşələr üzrə hazırlıq kurslarına cəlb olunub. Nazirliyin Dövlət Məşğulluq Agentliyi həmin şəxslərin 116-nı agentliyin peşə hazırlığı mərkəzlərinə, 213 nəfərini isə özəl tədris müəssisələrindəki kurslara göndərib.

Peşə hazırlığına cəlb olunan şəxslərin işlə təmin edilməsi üçün işəgötürənlərlə əməkdaşlıq genişləndirilir. Bu məqsədlə Dövlət Məşğulluq Agentliyi və "Marsol Group" arasında memorandum imzalanıb. Razılaşmaya əsasən, tərəflər fəaliyyət istiqamətləri, qarşılıqlı maraq kəsb edən layihələr üzrə əməkdaşlıq edəcəklər. Həmçinin sosial müdafiəyə xüsusi ehtiyacı olan və işə düzəlməkdə çətinlik çəkən şəxslər üçün əlavə iş yerləri və sosial müəssisələrin yaradılmasına marağın artırılması məqsədilə müxtəlif təşviqedici tədbirlərin, o cümlədən proqram və layihələrin həyata keçirilməsi, peşə hazırlığına cəlb olunan şəxslərin müvafiq işlə təmin edilməsinə "Marsol Group" tərəfindən kömək göstərilməsi istiqamətində razılaşma əldə olub. Bundan başqa, əməkdaşlıq çərçivəsində birgə innovativ layihələrin, korporativ sosial məsuliyyət tədbirlərinin və forumların həyata keçirilməsi də nəzərdə tutulur.

İşğaldan azad edilmiş ərazilərin sakinləri üçün peşə kurslarının təşkili də diqqət mərkəzindədir. Böyük qayıdış proqramının icrası çərçivəsində Dövlət Məşğulluq Agentliyi indiyəcən işğaldan azad edilmiş ərazilərin sakinlərindən 2000-ə yaxın şəxsi peşə kurslarına cəlb edib. Onlardan 210 nəfər işğaldan azad edilmiş ərazilərimizə köçürülmüş, digər şəxslərin isə yaxın vaxtlarda köçürülməsi nəzərdə tutulur. Sakinlər köçürülməzdən əvvəl onlarla məşğulluq imkanlarının qiymətləndirilməsi üçün görüşlər keçirilir.

Məşğulluq sahəsində ölkə üzrə vəziyyətə gəldikdə, Dövlət Statistika Komitəsinin məlumatına görə, cari il mayın 1-i vəziyyətinə ilkin mənbələrdən daxil olan məlumatlara əsasən, iqtisadi fəal əhalinin sayı 5 milyon 323,3 min nəfər olmuşdur. Onlardan 5 milyon 39,6 min nəfəri məşğul əhalidir. Aprelin 1-i vəziyyətinə muzdla çalışanların çoxu emal sənayesində, tikintidə, su təchizatı, tullantıların təmizlənməsi və emalı, kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq və s. sahələrdə çalışmışlar. Həmin dövr xidmət sahələrində çalışanların sayında ticarət, nəqliyyat vasitələrinin təmiri, səhiyyə və sosial xidmətlərin göstərilməsi, inzibati və yardımçı xidmətlərin göstərilməsi, elm və texniki fəaliyyət sahələrində üstünlük təşkil etmişdir.

Cari ilin birinci rübündə ölkədə 23,4 min yeni iş yeri açılmışdır. Yeni iş yerlərinin 90,6 faizi qeyri-dövlət sektorunda açılmışdır.

*R.MÜTƏLLİBOV,*
*"Azərbaycan"*



## Almaniya ilə "yaşıl enerji" sahəsi üzrə əməkdaşlıq müzakirə edilib

**Energetika Nazirliyində energetika naziri Pərviz Şahbazovla Alman İqtisadiyyatının Şərq Komitəsinin sədri Mixael Harms arasında görüş olub.**

Nazirlikdən bildirilib ki, görüşdə Almaniyanın enerji sahəsində diversifikasiya, rəqabətqabiliyyətli qiymətlərin təmin edilməsi və iqlim dəyişikliyi ilə mübarizənin gücləndirilməsi siyasəti, eləcə də Azərbaycanın bərpaolunan enerji mənbələrinin inkişafı və enerji səmərəliliyi istiqamətində həyata keçirdiyi kurs çərçivəsində tərəfdaşlığa dair müzakirələr aparılıb. Alman şirkətlərinin Azərbaycanda təxminən 20 layihə üzrə əməkdaşlıq planlarının olduğu, bunların bir qisminin enerji sahəsini əhatə etdiyi qeyd olunub. Kiçik miqyaslı bərpaolunan enerji layihələri, enerji səmərəliliyi, enerji tələbatının idarə olunması istiqamətləri ilə yanaşı, dənizdə külək enerjisinin inkişafı, "Xəzər-Qara dəniz-Avropa Yaşıl Enerji Dəhlizi" və "yaşıl enerji" tədarükü üzrə əməkdaşlıq imkanları nəzərdən keçirilib. Bildirilib ki, hazırda Azərbaycan, Gürcüstan, Qara dəniz və Şərqi Avropa ölkələri arasında həyata keçirilən "Yaşıl Enerji Dəhlizi" ilə elektrik enerjisindən əlavə, növbəti mərhələdə "yaşıl hidrogen"in nəqli də nəzərdə tutulur. Bu dəhlizlə ixrac olunacaq həcmlər gələcəkdə Almaniyanın enerji tələbatını qarşılamaq üçün də istifadə oluna bilər.

Söhbət zamanı hazırda icra olunan digər "yaşıl enerji" interkonnektorları, dünyada "yaşıl texnologiyalar" və hidrogen sənayesinin inkişafı ilə bağlı da fikir mübadiləsi aparılıb.

## Bakıda I Azərbaycan Beynəlxalq İnvestisiya Forumu keçiriləcək

**İyunun 27-28-də Bakıda I Azərbaycan Beynəlxalq İnvestisiya Forumunu keçiriləcək.**

Bu barədə AZPROMO-nun icraçı direktoru Yusif Abdullayev "Türkiyə-Azərbaycan İş Adamları və Sənayeçiləri İctimai Birliyi"nin 6-cı ümumi yığıncağında çıxışı zamanı deyib.

"İqtisadiyyat Nazirliyi və AZPROMO-nun "The European House - Ambrosetti" ilə strateji tərəfdaşlığı çərçivəsində keçiriləcək bu forum Şərqlə Qərbin kəsişməsində yerləşən Azərbaycanı dayanıqlı ticarət və təchizat zəncirlərinin gələcəyini formalaşdıran mühüm investisiya platformasına çevirəcək", - deyə Y.Abdullayev qeyd edib.





# Vətən deyəndə...





## Tarix yazan oğullar

# Bir kəndin on qəhrəman oğlu

**Erməni təxribatı nəticəsində İkinci Qarabağ müharibəsi başlayanda Vətən təəssübü çəkən oğullar ürəklərində düşmənə nifrət hissi ilə könüllü olaraq torpaqlarımızın müdafiəsinə qalxdılar. Həmin günlər Zaqatala rayonunun Gözbarax kəndinin torpaq, yurd qeyrəti çəkən oğulları da qorxu bilmədən Ali Baş Komandan İlham Əliyevin çağırışına səs verərək döyüşlərə yola düşdülər.**

Bu qorxmaz oğullar müharibənin ilk günlərindən başlayaraq sonadək cəsarətlə, qələbə ovqatı ilə döyüşdülər. Yurdun xilasına yollanmış cəsur əsgərlər yurdumuzu, torpaqlarımızı erməni işğalçılarından azad etdilər, şəhidlərin qisasını aldılar.

Kənd camaatı 44 günlük Vətən müharibəsində iştirak edən bu oğullara Qarabağın xilaskarı kimi baxırlar. Torpaqlarımızın azadlığı uğrunda gedən döyüşlərdə vuruşmuş gənclərdən biri də **Şahin Səfərovdur.** O, 2007-2009-cu illərdə hərbi hissələrin birində topçu kimi xidmət etmiş, təlim-məşqlərdə artilleriya qurğusunun sirlərinə dərindən yiyələnmişdi. İkinci Qarabağ müharibəsi başlayanda Şahin Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rayon şöbəsinə üz tutmuşdu. Bir neçə gündən sonra artıq o, Füzuli istiqamətində gedən döyüşlərə qatılmışdı.



Şahin Səfərov bir əsgər kimi üzərinə düşən tapşırıqları yerinə yetirərək minaatan qurğusunun atdığı mərmilərlə işğalçıların hədəflərini dəqiq vururdu. Döyüşdən-döyüşə təcrübəsi daha da artırdı. Füzuli erməni işğalçılarından azad olunandan sonra onların bölüyünü Cəbrayıl rayonunun kəndləri uğrunda gedən döyüşlərə cəlb etdilər. Burada mövqe tutmuş erməni işğalçıları geri çəkilmək istəmir, ciddi müqavimət göstərməyə çalışırdılar. Amma yağılar nə qədər dirəniş göstərsələr də, qüdrətli Azərbaycan Ordusunun güclü hücumları qarşısında çox dayana bilməyib döyüş meydanından qaçmağa məcbur oldular. Bir həftədən sonra döyüşlərini davam etdirmək üçün Şahingili Xocavənd rayonuna göndərdilər.

Məğlubiyyətin acısını daddıqca ermənilər zəifləyir, ruhdan düşür, Azərbaycan əsgərinin qarşısında gücsüz olduqlarını hiss edirdilər. Çox keçmədi ki, Xocavənd rayonunun xeyli hissəsi erməni işğalçılarından azad olundu. Uğurlu əməliyyatdan sonra döyüşçülərimizin Şuşaya gedən yolları açıldı. Həmin günlər onun sevinci yerə-göyə sığmırdı. Çünki Şahin Şuşa uğrunda döyüşəcəkdi. Cəsur əsgər bu günü uzun illər idi ki, həsrətlə gözləmiş və arzulamışdı. Gözlədiyi gün artıq çatmışdı. Onların atdıqları mərmilər, güllələr hədəfə düz dəyirdi. Düşmən Azərbaycan əsgərinin dəqiq zərbələrindən yayına bilmir, ağır itkilər verərək geri çəkilirdi.

Cəsur döyüşçü Şahin Səfərov Şuşa uğrundakı döyüşlərindən söz açaraq deyir:

- Əsas tapşırığımız xüsusi təyinatlı qüvvələrin irəliləməsinə artilleriya dəstəyi vermək idi. Bölmələrimiz Şuşaya daxil olsa da, şəhərdəki hakim yüksəkliklərə hələ də düşmən nəzarət edirdi. Biz həmin yüksəklikləri minaatanla vurmaq və oradakı qəsbkarların atəş vasitələrini sıradan çıxarmalıydıq. Tapşırıqları uğurla yerinə yetirirdik. İşğalçılar dəqiq və sarsıdıcı zərbələrimizə tab gətirməyərək geri çəkilmək məcburiyyətində qaldılar. Döyüşçülərimiz düşmən üzərinə qartal kimi şığıyırdılar. Gözləmədiyimiz bir vaxtda geri çəkilən yağılar mövqeyimizi top atəşinə tutdular. Mərmilərdən biri yaxınlığımıza düşdü. Mən ağır yaralandım, Əmrah adlı əsgər yoldaşım isə şəhid oldu.

İkinci Qarabağ müharibəsində göstərdiyi igidliyə və cəsarətə görə Şahin Şəmsəddin oğlu Səfərov Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq sərəncamları ilə "Cəbrayılın azad olunmasına görə', "Füzulinin azad olunmasına görə" və "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif olunub.

İki övlad atası olan Şahin Səfərov 44 günlük Vətən müharibəsində iştirak etdiyinə, torpaqlarımızın azadlığı uğrunda vuruşduğuna görə özünü xoşbəxt hiss edir. Aldığı çoxsaylı qəlpə yaraları sağlamlığını əlindən alsa da, həmişə "Təki Vətən sağ olsun!" deyir. Kənd sakinləri, ağsaqqallar, ziyalılar, din adamları tez-tez igid döyüşçünü ziyarət edirlər. Şahin Səfərov deyir ki, biz torpaqlarımızın azadlığı uğrunda Vətən sevgisi, qələbə əzmi, Zəfər yanğısı, düşməndən şəhidlərimizin qisasını almaq amalı ilə vuruşduq. Ona görə də qalib gəldik. Gözəl deyiblər ki, yenilməz qüdrətdir Vətənə sevgi! Elə bizi də zirvələrə yüksəldən, zəfərlərə qovuşduran da yenilməz Vətən sevgisi oldu.



**Elşən Bəxtiyar oğlu Quluyev** də 44 günlük Vətən müharibəsində Cəbrayıl, Xocavənd, Zəngilan rayonlarının azadlığı uğrunda gedən döyüşlərdə cəsarətlə vuruşub. Söhbət zamanı Elşən dedi ki, torpaqlarımızı qorumaq, onun keşiyində dayanmaq oğulların müqəddəs borcudur. Düşünürəm ki, biz İkinci Qarabağ müharibəsində bu müqəddəs borcu böyük cəsarət və hünərlə yerinə yetirdik. Döyüşlərdə düşməni məğlub edib Zəfər qazandığımıza görə alnımız açıq, başımız ucadır. Biz bu ucalıqlardan heç vaxt enməyəcəyik. Əməliyyatlar zamanı kifayət qədər döyüş təcrübəsi qazandıq. Əgər yurdumuzun müdafiəsi uğrunda yenidən müharibə başlayarsa, biz keçmiş döyüşçülər yenə də ön sırada olmağa hazırıq.

Qarabağı və onun ətrafındakı rayonlarımızın uzun illərdən bəri erməni işğalında qalması bir vətəndaş kimi məni çox narahat edirdi, - deyə keçmiş döyüşçü Cahandar Cəmil oğlu İbrahimov sözə başladı. - Erməni qəsbkarları danışıqlar yolu ilə torpaqlarımızı qaytarmaq istəmədilər. Hələ bu azmış kimi, yeni ərazilərimizi də işğal edəcəklərini dillərinə gətirirdilər. Dediklərindən hiss olunurdu ki, qəsbkarlar yeni müharibəyə hazırlaşırlar. Əgər yurdumuzun azadlığı uğrunda yenidən döyüşlər başlasaydı, mən mütləq ön sıralarda vuruşacaqdım. Çünki ürəyim erməni işğalçılarına qarşı nifrətlə döyünürdü. Nəyin bahasına olursa-olsun, Qarabağımız azad olunmalı, şəhidlərin qısası alınmalıydı. Mən bu amalla, bu arzuyla yaşayırdım. İkinci Qarabağ müharibəsi başlananda könüllü olaraq döyüşlərə yollandım. Cəbrayıl, Xocavənd və Füzuli rayonları uğrunda gedən döyüşlərdə vuruşdum. Ən gərgin döyüşüm Qırmızıbazar istiqamətində oldu. Şükürlər ki, döyüşlərimiz qələbə ilə başa çatdı. Erməni işğalçılarını ağır məğlubiyyətə uğradaraq həm torpaqlarımızı azad etdik, həm də şəhidlərimizin qısasını aldıq. İndi ürəyimiz rahatdır, çünki artıq Qarabağ azaddır, torpaqlarımız düşmənlərdən təmizlənib.



Cəsur əsgər Paşa Sultan oğlu Əliyev də İkinci Qarabağ müharibəsinin iştirakçısı olub. Cəbrayıldan başlayan döyüş yolu Füzulidən keçərək Şuşada tamamlanıb. Paşa Əliyev deyir ki, torpaqlarımızın azadlığı uğrunda gedən döyüşlərdə iştirak etdiyinə görə qürur hissləri keçirir: "Vuruşduğum, döyüşdüyüm günləri ömrümün ən mənalı, ən dəyərli anları hesab edirəm. Bir zamanlar qan tökə-tökə azad etdiyimiz Qarabağda, Şərqi Zəngəzurda indi böyük quruculuq işləri aparılır. Bunları görəndə ürəyimiz açılır, qəlbimizə sevinc ələnir".



Yurdumuzun azadlığı uğrunda gedən döyüşlərdə göstərdiyi igidliyə və cəsarətə görə Paşa Sultan oğlu Əliyev "İgidliyə görə" medalı ilə təltif olunub.

**Hacıxan Eyvaz oğlu Xəlilov** da İkinci Qarabağ müharibəsi başlayanda könüllü olaraq döyüşlərə yollanıb. Cəbrayıl, Zəngilan, Xocavənd və Qubadlı uğrunda gedən əks-hücum əməliyyatlarında həmişə ön sıralarda vuruşub. Əsgər kimi üzərinə düşən döyüş tapşırıqlarını bacarıqla yerinə yetirib. Buna görə də həm komandirlərinin, həm də əsgər döyüşçü yoldaşlarının böyük rəğbətini qazanıb.

Söhbət zamanı Hacıxan dedi ki, heç kim müharibənin olmasını istəmir: "Xalqımız da dünyadakı ən sülhsevər xalqlardan biridir. Amma düşmən torpaqlarımızı işğal edibsə, qaytarmaq istəmirsə, artıq silaha əl atıb, mütləq onu azad etmək lazım idi. Biz də torpaqlarımızı erməni işğalçılarından təmizləmək üçün döyüşlərə yollandıq. Şükürlər olsun ki, bütün əməliyyatlarımız uğurla başa çatdı. Şanlı Azərbaycan Ordusu Müzəffər Ali Baş Komandan İlham Əliyevin sərkərdəliyi altında möhtəşəm Zəfər qazandı. Əgər belə demək mümkünsə, tarix yazdı. Yazılan bu tarix çox şərəfli və möhtəşəmdir. Bu tarixin səhifələri gələcək nəsillər üçün qəhrəmanlıq nümunələri ilə doludur. Gənclər bu qəhrəmanlıq nümunələrindən çox şey öyrənəcəklər".



**Musa Şirin oğlu Əliyev** də 44 günlük Vətən müharibəsi iştirakçısıdır. Söhbət zamanı öyrəndik ki, Musa kiçik yaşlarından idmana maraq göstərib, cüdo ilə məşğul olub, gənclər arasında keçirilən yarışlarda uğurlu nəticələr göstərib. Əsgəri xidmətinin 9 ayını Əfqanıstandakı sülhməramlı qüvvələrimizin sıralarında yerinə yetirib.

İkinci Qarabağ müharibəsi başlayanda Musa Əliyev də dostları ilə bərabər könüllü olaraq yurdumuzun müdafiəsinə atılıb. Onun sıralarında vuruşduğu hərbi hissənin şəxsi heyətini Talış və Suqovuşan kəndləri uğrunda gedən döyüşlərə cəlb ediblər. Cəsarəti və şücaəti ilə fərqlənən Musa komandirlərin verdiyi tapşırıqları bacarıqla yerinə yetirib. 44 günlük Vətən müharibəsində göstərdiyi igidliyə görə Musa Şirin oğlu Əliyev Azərbaycan Prezidenti İlham Əliyevin sərəncamı ilə "Suqovuşanın azad olunmasına görə" medalına layiq görülüb.

İştirakçısı olduğu əməliyyatlardan söz açan Musa Əliyev dedi ki, Qarabağ uğrunda vuruşduqca sanki gücü daha da artırdı: "Düşməni diz çökdürüb geri sıxışdıra-sıxışdıra uzun illərdən bəri işğalda qalmış torpaqlarımızı azad edirdik. Qəsbkarları geri qovduqca Qarabağın içərilərinə doğru irəliləyirdik. İlk dəfəydi ki, ayağım Qarabağ torpaqlarına dəyirdi. Bu anlarda xoş hisslər keçirir, Vətənə əsgər olmağımdan qürur duyurdum. Gərgin keçən döyüşlərdən sonra Suqovuşan və Talış kəndlərini, həmçinin bir neçə strateji əhəmiyyətli yüksəkliyi qəsbkarlardan azad etdik".

Kənd sakini **Şaban Sərdar oğlu İsgəndərov** Ağdərə rayonu istiqamətində, Talış və Suqovuşan kəndləri uğrunda vuruşub. Müharibənin davam etdiyi 44 gün ərzində Vətən qarşısındakı övladlıq borcunu layiqincə yerinə yetirib. Döyüşlərin elə ilk günlərindən cəsarəti və hünəri ilə fərqlənib. Şaban döyüşə yollanan ərəfədə üzünü əsgər yoldaşlarına tutaraq "Biz Qarabağa torpaqlarımızı erməni işğalçılarından azad etmək amalı və arzusu ilə gəlmişik. Məqsəd və amalımıza çatmaq üçün cəsarətlə vuruşacağıq. Qarabağı düşməndən azad edib zirvələrindən Zəfər bayrağını asacağıq! deyərək bütün əməliyyatlarda ön sıralarda vuruşub. Məhz Şaban İsgəndərov kimi cəsur oğulların igidliyi sayəsində torpaqlarımız erməni işğalçılarından azad olundu. Şanlı Azərbaycan Ordusu tarixi Zəfər qazandı. İllərdən bəri ürəklərdə dolaşan qələbə arzusu çiçək açdı. Qürur dolu bu günü Azərbaycan xalqı böyük təntənə ilə qeyd etdi, sevinc-sevincə, fərəh-fərəhə qarışdı.

Keçmiş döyüşçü Şaban İsgəndərov bizimlə söhbət zamanı onu da dedi ki, Zəfər qoxulu həmin günləri xatırlayanda ürəyimiz sevinclə dolur.

Vətənimizin azadlığı uğrunda gedən döyüşlərdə göstərdikləri qəhrəmanlıqlar haqqında qısaca söhbət açdığımız Elşən Quluyev, Cahangir İbrahimov, Paşa Əliyev, Şahin Səfərov, Hacıxan Xəlilov, Musa Əliyev və Şaban İsgəndərov kimi cəsur oğullarla həmişə fəxr edib qürur duyacağıq. Min təəssüflər olsun ki, Birinci Qarabağ müharibəsində Gözbarax kəndindən üç nəfər - Nail Sərfəddin oğlu Musayev, İlham Mahmud oğlu Əhmədov, Arif İsmayıl oğlu Ramazanov üzərlərinə düşən döyüş tapşırıqlarını yerinə yetirərkən qəhrəmancasına şəhid olublar.



Qarabağın azadlığı uğrunda şəhid olan **İlham Mahmud oğlu Əhmədov** 1973-cü il oktyabrın 10-da Gözbarax kəndində dünyaya göz açmışdı. Ailədə dörd uşaq olmuşdular. İlham Əhmədov 1988-ci ildə kənddəki orta məktəbin 8-ci sinfini bitirdikdən sonra Qax rayonundakı peşə məktəbində oxuyub. 1989-1990-cı illərdə kolxozda işləyib. 1992-ci ildə həqiqi hərbi xidmətə çağırılıb. Vətən qarşısındakı övladlıq borcunu layiqincə yerinə yetirdikdən sonra doğmalarının yanına qayıdıb. Həmin günlər torpaqlarımızın azadlığı uğrunda qanlı döyüşlər gedirdi. İlham da təcrübəli əsgər kimi vuruşmaq üçün Ağdam rayonuna yollandı. Təəssüf ki, onun döyüş yolu uzun çəkmədi. Daim ön sıralarda vuruşan İlham Əhmədov 1992-ci ildə Qazançılar kəndi uğrunda gedən döyüşlərdə şəhid oldu. İndi onun ruhu şaddır. Çünki bir zamanlar uğrunda vuruşduğu Qazançılar kəndi erməni işğalçılarından azad olunub.



**Arif İsmayıl oğlu Ramazanov** 1 yanvar 1973-cü ildə Gözbarax kəndində anadan olmuşdu. 1992-ci ildə yaşıdları ilə bərabər ordu sıralarına çağırılmışdı. Bir müddət təlim keçib silahların sirlərinə, döyüş vərdişlərinə yiyələndikdən sonra onların bölüyünü Füzuli rayonunun Qaraxanbəyli kəndi istiqamətinə göndərmişdilər. Arif pulemyotçu idi. Bu silahın sirlərinə dərindən yiyələndiyinə görə həmişə hədəfi dəqiq vururdu. Güllələri erməni işğalçılarının üzərinə dolu kimi yağdırırdı. Qəsbkarlar onun atəşlərindən yayına bilmirdilər. 1992-ci il oktyabrın 8-də 19 yaşında erməni işğalçılarının növbəti hücumlarını dəf edərkən Arif Ramazanov son nəfəsinədək qəhrəmancasına vuruşaraq şəhid oldu.

**Nail Sərfəddin oğlu Musayev** 5 aprel 1971-ci ildə Gözbarax kəndində doğulmuşdu. Kənddəki orta məktəbdə 8-ci sinfi bitirdikdən sonra sürücülük məktəbində təhsilini davam etdirmişdi. 1989-cu ildə keçmiş ittifaq ordusunda xidmətə çağırılmışdı. Əsgəri borcunu Xabarovsk şəhərində yerinə yetirmişdi. 1991-ci ildə Vətənə dönəndə Qarabağ ətrafında qanlı hadisələr başlamışdı. Erməni qəsbkarları Azərbaycanın əbədi-əzəli torpaqlarını ələ keçirmək üçün bu gözəl diyarın kənd və şəhərlərinə hücum edir, evləri yandırır, sakinləri amansızcasına qətlə yetirirdilər. 1992-ci ildə vəziyyət daha da gərgin xarakter almışdı. Həmin günlər ürəyi Vətən eşqi ilə döyünən Nail Musayev könüllü olaraq döyüşlərə yollandı. Qubadlı rayonunda vuruşdu, döyüşdən-döyüşə təcrübə və səriştəsini artırdı. 1994-cü ildə Nail artıq Füzuli rayonunun Qaraxanbəyli kəndini işğalçılardan qoruyurdu. Onun son döyüşü də elə həmin il may ayının 2-də bu yaşayış məntəqəsi uğrunda olmuşdu. Özünə daha əlverişli döyüş mövqeyi seçmək istərkən düşmən onu snayperlə vurmuşdu.

Torpaqlarımızın azadlığı uğrunda gedən döyüşlərdə şəhid olan oğulların xatirəsi həmişə əziz tutulur, hörmət və ehtiramla xatırlanırlar. Çox yaxşı deyiblər ki, "Şəhidlər ölməz, Vətən bölünməz". Böyüməkdə olan nəsillər zaman-zaman igidliyi, qəhrəmanlığı bu cəsur oğullardan öyrənəcəklər, onları həmişə böyük ehtiramla xatırlayacaqlar.

***Vahid MƏHƏRRƏMOV,***
***"Azərbaycan"***

---

## Azərbaycan Ordusunda "İnsan Hüquqları Aylığı" çərçivəsində tədbirlər keçirilir



**Azərbaycan Ordusunun qoşun növləri, hərbi birlik və birləşmə, eləcə də xüsusi təyinatlı təhsil müəssisələrində "İnsan Hüquqları Aylığı" çərçivəsində silsilə tədbirlər keçirilir.**

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən bildirilib ki, tədbirlərdə hərbi qulluqçularla insan və vətəndaş hüquqları və azadlıqları barədə maarifləndirici söhbətlər aparılır, videoçarxlar nümayiş etdirilir.

Çıxışlar əsnasında qeyd olunur ki, 1998-ci il iyunun 18-də Ulu Öndər Heydər Əliyev tərəfindən ilk "İnsan hüquqlarının müdafiəsinə dair Dövlət Proqramı" təsdiq edilib. Bu mühüm təşəbbüsün davamı kimi Prezident İlham Əliyevin 18 iyun 2007-ci il iyunun 18-i tarixli sərəncamı ilə 18 iyun - insan hüquqlarının müdafiəsi sahəsində ölkəmizdə həyata keçirilən sistemli və ardıcıl tədbirlərin, beynəlxalq insan hüquqları standartlarına uyğun islahatların və bu sahədəki nailiyyətlərin təbliği baxımından xüsusi əhəmiyyət kəsb edən İnsan Hüquqları Günü kimi təsis olunub.

Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili (ombudsman) tərəfindən ənənəvi olaraq hər il bu əlamətdar gün ərəfəsində 18 may-18 iyun tarixləri ölkə ərazisində "İnsan Hüquqları Aylığı" elan edildiyi hərbi qulluqçuların diqqətinə çatdırılır.

Tədbirlər zamanı qanunun aliliyi, hüquq mədəniyyəti, hüquqi məsuliyyət və inklüziv cəmiyyət prinsipləri təbliğ olunub, şəxsi heyəti maraqlandıran suallar ətrafında geniş müzakirələr aparılıb.

---

## Ötən həftə 132 mina və 683 partlamamış hərbi sursat zərərsizləşdirilib




**Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi (ANAMA) işğaldan azad edilmiş ərazilərdə minatəmizləmə fəaliyyətinə cəlb olunmuş qurumlar tərəfindən mayın 19-dan mayın 25-dək icra edilən minatəmizləmə əməliyyatlarına dair məlumatı açıqlayıb.**

ANAMA-dan bildirilib ki, ötən həftə Tərtər, Ağdərə, Kəlbəcər, Ağdam, Xocalı, Xankəndi, Xocavənd, Laçın, Şuşa, Füzuli, Qubadlı, Cəbrayıl və Zəngilanda aparılmış minatəmizləmə əməliyyatları zamanı piyada əleyhinə 80, tank əleyhinə 52 mina və 683 partlamamış hərbi sursat aşkarlanaraq zərərsizləşdirilib.

Ötən həftə ərzində 1795, 7 hektar ərazi mina və partlamamış hərbi sursatdan təmizlənib.

---

## "Bilimdən Zəfərə" layihəsi 90-dan çox şəhid övladını əhatə edib




**Gəncə şəhərində "YAŞAT" Fondunun, "ASAN xidmət"in, "İnnovasiyalar Mərkəzi"nin, "Bilim Bakı" Mərkəzinin birgə təşkilatçılığı, Gəncə Şəhər İcra Hakimiyyəti, Göygöl Rayon İcra Hakimiyyəti, "ASAN Könüllüləri" Təşkilatının dəstəyi və "Ziraat Bank Azərbaycan" ASC-nin sponsorluğu ilə "Bilimdən Zəfərə" layihəsi həyata keçirilib.**

Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin İctimaiyyətlə əlaqələr şöbəsindən bildirilib ki, layihə Gəncə şəhəri, Göygöl, Daşkəsən və Samux rayonlarından olan 6-14 yaşlı 90-dan çox şəhid övladını əhatə edib.

İştirakçılara riyaziyyat, dizayn, təbiət elmləri, texnologiya, astronomiya sahəsində müxtəlif təlimlər, ustad dərsləri keçirilib, proseslərin vizual izahı üçün müşahidələr və təcrübələr aparılıb. Həmçinin maarifləndirici, intellektual oyunlar reallaşdırılıb, "Bilim şou" nümayiş etdirilib.

Məqsəd uşaqların elmə, innovasiyaya və texnologiyaya marağını artırmaq, elmi hadisələrin təcrübədə necə işlədiyini müşahidə etmələrinə imkan yaratmaqdır. Eləcə də onların istirahət günlərinin səmərəli təşkili və dostluq əlaqələrinin möhkəmləndirilməsi əsas hədəflərdəndir.

Sonda layihə iştirakçılarına sertifikat və hədiyyələr təqdim olunub.

"YAŞAT" Fondu tərəfindən mütəmadi olaraq maarifləndirici layihələrin icrası reallaşdırılır.

Layihənin media dəstəyi "ASAN TV" və "ASAN Radio"dur.

# REGİONLAR

## Cəlilabadda Uşaqların Beynəlxalq Müdafiəsi Günü qeyd edilmişdir



**Uşaqların Beynəlxalq Müdafiəsi Günü ilə bağlı Cəlilabad şəhərindəki Heydər Əliyev Mərkəzində tədbir keçirilib.**

Rayon icra hakimiyyətinin, Lənkəran-Astara Regional Təhsil İdarəsi rayon üzrə Təhsil sektorunun, YAP rayon təşkilatının, təhsil və ictimaiyyət nümayəndələrinin iştirak etdikləri tədbir uşaqların hazırladığı əl işlərindən ibarət sərgiyə baxışla başlamışdır. Regional Təhsil İdarəsi Cəlilabad rayonu üzrə təhsil sektorunun müdiri İ.Zeynalov çıxış edərək gələcəyimiz olan uşaqlara göstərilən yüksək dövlət qayğısından danışmışdır. Sonra RİH başçısının birinci müavini Q.Xudaverdiyev çıxış edərək uşaqların bayramını təbrik etmiş, onlara xoşbəxt gələcək arzulamışdır. Bildirmişdir ki, ölkəmizdə uşaqlara dövlət səviyyəsində böyük diqqət və qayğı göstərilir: "Azyaşlıların sosial müdafiəsinin gücləndirilməsi ilə bağlı bu gün həyata keçirilən siyasətin əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulub. Həmin siyasəti Prezident İlham Əliyev uğurla davam etdirir və bu sahədə ölkəmizdə müxtəlif layihələr həyata keçirilir. Gələcəyimiz olan uşaqların sosial müdafiəsinin gücləndirilməsi, onların sağlam və xoşbəxt böyüməsi üçün dövlətimiz tərəfindən bütün zəruri tədbirlər görülür".

Tədbir Heydər Əliyevin uşaqlar ilə görüşlərindən hazırlanmış videoçarxın nümayişi və uşaqların iştirakı ilə hazırlanmış mahnı və rəqs nömrələri, həmçinin uşaqlara hədiyyələrin təqdim edilməsi ilə yekunlaşmışdır.

## Havalar isinir, FHN-in qayğıları artır

**FHN-in Muğan Regional Mərkəzi su hövzələrində insanların təhlükəsizliyinin təmin edilməsi və çimərliklərdə təhlükəsizlik qaydalarına nəzarəti gücləndirmək üçün hər il dislokasiya ərazisinə daxil olan rayonların ərazisində, o cümlədən Kür, Araz çayları və Xəzər dənizinin sahil zolağında monitorinqlər keçirir.**

Monitorinqlərdə insanların həyatı və istirahəti üçün təhlükə yaradan amillər öyrənilərək rayon icra hakimiyyətlərində təşkil olunan müşavirələrdə yerli struktur bölmələrinin və rayon ictimaiyyətinin diqqətinə çatdırılır. Növbəti belə tədbir Neftçalada keçirilib.

"2025-ci il yay çimərlik mövsümündə su hövzələrində insanların təhlükəsizliyinin təmin olunması və çatışmazlıqların aşkar edilməsi" mövzusunda təşkil olunmuş tədbirdə FHN-in Muğan Regional Mərkəzin rəis müavini Orxan Bağırov, Kiçikhəcmli Gəmilərə Nəzarət və Sularda Xilasetmə Dövlət Xidmətinin Çimərliklərə Nəzarət Şöbəsinin rəisi Sübhan Nağıyev, rayon polis şöbəsinin rəis müavini Arif Salmanov, RİH-in məsul işçiləri, inzibati ərazi dairəsi üzrə nümayəndələr, bələdiyyə sədrləri və digər aidiyyəti təşkilatların əməkdaşları iştirak etmişlər.

"Su hövzələrində insanların təhlükəsizliyinin təmin olunmasında FHN-in Muğan Regional Mərkəzinin aidiyyəti qurumlarla birgə fəaliyyəti" mövsuzunda Orxan Bağırov, "Su hövzələrində insanların təhlükəsizliyinin təmin olunması" mövsuzunda Sübhan Nağıyev, "Yay mövsümü ərzində əhalinin istirahətinin təşkili məqsədilə çimərlik sahələrində görülən işlər" mövzusunda MKTİB-nin rəisi Mehdi Miriyev, "Çimərlik sahələrində əhaliyə tibbi xidmətin göstərilməsi" mövzusunda Təcili Tibbi Yardım Stansiyasının baş həkimi Bayram Bayramov, "Su hövzələrində suyun təmizlik vəziyyəti" mövzusunda rayon Gigiyena və Epidemologiya Mərkəzinin direktoru Xalid Məmmədov, "Çimərlikdə ictimai asayişin qorunmasının təşkil olunması və vəziyyəti" mövzusunda Arif Salmanov çıxış etmişlər. Çıxışlar ətrafında müzakirələr olmuş, suallar cavablandırılmışdır.

*S.CAVADOV, "Azərbaycan"*

# Diplom, yoxsa peşə

## Son vaxtlar Şirvan və ətraf rayonlardan olan gənclər ikinciyə daha çox maraq göstərirlər

**Xalqımız çox qədim zamanlardan peşə və sənətlərə böyük maraq göstərmişdir. Bu cəhət həm folklorumuzda, həm də klassiklərimizin fikirlərində də əksini tapmışdır. Deyirlər ki, ata-ananın borcu övladına tərbiyə və peşə verməkdir.**



Yaxşı peşə sahiblərinə el içində də hörmət var. Dahi Nizami Gəncəvinin kərpickəsən kişinin dilindən cavan oğlana və onun timsalında bütün gənclərə ünvanladığı kəlam da çox mənalıdır: "Onunçün öyrətdim ki, əlimi bu sənətə, Bir gün sənə əl açıb düşməyim xəcalətə".

Müstəqil dövlətimiz bərpa olunduqdan sonra təhsil, sənət, peşə sahəsindəki əvvəlki stereotiplər də dəyişdi. Hər kəs sərbəst şəkildə öz seçimini etmək imkanı əldə etdi. İndi xəstə ən savadlı həkimə üz tutur, valideyn övladının ən bilikli müəllimdən dərs almasını istəyir, şirkət, idarə, müəssisə rəhbərləri təcrübəli, savadlı kadrları işə götürür, irəli çəkir. Ev tikdirən, maşın, məişət avadanlığı təmir etdirən yaxşı ustaya müraciət edir. Yenə də klassiklərimizin misraları yada düşür: "Kamil bir palançı olarsa insan, Yaxşıdır yarımçıq papaqçılıqdan" (N.Gəncəvi). "Puç olub getsə də dövlətin zayə, Yenə sənətdir əldə sərmayə"(S.Ə. Şirvani). Yaxşı haldır ki, indi sovetlər zamanında olduğu kimi, nəyin bahasına olursa-olsun ali təhsil almaq yox, yaxşı ixtisas, peşə sahibi olmaq tendensiyası var. Nizami demişkən: "Elmin, mərifətin varsa, buyur, gəl. Yoxsa, bu aləmə olma bir əngəl".

Son illər Azərbaycanda peşə təhsili sisteminin təkmilləşdirilməsi, yenidən qurulması sahəsində mühüm tədbirlər həyata keçirilir. 13 sentyabr 2019-cu ildə Prezident İlham Əliyev Sənaye və İnnovasiyalar üzrə Bakı Dövlət Peşə və Təhsil Mərkəzinin açılışında bir sıra mühüm, proqram xarakterli fikirlər səsləndirmişdir. Demişdir ki, peşə təhsili ölkənin sosial-iqtisadi inkişafında mühüm rol oynayır və bu sahənin inkişafı dövlət siyasətinin prioritet istiqamətlərindən biridir. Bunun ardınca dövlət başçısı 2021-ci, 2023-cü, 2024-cü illərdə peşə sahəsi ilə bağlı sərəncamlar imzalamış, habelə 14 aprel 2025-ci ildə "Təhsil haqqında" və "Peşə təhsili haqqında" qanunlara dəyişiklikləri təsdiqləmişdir. Bu dəyişikliklərdə işğaldan azad edilmiş ərazilərimizdə peşə təhsilinə dövlət qayğısı məsələləri öz əksini tapmışdır.

Uzun illər 152 saylı Texniki Peşə Məktəbi kimi fəaliyyət göstərmiş Şirvan Peşə Liseyində 575 tələbə təhsil alır. Onların təlim-tərbiyəsi ilə 63 mühəndis, usta, müəllimdən ibarət pedaqoji kollektiv məşğul olur. 14 ixtisas üzrə 31 qrupda təhsil alan gənclər neft və qazçıxarma operatoru, neft-kimya sənayesi operatoru, elektrik-qaz qaynaqçısı, elektrik montyoru, radio-televiziya aparatlarının təmiri və xidməti radiomexaniki, dərzi, əməliyyatçı-mühasib, torna-frezer dəzgahı operatoru, xalçaçı, avtomobil təmiri çilingəri, təmirçi çilingər, veb-dizayner, qrafik dizayneri, bərbər, vizajist manikürçü peşələrinə yiyələnirlər. Liseyin tədris və təlim işləri üzrə direktor müavini Günel Əliyevanın dediklərindən məlum oldu ki, sözügedən müəssisəyə 9 və 11-ci sinifləri bitirən gənclər qəbul edilirlər. 9-cu sinifdən gələn gənclərə ixtisasla yanaşı, ümumtəhsil fənləri də tədris olunur və peşə təhsillərini bitirərkən onlara həm də tam orta təhsil haqqında attestat verilir. 11-ci sinifdən qəbul olunanlar üçün təhsil müddəti 1 ildir.

Gənc, innovativ bilik və idarəetmə bacarığına malik Emil Novruzovun rəhbərlik etdiyi liseydə tələbələrin nəzəri və təcrübi biliklərə yiyələnməsi üçün demək olar ki, bütün imkanlar mövcuddur. Qaynaq, dərzi və xalça emalatxanaları, fizika və kimya laboratoriyaları, zəngin kitabxana tələbələrin ixtiyarındadır. Burada təhsil dövlət vəsaiti və ödənişli qaydada həyata keçirilir. İxtisasdan asılı olaraq ödənişli oxuyan tələbələr il ərzində 500 - 550 manat təhsil pulu ödəyirlər.

Təqdirəlayiq haldır ki, liseyin rəhbərliyi hər bir məzunun təhsildənsonrakı taleyini - ilk növbədə işlə təmin olunmasını diqqət mərkəzində saxlayır. Dövlət Məşğulluq Mərkəzinin Şirvan-Salyan regional filialı ilə əmək bazarı və məşğulluq sahəsində aparılan əməkdaşlıq bu işdə müsbət nəticələr əldə edilməsinə kömək edir.

Tələbələrin dərsdənkənar vaxtlarının normal və səmərəli keçməsi üçün liseydə vaxtaşırı olaraq mədəni-kütləvi tədbirlər təşkil edilir. Təhsil ocağında "Koreya Mərkəzi" fəaliyyət göstərir. Eyni zamanda tərtib edilmiş qrafikə uyğun olaraq tələbələr Şirvan Şəhər Gənclər Evində, Olimpiya İdman Kompleksində təşkil olunmuş dərnəklərdə, idman seksiyalarında mənən zənginləşir, fiziki hazırlıqlarını artırırlar. Vaxtaşırı olaraq liseydə kitab müzakirələri, qabaqcıl əmək və sənət adamları ilə görüşlər keçirilir. Liseyin tələbələrindən söz düşmüşkən onu da bildirək ki, Birinci Qarabağ müharibəsi şəhidi Milli Qəhrəman Tahir Bağırov, Vətən müharibəsi şəhidləri Əli Mənəfli, Emil Hümbətov və Röyal Məmmədov bu təhsil ocağının məzunlarıdır.

Müasir dövrün reallığı ondan ibarətdir ki, yaxın gələcəkdə, bəlkə də 2-3 ildən sonra əksər istehsal və xidmət sahələrində ilk növbədə peşə təhsili olanları işə götürəcəklər. Buna görə də gənclər gələcək karyeralarını qurmaq üçün peşə öyrənməyə üstünlük verməlidirlər.

*Seyran CAVADOV, "Azərbaycan"*

## Şabran fermerləri torpağın dilini yaxşı bilirlər

**Son illər həyata keçirilən davamlı və sistemli aqrar islahatlar bir sıra istiqamətlərdə nəticəsiz qalmır. Bunu daxili bazarın yerli məhsullarla təminatında, ixrac həcminin artmasında, kənd yerlərində məşğulluğun və gəlir əldə etmək imkanlarının genişlənməsində görmək mümkündür.**

Ölkənin aqrar sahəsində gedən bu dinamik inkişafda Şabranın da payı var. Rayonda xüsusən bitkiçilik sahəsində yüksək göstəricilər əldə olunur. Bunun bir səbəbi də Şabrandakı istixanaların, gübrə satışı məntəqələrinin, tingçiliklə məşğul olan fermerlərin siyahılarının dəqiqləşdirilməsidir. Məlum olmuşdur ki, rayondakı 12 istixanadan 7-si fəaliyyət göstərir. Rayon ərazisində həmçinin 3 soyuducu anbar fəaliyyət göstərir ki, bu da fermerlərin bağlardan topladıqları məhsulun uzun müddət keyfiyyətlə saxlanılmasını təmin edir.

Əkinçiliklə məşğul olan "Şabran Aqrokompleks" MMC-nin mülkiyyətindəki torpaq sahəsində əkilmiş 394 hektar yazlıq qarğıdalı və 97 hektar təkrar qarğıdalı sahəsində pivot suvarma sistemi tətbiq edilir. Bu, məhsuldarlığı xeyli artırır. Ümumiyyətlə, rayon üzrə indiyəcən 14671,3 hektar sahədə şum işləri aparılmışdır ki, bu da ümumi proqnozun 86 faizi deməkdir. Ümumi səpin aparılan sahələrin həcmi isə 14574,5 hektardır. Bunun 8362,1 hektarı buğda, 6212,4 hektarı arpa əkini sahələridir. Səpin aparılmış 14574,5 hektar əraziyə 1675 ton sertifikatlı buğda, 1090 ton sertifikatlı arpa toxumu səpilmişdir. Gübrələmə mütəşəkkil aparılmışdır. Əkin mövsümü başlayandan əkilmiş payızlıq taxıl sahələrinə 1170 ton mürəkkəb gübrə verilmişdir.

Əldə etdiyimiz məlumata görə, ötən il sentyabr ayının 1-dən etibarən 2024-2025-ci təsərrüfat ili üçün payızlıq əkinlərin bəyan qəbuluna start verilmiş və cari mövsüm ərzində 1065 fermerin bəyanı qeydə alınmışdır. Bəyan prosesinin ötən illə müqayisədə azlığı səbəbindən ərazisi böyük olan inzibati ərazi dairələrində Şabran Dövlət Aqrar İnkişaf Mərkəzi (DAİM) əməkdaşları tərəfindən səyyar bəyan qəbulu keçirilmişdir. Bu da fermerlərin taxıl sahələrini bəyan etməyə marağını artırmışdır. Eyni zamanda idarənin xidmət mərkəzində hər həftənin şənbə günü növbətçilik əsasında fermerlərə bəyan xidməti



göstərilir. Bəyan prosesi ilə bağlı reqlamentdə olan dəyişikliklər və Subsidiya Şurasının qərarında olan dəyişikliklər ümumiləşdirilərək vətəndaş qəbulunda işçilərin və digər əməkdaşların nəzərinə çatdırılmışdır. Paralel olaraq 10 mövzunu əhatə edən sorğu blankları hər ayın sonu DAİM işçiləri tərəfindən fermerlərlə sorğular keçirilərək doldurulmuş və mövzu çərçivəsində həftəlik məlumatlar toplanaraq aidiyyəti üzrə göndərilmişdir. Eyni zamanda meyvə-tərəvəzlərin sahə qiymətləri öyrənilərək müvafiq portala yerləşdirilmişdir.

Rayonun kənd təsərrüfatında ziyanvericilərə qarşı mübarizə tədbirləri də yaddan çıxmır. Belə ki, sözügedən dövrdə çəyirtkəkimilərin sirayətləndiyi əraziləri müəyyən etmək məqsədilə 757 hektarda monitorinqlər aparılmış, 173 hektar sahədə sirayətlənmə müşahidə olunmuş və 100 hektar sahədə dövlət vəsaiti hesabına kimyəvi mübarizə tədbirləri görülmüşdür. 215,58 hektar yonca sahəsində keçirilən müşahidələr zamanı isə 215,58 hektar sahədə fitonomusla sirayətlənmə müşahidə olunmuş və həmin sahələrin 192 hektarında kimyəvi, 23,58 hektarında mexaniki mübarizə tədbirləri aparılmışdır. Kartof, meyvə və tərəvəz sahələrində də yoxlamalar zamanı zərərvericilərlə sirayətlənmə müşahidə edilmiş və onlara qarşı tədbirlər görülmüşdür. Meyvə ilə bağlı onu da bildirək ki, havaların yağışlı keçməsi bu il bağlarda məhsulun yetişməsində bir qədər gecikməyə səbəb olub. Bu isə təbii ki, qiymətlərə də təsirsiz ötüşmür.

*Akif ƏLİYEV, "Azərbaycan"*

## Zamanı az, zəhməti çox, qazancı yüksək

**Ölkəmizdə kənd təsərrüfatının digər sahələri kimi, baramaçılığın inkişafına da xüsusi diqqət var. Son illər bu sahədə görülən işlər isə baramaçılığa marağı xeyli artırıb.**

Söz yox ki, bu uğurda ölkədə baramaçılığın inkişafına dair 2018-2025-ci illəri əhatə edən dövlət proqramı böyük əhəmiyyət daşıyır. Proqramın icrası çərçivəsində baramaçılığın inkişafına dövlət dəstəyi güclənmiş, ixrac potensialı və kənd yerlərində bu sahənin hesabına əhalinin gəlirləri artmışdır.

Tovuzda da baramaçılığa böyük maraq göstərilir. Son 8 ildə bu gəlirli sahə ilə məşğul olanların sayında xeyli artım olmuşdur. Təkcə keçən il 61 nəfər kümçü 153 qutu tut ipəkqurdu götürərək 4633 kiloqramdan çox yaş barama təhvil vermişdir. Lakin Tovuz baramaçıları bu rəqəmi son hədd hesab etmirlər. 61 kümçü təhvil aldıqları tut ipəkqurdundan daha çox məhsul götürməyi qarşılarına məqsəd qoymuşlar. Bunun üçün rayonda hər cür imkan və şərait olduğunu bildirən rayon icra hakimiyyəti başçısının müavini Niftalı Qasımov deyir ki, Tovuz kümçüləri baramaqurdunun yemləndirilməsində heç bir problemlə üzləşmirlər. Bunun üçün rayonda istənilən qədər tut bağı salınmışdır.

Rayonda nümunəvi kümçülər çoxdur. Onlardan biri də Xılxına kəndinin sakini Bəkir Seyidovdur. O, hər il rayonda ən çox tut ipəkqurdu götürüb bəsləyən kümçülərdəndir. Keçən il 3 qutu ipəkqurdu bəsləyərək 120 kiloqram yaş barama təhvil verən Bəkir ənənəsinə sadiq qalaraq bu il də həmin həcmdə tut ipəkqurdu götürmüşdür. Muğanlı kənd sakini Novruz Musayev də 3 qutu ipəkqurdu götürmüşdür. Hazırda onun bəslədiyi ipəkqurdularında elə bir problem yaşanmır. Çünki bu sahədə zəngin təcrübə toplayan Novruz bu il də baramanı bəsləmək üçün həyətində lazımi şərait yaratmışdır.

Onu da qeyd edək ki, rayonda baramaçılığın inkişafı üçün kümçülərə hər cür dəstək göstərilir. Rayonun əlaqədar qurumlarının nümayəndələri tez-tez kümçülərin yanında olur, onların işləri ilə maraqlanırlar. Elə bu günlər rayon rəhbərliyi Cəlilli və Aşağı Quşçu kəndlərində olan kümxanalarda barama yetişdirilməsinin



vəziyyəti ilə tanış olub. Kümçülər RİH başçısına məlumat veriblər ki, ipəkqurdu toxumunu yetişdirmək üçün əvvəlcədən bütün hazırlıq işlərini vaxtında görmüş, ipəkqurdu saxlanacaq otaqlarda lazımi şərait yaratmışlar. Bildirilmişdir ki, hazırda ipəkqurdu 4-cü inkişaf mərhələsindədir. Kümçülər bu il də bol məhsul götürəcəklərinə əmindirlər.

*Sabir ƏLİYEV, "Azərbaycan"*

## Göygöldə yeni müəssisə fəaliyyətə başlayıb

**"Osmanlı Taxıl" MMC adlanan yeni müəssisə Göygöl rayonunun Quşqara kəndində yerləşir.**



MMC-nin təsisçisi Sənan İsmayılov bildirmişdir ki, müəssisə tam müasir texnologiya ilə təchiz edilmişdir. Əsas xammal tədarükü Rusiya Federasiyası və Qazaxıstan Respublikasıdır.

Müəssisədə bir neçə növ məhsul istehsal edilməsi nəzərdə tutulur. Burada əla və birinci növ un, həmçinin kəpək istehsal olunacaq. Günlük istehsal gücü 60 ton olan müəssisədə 30 nəfər işçi çalışacaq.

*"Azərbaycan"*

# Qısa vaxtda uca zirvələr fəth edən elm və təhsil ocağı

## Naxçıvan Müəllimlər İnstitutunun 25 yaşı tamam olur



**2025-ci il Naxçıvan Müəllimlər İnstitutu üçün ən əlamətdar illərdən biridir. Bu il institutumuzun fəaliyyətə başlamasının 25 ili tamam olur. Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə yaradılan bu elm ocağında indiyəcən minlərlə gənc təhsil alıb, yüksəkixtisaslı kadr kimi yetişib.**

Naxçıvanda ali təhsilin inkişafı, dünya ali təhsil sisteminə inteqrasiyası həmişə Ulu Öndərin diqqətində olmuş, məhz müdrik və uzaqgörən liderimizin qayğısı nəticəsində Naxçıvan Dövlət Universiteti böyük inkişaf yolu keçmiş, Naxçıvan Müəllimlər İnstitutu və elmi fəaliyyətin məbədi, aparıcı sahəsi olan AMEA-nın Naxçıvan Bölməsi yaradılmışdır. Ölkəmiz üçün yüksək potensiala, müasir intellektə, təfəkkürə malik, rəqabət qabiliyyətli kadrlar, ixtisaslı müəllimlər hazırlayan Naxçıvan Müəllimlər İnstitutunun əsası da Heydər Əliyevin prezidentliyi dövründə - 13 iyun 2000-ci ildə qoyulmuşdur. Nazirlər Kabinetinin 26 avqust 2003-cü il tarixli qərarı ilə müstəqil ali məktəb statusu alan institut qısa zamanda böyük inkişaf yolu keçmiş, məzunları ilə ölkəmizin hər yerində tanınmışdır.

Ulu Öndərin layiqli varisi, siyasi kursunun davamçısı Müzəffər Ali Baş Komandan İlham Əliyevin təhsil sahəsinə göstərdiyi hərtərəfli, ardıcıl qayğıdan Naxçıvan Müəllimlər İnstitutuna da böyük pay düşmüşdür. Belə ki, yeni, tam təmir edilmiş müasir şəraitli, hər cür müasir maddi-texniki baza ilə təchiz olunmuş institut binası 2018-ci ilin may ayında istifadəyə verilmişdir. Açılış mərasimində dövlətimizin başçısı institutun professor-müəllim heyəti ilə yaxından görüşmüş, səmimi söhbət etmiş və özünün təbrik və tövsiyələrini çatdırmışdır: "İlk növbədə, sizi Müəllimlər İnstitutunun yeni binasının açılışı münasibətilə təbrik etmək istəyirəm. Gözəl binadır, çox gözəl şərait yaradılıb. Memarlıq baxımından da Naxçıvan şəhərini daha da gözəlləşdirir. …Ulu Öndər Azərbaycan Prezidenti kimi həmişə Naxçıvana diqqət, qayğı göstərirdi. Naxçıvana tez-tez səfərlər edirdi… Mən də Ulu Öndərin siyasi xəttinə sadiq qalaraq bütün sahələrdə, o cümlədən Naxçıvana qayğı, diqqət məsələlərində o yolu davam etdirirəm".

Hərtərəfli dövlət qayğısı ilə əhatə olunmuş institutumuzda 23 adi və 20 ixtisaslaşdırılmış auditoriya, o cümlədən 4 kompüter otağı və 16 elektron lövhəli auditoriya mövcuddur. Həmçinin müəssisəmizdə ənənəvi və elektron oxu zalları olan kitabxana, 15 fənn kabinəsi, müxtəlif ixtisaslar üçün emalatxanalar, zəruri inventarlarla təchiz edilmiş tədris fondları professor-müəllim və tələbə kontingentinin ixtiyarına verilmişdir. İnstitutun binasında müəllim və tələbələr üçün ayrıca ictimai iaşə və tibbi xidmət otaqları da yaradılmışdır. Ali təhsil ocağı üçün yenidən yaradılan, müasir avadanlıqlarla təchiz olunan "Məktəb" nəşriyyatının mətbəəsi də fəaliyyət göstərir. Onu da qeyd edək ki, ali təhsil sahəsində ilk dəfə bu institutda professor-müəllim heyəti üçün 5 fərdi məsləhət otağı və "Psixoloji xidmət" laboratoriyası yaradılmışdır. Binada 132 və 20 yerlik iclas zalları da var. Habelə ümumilikdə 158 dəst fərdi kompüter, 16 dəst notbuk və proyektor tələbə və müəllim kontingentinin ixtiyarına verilmişdir. Naxçıvan Müəllimlər İnstitutunda Tələbə Həmkarlar İttifaqı Komitəsi, Tələbə Gənclər Təşkilatı, Tələbə Elmi Cəmiyyəti, Tələbə Teatr Studiyası, idman klubu və elmi dərnəklər tələbələrin asudə vaxtlarının səmərəli təşkilinə, onların sosial həyatının zənginləşdirilməsinə xidmət edir.

Bundan başqa, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 14 avqust 2019-cu il tarixli qərarı ilə "Doktoranturalar yaradılan Azərbaycan Respublikasının ali təhsil müəssisələrinin elmi müəssisə və təşkilatların Siyahısı"nın "Azərbaycan Respublikasının Təhsil Nazirliyi üzrə" bölməsində edilmiş dəyişikliklərə əsasən, Naxçıvan Müəllimlər İnstitutunda fəlsəfə doktoru hazırlığı üzrə Dissertasiya Şurası yaradılmışdır. Bu günə kimi Dissertasiya Şurasında onlarla doktorant və dissertanta elmi-tədqiqatçılıq qabiliyyətlərini inkişaf etdirmək və təkmilləşdirmək üçün lazımi şərait yaradılmış, onlar öz dissertasiya işlərini uğurla müdafiə edərək müxtəlif elmi dərəcə və elmi adlara layiq görülmüşlər.

Naxçıvan Müəllimlər İnstitutunda bakalavriat və magistratura səviyyələri üzrə kadr hazırlığı aparılır. Bakalavriat səviyyəsində müəyyən ixtisaslar üzrə (Azərbaycan dili və ədəbiyyatı müəllimliyi, ibtidai sinif müəllimliyi, tarix müəllimliyi, məktəbəqədər təhsil, xarici dil müəllimliyi (ingilis dili), riyaziyyat və informatika müəllimliyi, təsviri incəsənət müəllimliyi, təhsildə sosial-psixoloji xidmət, kitabxanaçılıq və informasiya fəaliyyəti, korreksiyaedici təlim, texnologiya müəllimliyi), magistratura səviyyəsində isə 4 ixtisas üzrə (pedaqogika nəzəriyyəsi və tarixi, təhsildə sosial-psixoloji xidmət, riyaziyyat müəllimliyi, təsviri incəsənət müəllimliyi) və ayrı-ayrı ixtisasların təhsil proqramları əsasında ali təhsilli mütəxəssislər, peşəkar müəllimlər, doktorantura təhsil səviyyəsində isə yüksəkixtisaslı elmi və elmi-pedaqoji kadrlar hazırlanır.

İnstitutun təşkilati strukturunda 2 fakültə - Pedaqoji, Təbiət və incəsənət fakültəsi, Pedaqoji fakültənin nəzdində 5 kafedra (Azərbaycan dili və ədəbiyyat, Pedaqogika və psixologiya, Riyaziyyat və tədris metodikası, Xarici dillər və tədrisi metodikası, Humanitar və ictimai fənlər kafedrası), Təbiət və incəsənət fakültəsinin nəzdində isə 3 kafedra (Ali ryaziyyat və informatika, Ümumi fənlər, İncəsənət kafedraları) fəaliyyət göstərir.

Naxçıvan Müəllimlər İnstitutu yarandığı ildən Pedaqoji fakültə "İbtidai təhsilin pedaqogikası və metodikası" ixtisası üzrə 21 tələbə kontingenti ilə fəaliyyətə başlamışdır. Hazırda fakültədə 730 tələbə təhsil alır. Ümumilikdə institutda 1000-dən çox tələbə təhsil alır ki, onların təlim-tərbiyəsi ilə 100-dən çox professor-müəllim heyəti məşğul olur. İnstitutda elmi-pedaqoji fəaliyyətlə məşğul olan 105 nəfər müəllimdən 4 nəfəri elmlər doktoru, o cümlədən 3 nəfəri professor, 15 nəfəri fəlsəfə doktoru, o cümlədən 26 nəfəri dosent, 21 nəfəri isə baş müəllimdir.

Mübaliğəsiz demək olar ki, son illərdə Naxçıvan Müəllimlər İnstitutu tədrisin keyfiyyətinə görə yeni inkişaf mərhələsinə qədəm qoyub. Bu, ali təhsil müəssisəsində daha çox həm maddi-texniki bazanın, həm tədrisin, həm sosial həyatın, həm də elmi fəaliyyətin inkişafında özünü göstərir. Bu gün professor-müəllim və tədrisə köməkçi heyətin gənc kadrlarla əvəzlənməsi dövlət siyasətinin əsas istiqamətlərindən biridir. Məhz bunun nəticəsində institutun məzunları davamlı olaraq doğma təhsil ocağında işlə təmin olunur, onlara daim lazımi qayğı göstərilir.

İnstitutda semestr imtahanları yazılı formada keçirilir ki, bu da, sözün əsl mənasında, təhsilin keyfiyyətinin yüksəlməsinə, tələbələrin məsuliyyətinin artmasına və özünüdərkin, özünütəhlilin formalaşmasına müsbət təsir göstərir. Təhsil ocağında imtahan sisteminin şəffaflaşdırılması, obyektiv təşkili, tələbə-müəllim münasibətlərinin sadələşdirilməsi, humanistləşdirilməsi və demokratik şəraitdə qurulması inkişafa təsir edən və töhfə verən əsas amillərdən sayılır.

Adlı təqaüdlərin təsis edilməsi, tələbələrin digər həvəsləndirici tədbirlərə cəlb olunması, institut və fakültə rəhbərlərinin tələbələrlə müntəzəm əlaqə saxlaması, görüşlər keçirməsi təhsilalanlarda tədrisə olan marağı daha da artırır, onları ixtisaslarına uyğun mükəmməl təhsil almağa və mənimsədikləri bilik və bacarıqları möhkəmləndirməyə sövq edir. İnstitutda tələbələrin maraq dairəsinə uyğun fəaliyyətlərin genişləndirilməsi, yaradıcılıq qabiliyyətlərinin və məlumat dairələrinin inkişaf etdirilməsi, onların sosial və digər problemlərinin həllinə dəstək və qayğının göstərilməsi, bir sözlə, səmimi təhsil mühitinin yaradılması gənclərimiz üçün institutu doğma, əziz məkan kimi cəlb edir, abituriyentləri buranı seçməyə, burada təhsil almağa, təhsilini davam etdirməyə təşviq edir.

Naxçıvan Müəllimlər İnstitutu həm xaricdə, həm də daxildə fəaliyyət göstərən qabaqcıl təhsil müəssisələri ilə daim əlaqələri genişləndirir. "Azərbaycan Respublikasının beynəlxalq müqavilələrinin bağlanması, icrası və ləğv edilməsi qaydaları haqqında" Azərbaycan Respublikasının Qanununa və özünün fəaliyyət xüsusiyyətlərinə əsasən, xarici ölkələrin ali təhsil müəssisələri, təşkilatları ilə, beynəlxalq qurum və fondlarla əlaqə yaradır, əməkdaşlıq haqqında müqavilələr bağlayır, qarşılıqlı əməkdaşlıq həyata keçirir.

Həmçinin institut əməkdaşları müxtəlif ixtisaslar üçün dərslik, dərs vəsaitləri, tədris və tədris-metodik ədəbiyyatlar hazırlayır, onları həm xarici, həm də daxili indeksli jurnallarda nəşr etdirirlər. İnstitutun "Elmi əsərlər" jurnalı Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının reyestrinə daxil edilmiş və beynəlxaq kodla ildə dörd dəfə nəşr olunur.

Hər tədris ilində təsdiq edilən iş planı və qrafik əsasında fəaliyyət istiqamətlərinə uyğun məsələlərlə bağlı elmi-praktik konfranslar (beynəlxalq və respublika), "Heydər Əliyev dərsləri", müşavirələr, elmi-nəzəri seminarlar, müsabiqələr, bilik yarışları keçirilir, dinləyicilər daim Heydər Əliyevin həyat və fəaliyyəti haqqında məlumatlandırılırlar. Ulu Öndərin irsində Vətən sevgisi, azərbaycançılıq məfkurəsi, dil, milli mədəniyyət sevgisi, milli-mənəvi dəyərlərə bağlılıq, xalqına, dövlətinə sonsuz sədaqət hissi mühüm yer tutur. Bu irsin qorunması və gələcək nəsillərə çatdırılması, hər bir gəncdə azərbaycançılıq hissinin formalaşdırılması ən vacib vəzifələrdən sayılır.

İkinci Qarabağ müharibəsi göstərdi ki, məktəblərimizdə təhsil alan gənc nəslin azərbaycançılıq ideologiyası əsasında tərbiyə edilməsi Azərbaycan müəllimlərinin və həmin müəllimləri hazırlayan ali təhsil müəssisələrinin fəaliyyətinin əsasını təşkil edir. Bu gün əminliklə deyə bilərik ki, Azərbaycan məktəbi, Azərbaycan müəllimi və onların yetişdirdiyi Azərbaycan gəncliyi bu imtahandan üzüağ, alnıaçıq çıxdı. Məhz bu məktəblərdə müəllimlərdən əxlaq, mənəviyyat, düşmənə nifrət dərsi alan, şəhidliyin fəlsəfi anlamını dərk edən gənclər öz qanları, canları bahasına təcavüzkarlara hədlərini bildirdilər, onları təslim aktını imzalamağa məcbur etdilər.

30 ildən artıq düşmən tapdağı altında inləyən torpaqlarımızın Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qaytarılması tariximizin ən parlaq səhifəsinə çevrildi. Ulu Öndər Heydər Əliyev böyük uzaqgörənliklə deyirdi: "Mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə işləri İlham Əliyev başa çatdıra biləcək". Müzəffər Ali Baş Komandan İlham Əliyev öz siyasi gücü, məntiqi düşüncəsi, milli iradəsi hesabına xalqımızın dəstəyi və yenilməz ordumuzun rəşadəti və şücaəti sayəsində Azərbaycanın ərazi bütövlüyünü təmin etdi, torpaqlarımızı düşmən işğalından azad etdi.

Vətən müharibəsində misilsiz qəhrəmanlıq göstərən, adlarını qızıl hərflərlə tarixə yazan əsgər və zabitlərimiz sırasında Naxçıvan Müəllimlər İnstitutunun tələbə və məzunları da var. 44 günlük savaşda torpaqlarımızın mənfur düşməndən azad olunmasında canlarından keçmiş, şəhidlik zirvəsinə yüksələn qəhrəman oğullardan 2 nəfəri - Kamran Hüseynov və Ruhid İslamlı məhz Naxçıvan Müəllimlər İnstitutunu bitirmişlər. Onların əziz xatirəsi qəlblərdə yaşayacaq, şücaəti, rəşadəti tələbə-gənclərə örnək olacaq.

Naxçıvan Müəllimlər İnstitutunun tarixi həm də onu yaradanların, yaşadanların, burada təhsil alan, iş təcrübəsi qazanan tələbələrin, magistrantların və doktorantların, şüurlu həyatını elm və təhsilə həsr etmiş professor-müəllimlərin tərcümeyi-halıdır. İnstitutun tarixinə düşmüş, onun təşkilində, inkişafında və idarə edilməsində xidmətləri olan 4 rektor milli təhsil quruculuğumuzun fədaisidir.

İnstitut əməkdaşlarının səmərəli fəaliyyəti dövlətimiz tərəfindən daim yüksək qiymətləndirilmişdir. Hazırda professor-müəllim heyətindən 3 nəfəri Əməkdar müəllim, 5 nəfəri Naxçıvan Muxtar Respublikasının Əməkdar müəllimi, 2 nəfəri Naxçıvan Muxtar Respublikasının Əməkdar mədəniyyət işçisi, 1 nəfəri isə Naxçıvan Muxtar Respublikasının Əməkdar rəssamıdır, 2 nəfəri "Tərəqqi" medalına layiq görülmüş, 2 nəfəri isə Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə deputat seçilmişdir.

Bir sözlə, institutumuz dövlətimizin ali təhsil müəssisələri qarşısında qoyduğu vəzifələri və özünün qəbul etdiyi bütün öhdəlikləri layiqincə yerinə yetirir.

***Samirə HƏSƏNOVA,***
***filologiya üzrə fəlsəfə doktoru, dosent***

# *Nexemiya Şirin MİXAELİ:* "Azərbaycanın dövlətçilik rəmzi olan Müstəqillik Günü xalqımızın qürur mənbəyidir"

**"Bu günlərdə ana Vətənimiz, doğma Azərbaycanın dövlətçilik rəmzi olan Müstəqillik Gününü qeyd etdik. Azərbaycan xalqı əsrlər boyu böyük çətinliklərdən və məşəqqətlərdən keçərək, 1918-ci il mayın 28-də Məmməd Əmin Rəsulzadənin rəhbərliyi ilə İstiqlal Bəyannaməsini qəbul edərək azadlığına qovuşdu və Şərqdə ilk dəfə parlamentli, demokratik respublika qurdu".**

Bu fikirləri AZƏRTAC-a açıqlamasında "İsraildə Azərbaycan Evi" diaspor təşkilatının direktoru, İsraildəki Dağ Yəhudilərinin Koordinasiya Şurasının rəhbəri, Qafqaz Yəhudilərinin Ümumi İsrail Birliyinin sədrinin birinci müavini və Akko şəhəri Dağ Yəhudiləri İcmasının sədri Nexemiya Şirin Mixaeli deyib.

O bildirib ki, Azərbaycan Xalq Cümhuriyyəti qadınlara seçki hüququ tanıyan ilk müsəlman ölkəsi kimi dünya demokratiya tarixində mühüm yer tutur: "Cümhuriyyətin yaranması xalqımızın dövlət qurmaq əzmini sübut etdi. Bugünkü müstəqil Azərbaycan dövləti də məhz həmin cümhuriyyətin varisidir. Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev həmin ideyaların davamçısı kimi müstəqil və güclü Azərbaycan dövlətinin bünövrəsini möhkəmləndirib. Bu gün



Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan daha da inkişaf edərək bölgədə və dünyada söz sahibi olan bir dövlətə çevrilib".

Diaspor rəhbəri vurğulayıb ki, Azərbaycan tarix boyu müxtəlif xalqların, o cümlədən yəhudilərin mehriban və təhlükəsiz şəraitdə yaşadığı və azad fəaliyyət göstərdiyi ölkə olub.

"Yəhudilər hər zaman Azərbaycanda özlərini azad və təhlükəsiz hiss ediblər. 1918-ci ildə yaradılan Azərbaycan Xalq Cümhuriyyətinin rəhbərləri sırasında da yəhudiəsilli ziyalılar olub. Məşhur alim və cümhuriyyətin səhiyyə naziri Yevsei Gindes bunun bariz nümunəsidir. Bu, Azərbaycan və yəhudi xalqları arasında tarixi dostluq və qardaşlıq münasibətlərinin göstəricisidir", - deyə Nexemiya Şirin Mixaeli vurğulayıb.

O, Müstəqillik Günü münasibətilə Azərbaycan xalqını səmimi-qəlbdən təbrik edib, ölkəmizə daimi yüksəliş, firavanlıq və əmin-amanlıq arzulayıb.

# Vətənpərvər gəncliyimiz dünyada Azərbaycanın səsinə çevrilib

**Azərbaycanda həyata keçirilən uğurlu dövlət gənclər siyasətinin, gənclərimizə göstərilən yüksək qayğı və diqqətin nəticəsidir ki, onlar ölkəmizdə ictimai həyatın bütün - istər siyasi, iqtisadi, humanitar, sosial, istərsə də hərbi sahə olsun, öndərlikləri ilə seçilirlər.**






Müasir, müstəqil Azərbaycanın dinamik inkişafında mühüm rol oynayan gənclərin potensiallarından səmərəli istifadə sayəsində respublikamız hərtərəfli və mühüm nailiyyətlər qazanır. 44 günlük Vətən müharibəsində gənclərimizin Müzəffər Ali Baş Komandan İlham Əliyevin ətrafında bir yumruq kimi birləşərək həm hərb meydanında, həm də informasiya müharibəsində igidliklə savaşaraq Zəfər tarixi yazmalarını dünya heyrətlə izlədi. Bilikli, istedadlı gənclərimiz hər zaman ölkəmizi beynəlxalq arenalarda qazandıqları parlaq qələbələri ilə sevindirir, eyni zamanda Azərbaycanı müxtəlif xarici platformalarda çox böyük uğurla təmsil edirlər, respublikamızın dünyada təbliği istiqamətində əhəmiyyətli işlər gerçəkləşdirirlər.

Belə fəal gənclərimizdən biri də Azərbaycan Tələbə Gənclər Təşkilatları İttifaqının (ATGTİ) idarə heyətinin üzvü, Azərbaycan Dillər Universitetinin Tələbə Gənclər Təşkilatının sədri Nicat Əliyevdir.

### Gənclərimizin Tacikistanda təqdimatı böyük marağa səbəb olub

Gənc fəal Nicat Əliyev ölkəmizi xarici ölkələrdə dəfələrlə layiqincə təmsil edib. 2024-cü il 26 noyabr 1 dekabr tarixlərində Rusiya Federasiyasının Sankt-Peterburq şəhərində keçirilən Beynəlxalq Tarix Olimpiadasında qalib gələn gənclərdən biri olub.

2024-cü il 1-7 mart tarixlərində Rusiyanın "Sirius" Federal Ərazisində (Soçi yaxınlığında) Ümumdünya Gənclər Festivalında Azərbaycanı layiqincə təmsil edib. O, fərqli ölkələrdən olan gənclərin bir araya gəldiyi "Dünya Gənclər Festivalı 2024"-də müxtəlif yüksəksəviyyəli silsilə tədbirlərdə fəal iştirak edib, ölkəmizlə bağlı həqiqətlərin dünyanın dörd bir tərəfindən gəlmiş gənclər vasitəsilə beynəlxalq arenaya çatdırılması üçün fəallıq göstərib.

O, bu günlərdə Azərbaycanı növbəti dəfə xarici ölkədə müvəffəqiyyətlə təmsil edib, Tacikistanda "Qələbənin Varisləri" Beynəlxalq Elmi Konfransında iştirak edib. Konfrans 18-25 may tarixlərində Tacikistanın Təhsil Nazirliyi, "Gənclər Evi" və IFESCCO-nun birgə təşkilatçılığı ilə keçirilib. Tədbirdə Nicat Əliyevlə yanaşı, gənc fəallar Yusif Həsənov, Ruslan Sleptsov, Nigar Hüseynova, Nəzrin Süleymanova, Afaq Məmmədova iştirak ediblər.

Nicat Əliyev məlumat verdi ki, Konfransda MDB-yə üzv doqquz dövlətin - Azərbaycandan, Belarusdan, Rusiyadan, Tacikistandan, Özbəkistandan, Ermənistandan, Türkmənistandan, Qazaxıstandan, Qırğızıstandan olan fəal gənclər iştirak ediblər: "Konfransda gənclərə həm ölkələrin öz mədəniyyətlərini, həm də İkinci Dünya müharibəsində qazanılan qələbəyə verdikləri töhfələrini təqdim etmələri üçün şərait yaratmışdılar. "Azərbaycan Mədəniyyət Günü" konfransın ilk günündə, açılış tədbiri baş tutduqdan sonra keçirildi. Burada ölkəmizin milli mətbəxini, musiqisini və rəqslərini nümayiş etdirdik".

Onun sözlərinə görə, Azərbaycan milli mədəniyyətinin təqdimatı digər ölkələrin təmsilçiləri tərəfindən böyük marağa səbəb olub: "Hətta bəzi ölkələrlə oxşarlıq təşkil edən musiqilər, yaxud xörəklər olsun, Azərbaycan özünəməxsusluğu, fərqliliyi ilə dərhal diqqət çəkirdi. Nümayəndə heyətimiz tərəfindən ölkəmiz haqqında təşkil edilən müsabiqələrdə aktivlik göstərən xarici ölkələrdən olan iştirakçılar hədiyyələr qazandılar. Qalibləri mədəni irsimizi əks etdirən kiçik xatirə hədiyyələri ilə mükafatlandırırdıq ki, bütün bunlar ölkəmizin təbliğatı qayəsini daşıyırdı".

### Azərbaycan töhfəsi

"Qələbənin varisləri" beynəlxalq elmi konfransın çərçivəsində keçirilən rəsmi tədbirdə isə hər bir ölkənin ayrılıqda İkinci Dünya müharibəsindəki rolundan bəhs olunub. Nicat Əliyev hazırladığı videoçarx vasitəsilə Azərbaycanın İkinci Dünya müharibəsində həm ön, həm arxa cəbhədə göstərdiyi misilsiz qəhrəmanlıqlar barədə ətraflı məlumat verib: "İkinci Dünya müharibəsində 600 min oğul və qızını ön cəbhəyə yola salan Azərbaycanın diviziyaları Qafqazdan Berlinədək qəhrəmanlıqlarla dolu döyüş yolu keçiblər. Eyni zamanda yüzlərlə həmyerlimiz partizan dəstələrinin tərkibində faşizmə qarşı uğurlu mübarizə aparıb. İki dəfə Sovet İttifaqı Qəhrəmanı Həzi Aslanov, Sovet İttifaqı Qəhrəmanı Mehdi Hüseynzadə və digər qəhrəmanlarımız adlarını tarixə qızıl hərflərlə həkk ediblər. İkinci Dünya müharibəsində Azərbaycan xalqı həm də arxa cəbhədə gecə-gündüz çalışaraq düşmənlə mübarizəyə mühüm töhfələr verib. Bu qələbədə Azərbaycan nefti həlledici rol oynayıb və həmin vaxt respublikamız sovet ordusu üçün yanacaq-sürtkü materiallarının əsas tədarükçüsü olub. Mühərrik yağlarının 90 faizi, benzinin 80 faizi, neftin isə 70 faizi Azərbaycan tərəfindən təmin edilib. Tam əminliklə deyə bilərik ki, əgər Azərbaycan nefti olmasaydı, müharibənin necə nəticələnəcəyi, SSR-nin qalib gəlməsi sual altına düşə bilərdi. Bütün bu gerçəkləri ətraflı şəkildə konfrans iştirakçılarının da diqqətinə çatdırdım".

Nicat Əliyev söylədi ki, Tacikistanda keçirilən adıçəkilən konfrans həm də o baxımdan əhəmiyyətli olub ki, onlar burada müxtəlif ölkələrdən gələn gənclərlə əlaqələr qurublar, gələcəkdə birgə tədbirlərin, layihələrin həyata keçirilməsi üçün fikir mübadiləsi aparıblar: "MDB məkanında beynəlxalq əməkdaşlığın genişləndirilməsi və möhkəmləndirilməsi məsələləri, strateji istiqamətlərin işlənib hazırlanması və həyata keçirilməsi prosesində gənc mütəxəssislərin aktiv iştirakı, yeni layihə təşəbbüsləri barədə müzakirələr apardıq".

Nicat Əliyev həm də dövlətimizin milli hədəfi olan Qərbi Azərbaycana qayıdışın gerçəkləşdirilməsi üçün bu istiqamətdə də fəal iş həyata keçirir: "Bu, ölkəmizin prioritet mövzusudur. Qərbi Azərbaycana Qayıdış Konsepsiyasında da əks olunduğu kimi, tarixi yurdlarımıza sülh yolu ilə ləyaqətli və dinc şəkildə qayıtmaq planlaşdırılır. Əminik ki, necə ki Qarabağ və Şərqi Zəngəzura qayıdış həyata keçirilib, vaxtilə indiki Ermənistan ərazisindən deportasiya edilən soydaşlarımız da tezliklə dədə-baba torpaqlarına qayıdacaqlar".

Göründüyü kimi, vətənpərvər gəncliyimiz Azərbaycan adını dünyada tanıtdırmaq, həqiqətlərimizi təbliğ etmək, milli maraqlarımızı müdafiə etmək üçün beynəlxalq platformalarda fəallıq nümayiş etdirir, böyük əzm və səylə çalışırlar.

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

# Məktublar: problemlər, rəylər, təkliflər...



● MİNNƏTDARLIQ

## Şəhid ailəsinə göstərilən diqqətə görə minnətdaram



**İkinci Vətən müharibəsində gedən döyüşlərdə igidlik göstərərək qəhrəmancasına həlak olan və dövlət başçısı İlham Əliyevin sərəncamı ilə "Suqovuşanın azad olunmasına görə", "Cəsur döyüşçü" və "Vətən uğrunda" medalları ilə təltif olunan oğlum Elyəddin Cəfərovun xatirəsi qədirbilən xalqımız tərəfindən heç vaxt unudulmur.**

Naftalan şəhər rəhbərliyi tez-tez bizi ziyarət edərək problemlərimizlə maraqlanır. Elə bu yaxınlarda xəstələnib yatağa düşmüşdüm. Bunu eşidən şəhər rəhbərliyi evimə gələrək səhhətimlə maraqlandı, səhiyyə idarəsinə tapşırıqlar verdi, şəhid ailələrinin hər zaman diqqətdə olduqlarını bildirdi.

Hörmətli redaksiya! Məni ziyarət edən və sağlamlığıma diqqətlə yanaşan Naftalan şəhər rəhbərliyinə ailəmiz adından təşəkkürümü bildirirəm.

*Zöhrab CƏFƏROV,*
*Naftalan şəhər Qaşaltı Qaraqoyunlu kəndinin sakini*

● RAZILIQ

## Yol problemimiz həll edildi

**Prezident İlham Əliyevin vətəndaş məmnunluğunun təmin edilməsinə dair tapşırıq və tövsiyələrinə uyğun olaraq, Daşkəsən rayonunda da çoxsaylı tədbirlər həyata keçirilir.**



Rayon icra hakimiyyətində, eləcə də kənd və qəsəbələrdə mütəmadi olaraq vətəndaşların qəbulları keçirilir, onların müraciətləri dinlənilərək qaldırdıqları məsələlərin həlli istiqamətində aidiyyəti qurumlarla birgə tədbirlər görülür.

Bu yaxınlarda bizim Dəstəfur kəndində keçirilən görüşdə kənd sakinləri RİH başçısına müraciət edərək rayon mərkəzi ilə kəndi birləşdirən avtomobil yolunun təmir olunmasını xahiş etdilər. Məsələ ilə bağlı rayon Yol İstismar İdarəsinə tapşırıq verildi və bir neçə gündən sonra yola daxili imkanlar hesabına çınqıl tökülərək cari təmir işlərinə başlanıldı. Hazırda həmin yolda nəqliyyatın rahat hərəkəti təmin olunmuşdur.

Hörmətli redaksiya! Kənd sakinlərinin müraciətlərinə həssaslıqla yanaşan və onların problemlərinin tez bir zamanda həll edilməsinə qayğı göstərən təşkilatlara sakinlər adından minnətdarlığımı bildirirəm.

*İbrahim ZALOV,*
*Daşkəsən rayon Dəstəfur kəndinin sakini*

● UĞUR

## Lerikli ABŞ-də təhlükəsizliyi qoruyur

**1985-ci ildə Sumqayıt şəhərində dünyaya göz açan, əslən dağlar diyarı Lerikdən olan Zaur Telman oğlu Cəlilovun xoş sorağı Amerika Birləşmiş Ştatlarının paytaxtı Vaşinqtondan gəlir.**



Azərbaycan xalqına məxsus nəcib keyfiyyətlərini xarakterində yaşadan, əməlləri ilə millətimizin başını həmişə uca edən həmyerlimiz 2006-cı ildən ABŞ-də yaşayır. Xüsusi təyinatlı polis zabiti rütbəsinə yüksələn Zaur Cəlilov bu günlər şərəfli, amma olduqca çətin iş sayılan xüsusi təyinatlı polis zabiti təyin edilib. Bu vəzifəyə təyinat şəhər meri tərəfindən edilir.

Onu da bildirək ki, Zaur Cəlilov Vaşinqtonda Amerika Polis Akademiyasını fərqlənmə diplomu və medalı ilə qurtarıb. Həmçinin həmyerlimiz uşaq vaxtlarından cüdo ilə məşğul olur. Bu idman növü üzrə üçqat ABŞ çempionudur. 4 il ardıcıl olaraq ABŞ-nin ən yaxşı cüdoçusu adına layiq görülüb.

*Zəfər ORUCOĞLU,*
*Lerik rayon sakini*

● TƏKLİF

## Yaşmada məktəbə ehtiyac var

**Yaşma Sumqayıt şəhəri ilə Xızı rayonu arasında yerləşən yaşayış məntəqəsidir. 15-20 il əvvəl bura insanların seyrək məskunlaşdığı bir qəsəbə idi. Son illər qəsəbədə yeni evlər tikilib və sakinlərin sayı artıb. Qeyri-rəsmi məlumatlara görə, yaşmalıların sayı artıq 10 min nəfəri ötüb. Həm də burada yaşayanların çoxu gənc ailələrdir.**

Bir neçə il öncə Sumqayıt-Yaşma istiqamətində ictimai nəqliyyat açıldı. Hazırda 10 dəqiqəlik intervalla 3 saylı marşrut üzrə ictimai nəqliyyat fəaliyyət göstərir. Marşrutdan ən çox istifadə edənlər isə uşaqlardır. Səhər saat 7-dən uşaqlar avtobusla Sumqayıt məktəblərinə yollanırlar ki, bu da istər-istəməz valideynlər üçün əlavə problem yaradır. Odur ki, Yaşmada məktəbə böyük



ehtiyac var. Mən bunu 20 il həmin qəsəbədə yaşayan bir sakin kimi deyirəm. Qəsəbədə məktəb olarsa, uşaqlar hər gün dərsə gedərkən yollarda saatlarla vaxt itirməz. İkincisi isə, illər ötdükcə Yaşma sakinlərinin, deməli, şagirdlərin də sayı artır.

Məsələyə aidiyyəti olan təşkilatlardan xahiş edərdik ki, bizim bu təklifimizi nəzərə alsınlar. Çünki təhsil gələcəyimizin təməlidir, onu gənclərimizdən əsirgəməyək.

*Cəbrayıl KƏRİMOV,*
*Sumqayıt şəhər Yaşma qəsəbəsinin sakini*

● FOTO

## Görünüşü Venesiya, ovqatı Bakı



1962-ci il



2025-ci il

**Bir vaxtlar sadəliyi və təbiiliyi ilə seçilən Dənizkənarı Bulvar ərazisində yerləşən "Venesiya" şəhərciyi kimi tanıdığımız istirahət məkanı bu gün müasirləşərək daha da gözəlləşib.**

Xəzərin sahilindəki bu ərazi əvvəllər kiçik qayıqlarla gəzinti edilən, sakitlik içində ailəvi vaxt keçirilən bir yer kimi tanınırdı. Gözoxşayan təbiət mənzərəsi, azsaylı, lakin zövqlə salınmış yaşıllıq zolaqları ilə şəhərin səs-küyündən uzaq durmaq istəyənlərin sığınacağı idi.

İllər keçdikcə bu sakit guşə də zamanın ritminə tab gətirmək məcburiyyətində qaldı. Aparılan yenidənqurma işləri nəticəsində "Venesiya" artıq, sadəcə, qayıqla gəziləcək bir yer deyil, həm də şəhərin müasir nəfəsini daşıyan cazibə mərkəzlərindən biridir. Ərazidə zövqlə inşa olunmuş kiçik körpülər, müasir işıqlandırma sistemləri, Şərq və Qərb mətbəxinin ləziz təamlarını təqdim edən açıq hava restoranları və gül-çiçəkli istirahət sahələri yaradılıb. Görünüşcə İtaliyanın məşhur kanallar şəhərini xatırlatsa da, buradakı ovqat Bakının öz ruhunu daşıyır.

Bugünkü "Venesiya" şəhərciyi keçmişin nostaljisi ilə gələcəyin dinamizmi arasında bir körpüdür. O, zamanın necə dəyişdiyini göstərməklə yanaşı, Bakının tarixi ilə gələcəyi arasında səssiz bir dialoqu da yaşadır.

*N.ƏSGƏROVA,*
*"Azərbaycan"*

● GÜZƏRAN

## Kəndimizdəki özəl istehsal müəssisəsində 400 nəfər çalışır

**Son illər iri şəhərlərlə yanaşı, kəndlərimizdə də yeni istehsal müəssisələri yaradılır ki, bu da öz növbəsində işsizliyin aradan qaldırılmasına kömək edir.**

"Vəkiloğlu" MMC PATRON brendi olaraq 2009-cu ildə yaradılıb. Şirkətin emal-istehsal bölməsi və baş ofisi bizim kənddə yerləşir. 15 ildən çoxdur fəaliyyət göstərən şirkətin istehsal etdiyi məhsulların 20-dən çox çeşidi var. "Patron" günəbaxan tumlarından başqa, fıstıq, şirniyyat, kukuruz və suxarı kimi məhsullar da istehsal edir. Məhsulların dəniz duzu ilə duzlanması texnologiyasını ilk dəfə bu şirkət həyata keçirib. Məhsulları tam gigiyenik qaydalar çərçivəsində istehsal olunan şirkətdə 400 nəfər işçi daimi əsaslarla işləyir.

Kəndimizdə belə müəssisənin fəaliyyət göstərməsi təkcə bizim sakinlər tərəfindən deyil, bütün tərtərlilər tərəfindən razılıqla qarşılanır.

*Elçin QASIMOV,*
*Tərtər rayon Xoruzlu kəndinin sakini*

● NARAZILIQ

## Metropolitendə "BakıKart"a xırda pul yükləmək üçün vaxt və səbir lazımdır

**Artıq neçə gündür ki, metrostansiyalardakı sayğaclar xırda pulları (qəpikləri) qəbul etmir. Bu neqativ hal ən çox tələbələri narahat edir.**



Məsələ ilə bağlı metrodakı polislərə, nəzarətçilərə müraciət edəndə də deyirlər: "Bu bizim səlahiyyətimizdə deyil..." Onda belə çıxır ki, sərnişinlər gərək işini, gücünü atıb rəhbər dairələri tapıb sözlərini onlara çatdırsınlar. Axı bu mümkün deyil. Çünki hamı işə, dərsə tələsir.

Amma, deyəsən, metropolitenin başbilənləri sözügedən problemi həll etməyə tələsmirlər.

*İman MİRZƏZADƏ,*
*Bakı şəhər sakini*

● MƏMNUNLUQ

## Kənd bələdiyyəsi müraciətimizə diqqətlə yanaşdı

**Şəmkir Rayon İcra Hakimiyyətinin rəhbərliyi əhalinin müraciətlərini dinləmək və qaldırılan problemləri vaxtında aradan qaldırmaq üçün tez-tez kənd və qəsəbələrdə olur, əhali ilə görüşür.**



Elə bu yaxınlarda Kür qəsəbəsində keçirilən görüşdə qaldırılan bir məsələ qısa vaxt ərzində öz həllini tapdı. Diqqətə çatdırım ki, kəndimiz rayonun Kür qəsəbəsinə yaxın ərazidə yerləşdiyindən, sakinlər tez-tez qəsəbə ilə əlaqə saxlamalı olurlar. Lakin qəsəbədən kəndə gedən yol bərbad vəziyyətdə idi.

Səyyar görüşdə kənd sakinləri bu barədə rayon rəhbərliyinə məlumat verdilər. Elə həmin gün yola baxış keçirildi. Sakinlərin müraciəti nəzərə alınaraq kənd bələdiyyəsi tərəfindən Kür qəsəbəsindən İsgəndərli kəndinə gedən yolda təmir-bərpa işlərinə başlanıldı, yola qum-çınqıl döşənərək hamarlandı. Paralel olaraq kənddaxili yollarda da bir sıra abadlıq işləri görüldü.

Bizim müraciətə diqqətlə yanaşan və yolumuzu abadlaşdıran kənd bələdiyyəsinə minnətdarlığımızı bildiririk.

*Saleh NƏSİBOV,*
*Şəmkir rayon İsgəndərli kəndinin sakini*

● ŞİKAYƏT

## Bərdə şəhərində sanitar qovşaq yoxdur

*Amma heç bir əlaqəli qurum bundan rahatsız olmur*

**Bərdə ölkəmizin iri şəhərlərindəndir. Hazırda şəhər əhalisinin sayı 42 min nəfərə yaxındır. Üstəlik, hər gün rayonun kəndlərindən, yaxın-uzaq bölgələrdən Bərdə şəhərinə çox sayda qonaqlar gəlir.**

Şəhərdə ticarət və ictimai iaşə obyektlərinin sayı gündən-günə artmaqdadır. Olsun. Buna heç kim etiraz etmir. Amma şəhərin sakinlərini və qonaqları bir məsələ ciddi narahat edir. Bu boyda şəhərdə bir dənə də olsun sanitar qovşaq yoxdur. Əslində, bu, yeni problem deyil. Şəhərin əlaqədar təşkilatları qarşısında dəfələrlə məsələ qaldırılıb. Amma hələ də bir nəticə yoxdur. Halbuki bu, sanitariya və təmizlik məsələsidir. Bunu anlamaq eləmi çətindir?

Qoy bu suala Bərdə şəhərinin əlaqədar təşkilatları cavab versin.

*Aydın SƏFƏROV,*
*Bərdə şəhər sakini*

● GİLEY

## Avtobus dayanacağımız bərbad vəziyyətdədir

**Tovuzun Dondar Quşçu kəndində 2 min nəfərədək əhali yaşayır. Son illər sakinlərin normal həyatı üçün kənddə bir çox tədbirlər həyata keçirilmişdir. Kəndin yol və ictimai nəqliyyat problemi yoxdur.**




Lakin bir məsələ kənd sakinlərində narazılıq yaradır. Bu, kəndin avtobus dayanacaqlarının bərbad vəziyyətdə olmasıdır. Doğrudur, kəndin bir neçə yerində dayanacaq quraşdırılmışdır. Lakin yük maşınları həmin dayanacaqları pis günə salıb. İndi camaat yayda gün altında, qışda isə qar, yağış altında dayanıb avtobus gözləməli olurlar.

Hörmətli redaksiya! Xahiş edirik ki, bu problemin həllində kənd sakinlərinə kömək göstərəsiniz.

*Şəfiqə HƏSƏNOVA,*
*Tovuz rayon Dondar Quşçu kəndinin sakini*

● MÜNASİBƏT

## ASAN-ı çətinə salmayaq

**Dövlət başçısı İlham Əliyevin fərmanı ilə 2012-ci ildə yaradılan "ASAN xidmət" bu gün ölkəmizdə hər kəsin daha çox üz tutduğu quruma çevrilib. Üstünlükləri çoxdur. "ASAN xidmət"lərdə vətəndaşlar çoxsaylı dövlət xidmətlərindən daha əlçatan və şəffaf şəkildə istifadə edir, heç bir bürokrat məmurla üz-üzə gəlmir, təmasda olmurlar.**

Əməkdaşlar da, əsasən, işlərinə məsuliyyətlə yanaşırlar. Könüllülər isə ünsiyyət zamanı çox mehriban və səmimidirlər. Gənclərimizin formalaşmasında, mədəniyyət və etik qaydaları mənimsəməklərində "ASAN könüllü"lük hər bir gənc üçün böyük təcrübə məktəbidir.

Mən də bir vətəndaş olaraq "ASAN xidmət"dən vaxtaşırı yararlanıram. Buradakı xidmətlərdən, əsasən, razıyam. Lakin istisna hallar da olur. Məsələn, elə xidmətlər var ki, çox vaxt itirirsən. Hər hansı problemin həlli, arayışın verilməsi də bəzən günlərlə, həftələrlə uzanır. Adi doğum haqqında itmiş şəhadətnamənin yeni nüsxəsini almaq üçün günlərlə gözləmək lazım gəlir. Yaxud ödəniş məsələsi. Açığını deyək ki, rüsumlar bahadır, aztəminatlı vətəndaşın büdcəsinə uyğun gəlmir. Halbuki bu və ya digər arayışı ucuz, yaxud ödənişsiz vermək mümkündür. Nəzərə alsaq ki, "ASAN xidmət"də dövlət qurumları fəaliyyət göstərir və həmin dövlət qurumları da dövlət büdcəsindən, yəni biz vətəndaşların ödədiyi vergilərdən maliyyələşir, onda hər hansı arayışın, yaxud sənədin verilməsinə rüsum, özü də yüksək rüsum almaq nə dərəcədə doğrudur?

Bütün bunlara rəğmən, müasir qurum olaraq dövlət-vətəndaş əlaqələrinin sadələşdirilməsi baxımından asan və əlçatanlığına görə "ASAN xidmət" artıq bir Azərbaycan brendidir. Arzu edirəm ki, ASAN öz işini çətinə salmasın, imicini qorusun, vətəndaşların narazılıqlarını, şikayətlərini nəzərə alsın.

*İlhamə MƏHƏMMƏDQIZI,*
*Sumqayıt şəhər sakini*

Azercell

# abunəçilərinin nəzərinə!

"Azercell Telekom" MMC tərəfindən təqdim olunan xidmətlərin keyfiyyətinin daha da yüksəldilməsi, abunəçilərə daha əlverişli və rahat istifadə imkanının təmin edilməsi məqsədi ilə aşağıdakı dəyişikliklər tətbiq ediləcək:

- 19 iyun 2025-ci il tarixindən etibarən fakturasız (SimSim) xətt sisteminə aid nömrənin balansında mövcud tarif paketinin aylıq abunə haqqını ödəmək üçün kifayət qədər vəsait olarsa, nömrənin istifadə müddətindən asılı olmayaraq həmin vəsait balansdan tutulacaq və nömrənin xətti tarif paketinin istifadə müddətinə uyğun olaraq ikitərəfli açıq saxlanılacaq. Bu hal növbəti ayda da balans kifayət etdikdə avtomatik tətbiq olunacaq. Əgər nömrənin balansında kifayət qədər vəsait olmazsa, nömrənin xətti birtərəfli bağlanacaq, danışıq kartının nominalına və yüklənmə müddətinə uyğun olaraq istifadə müddəti ilə bağlı şərtlər tətbiq etməklə xidmətlərdən istifadə imkanı yaradılacaq. Bu dəyişiklik abunəçilərə ödəmə kartının nominalından asılı olaraq müəyyən edilən kartın istifadə müddəti + 90 gün ilə bağlı tələb nəzərə alınmadan nömrənin balasında kifayət qədər vəsait olduqda aylıq abunə haqqı ödəməklə nömrədən istifadə imkanı verir.
- 01 iyul 2025-ci il tarixindən etibarən fakturasız (SimSim) xətt sisteminə aid nömrələr üçün nəzərdə tutulmuş ödəniş (danışıq) kartlarının nominalına uyğun olaraq istifadə müddəti aşağıdakı kimi tətbiq ediləcək:

| Kartın nominalı (AZN ilə) | İstifadə müddəti (təqvim günü) |
|---|---|
| 1 | 1 |
| 2 | 2 |
| 3 | 3 |
| 5 | 5 |
| 10 | 10 |
| 25 | 25 |
| 50 | 50 |
| 100 | 50 |

Bütün nominallı (1, 2, 3, 5, 10, 25, 50 və 100 AZN) ödəmə (danışıq) kartlarında yeni ödəmə kartının yükləmə müddəti ödəmə kartlarının nominalından asılı olaraq müəyyən edilən kartın istifadə müddəti +90 gün kimi saxlanılır. Beləliklə də, abunəçi bu müddət ərzində yeni ödəmə kartı yükləyib istifadə imkanını yeni müddətə artırmaqla, eyni zamanda həmin yeni müddət bitənədək həm daha əvvəl yüklənmiş və istifadə edilməmiş məbləğlərdən, həm də yeni yüklədiyi ödəmə kartının məbləğindən istifadə imkanına malik olacaq.

Göstərilənlər ilə yanaşı, fakturasız (SimSim) xətt sisteminə aid nömrələrin balansına elektron ödəniş üsulları ilə sərbəst seçilən nominalda pul vəsaitinin yüklənməsi imkanı təmin edilir. Fakturasız (SimSim) xətt sisteminə aid nömrələr üçün nəzərdə tutulmuş 1, 2, 3, 5, 10, 25, 50 və 100 AZN nominallarının əvəzinə, elektron ödəniş üsulları vasitəsi ilə həyata keçirilən ödənişlərə görə aşağıdakı cədvəldə göstərilən aralıqda məbləğlər və müvafiq istifadə müddətləri təyin edilir:

| Ödəniş məbləğinin aralığı | İstifadə müddəti (təqvim günü) |
|---|---|
| 1 AZN-dən - 1,99AZN-dək | 1 |
| 2 AZN-dən - 2,99 AZN-dək | 2 |
| 3 AZN-dən - 4,99 AZN-dək | 3 |
| 5 AZN-dən - 9,99 AZN-dək | 5 |
| 10 AZN-dən - 24,99 AZN-dək | 10 |
| 25 AZN-dən - 49,99 AZN-dək | 25 |
| 50 AZN-dən - 99,99 AZN-dək | 50 |
| 100 AZN + | 50 |

Elektron ödəniş üsulları vasitəsi ilə ödəniş üçün daxil edilən məbləğin minimal həddi 1 AZN təşkil edir.

- 01 iyul 2025-ci il tarixindən etibarən fakturasız (SimSim) xətt sisteminə aid "Azercellim", "Bölgə", "GəncSim", "Sadə6", "GəncOl həftəlik", "GəncOl 6" və "GəncOl 9" tarif paketlərinə yeni qoşulmalar dayandırılacaq. Qeyd olunan tarixə kimi qoşulan abunəçilər cari abunəlik ləğv edilənə qədər müvafiq tarif paketlərindən ümumi əsaslarla istifadəyə davam edə biləcəklər.
- "Azercell Telekom" MMC tərəfindən təqdim olunan xidmətlərin keyfiyyətinin daha da yüksəldilməsi, mobil internetə olan ehtiyacın daim artdığı mühitdə müştərilərə təklif olunan tariflərin optimallaşdırılması, abunəçilərə daha əlverişli və rahat istifadə imkanının təmin edilməsi məqsədi ilə 01 iyul 2025-ci il tarixindən aşağıdakı dəyişikliklər tətbiq ediləcək:

| Aylıq İnternet Paketlərin adı və həcmi | Qiyməti (ƏDV daxil, AZN) | İstifadə müddəti |
|---|---|---|
| 6 GB | 12 | 28 gün |
| 12 GB | 19 | 28 gün |
| 30 GB | 29 | 28 gün |
| Saatlıq İnternet Paketlərin sürəti və qiyməti (ƏDV daxil, AZN) | | |
| 1 saatlıq (limitsiz sürət) | 0,99 | 1 saat |
| 3 saatlıq (limitsiz sürət) | 1,99 | 3 saat |

| Aylıq İnternet Paketinin əvvəlki adı və həcmi | Aylıq İnternet Paketinin yeni adı və həcmi | Qiyməti (ƏDV daxil, AZN) | İstifadə müddəti |
|---|---|---|---|
| 55 GB | 56 GB | 39 | 28 gün |
| Günlük İnternet Paketlərin əvvəlki adı və həcmi | Günlük İnternet Paketlərin yeni adı və həcmi | Qiyməti (ƏDV daxil, AZN) | İstifadə müddəti |
| 250 MB (yenilənən) | 350 MB (yenilənən) | 0,99 | 1 gün |
| 1000 MB (yenilənən) | 1.5 GB (yenilənən) | 1,99 | 1 gün |

Qeyd olunan tarixdən "1.5 GB aylıq" , "6 saatlıq" və "Həftəsonu" internet paketlərinə yeni qoşulmalar dayandırılır. Həmçinin aylıq internet paketlərində "Pulsuz WhatsApp" kampaniyası çərçivəsində 1.5 GB, 6 GB, 12 GB, 30 GB və 55 GB paketlərində WhatsApp ilə mətnli yazışma üçün təqdim edilən 1GB həcmində əlavə ödənişsiz trafik ləğv edilir. Qeyd olunan tarixə kimi qoşulan abunəçilər cari abunəlik ləğv edilənə qədər müvafiq internet paketlərindən ümumi əsaslarla istifadəyə davam edə biləcəklər. Göstərilən tarixədək aktiv edilən aylıq internet paketlərində istifadə müddəti ilə bağlı dəyişikliklər paketlərin növbəti yenilənməsindən tətbiq ediləcək.

**Qeyd:** Abunəçilər göstərilən dəyişikliklər, tarif və internet paketlərinin şərtləri, sifarişi, başqası ilə əvəzetmə və imtina qaydası barədə, o cümlədən "Azercell Telekom" MMC tərəfindən təqdim edilən xidmətlər, tariflər və keçirilən kampaniyalar barədə ətraflı məlumatları rəsmi internet səhifəmizdən (**www.azercell.com**), həmçinin Müştəri Xidmətlərinə (MX ofisləri, həftənin 7 günü 24 saat ərzində fəaliyyət göstərən Telefon Mərkəzi) müraciət etməklə əldə etmək imkanına malikdirlər.


# Qərbi Azərbaycandan didərgin salınmış insanların qayıdış hüququ var

## Bu, beynəlxalq qanunlara əsaslanan tələbdir



Qərbi Azərbaycan İcmasının milli və beynəlxalq platformalarda fəallığı, dünya ictimaiyyətinə Azərbaycanın mövqeyini təkzibolunmaz faktlar və arxiv materialları əsasında çatdırmaq səyləri ictimaiyyət tərəfindən məmnunluqla qarşılanır.

Bu gün Qarabağa və Şərqi Zəngəzura böyük qayıdışımız həyata keçirilirsə, yaxın gələcəkdə Qərbi Azərbaycana dönüşümüz də real olacaq. İnam və qətiyyətlə hədəflərə, məqsədlərə doğru irəliləyən Azərbaycan hər bir vətəndaşının arzularını reallığa çevirməyi qarşısına məqsəd qoyub. Bu məsələdə Azərbaycan Prezidentinin tələb və tövsiyələrinə əsasən, Qərbi Azərbaycan İcması öz üzərinə düşən tarixi missiyanı uğurla yerinə yetirir. İcma Azərbaycan həqiqətlərini dünyaya çatdırmaq üçün bütün imkanlardan istifadə edir. Bu məqsədlə təsdiqlənmiş və icrası uğurla davam etdirilən Qərbi Azərbaycana Qayıdış Konsepsiyası da mühüm əhəmiyyət kəsb edir.

Mayın 21-də Türkiyənin Ankara şəhərində "Qərbi Azərbaycana qayıdış insan hüquqlarının aliliyinin mühüm şərti kimi" mövzusunda keçirilən beynəlxalq konfrans da bu xüsusda əlamətdar hadisə idi. Bu, xaricdə məlum mövzu ilə bağlı təşkil olunan üçüncü tədbir idi. Azərbaycan və Türkiyədən 250-yə yaxın iştirakçının qatıldığı tədbirin işində dövlət qurumlarının, qeyri-hökumət təşkilatlarının təmsilçiləri ilə bərabər, elm və iş adamları, habelə media mənsubları da iştirak edirdilər.

Xatırladaq ki, Türkiyədə Qərbi Azərbaycanəsilli yüzminlərlə insan yaşayır. Qərbi Azərbaycan İcmasının artıq Türkiyədə nümayəndəliyi və şəhərlərdə ofisləri fəaliyyət göstərir. Bu prosesdə onların da fəal iştirakı uğurlu nəticəyə böyük töhfə verir. Azərbaycanlıların Qərbi Azərbaycandan ilk deportasiya dövrü 1905-1920-ci illəri əhatə edir. O zaman milli zəmində baş verən qanlı hadisələr nəticəsində həmin ərazidə mövcud olmuş 1000-ə yaxın Azərbaycan kəndi xəritədən tamamilə silinmişdir. Daha sonra sovet hökuməti tərəfindən 1948-1953-cü illər ərzində hiyləgər erməni millətçilərinin təhriki nəticəsində 150 mindən artıq azərbaycanlı dədə-baba yurdundan deportasiya olunmuşdur. 1988-ci ildə baş vermiş son deportasiya hadisəsi isə əvvəlkindən fərqli amillərlə səciyyələnir. Bu deportasiya milli zəmində, Qərbi Azərbaycanda yaşayan 300 minədək həmvətənimizin öz doğma yurdlarından zorla qovulması ilə tarixə düşüb.

Azərbaycanın ərazi bütövlüyünün bərpası ilə nəticələnmiş 44 günlük Vətən müharibəsindən sonra bölgədə yaranmış yeni reallıqlar növbəti hədəflərə çatmaq üçün daha böyük imkanlar açmışdır. Sevindirici haldır ki, Prezident İlham Əliyevin uzaqgörən və uğurlu siyasəti sayəsində Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılmasında böyük yol qət edilmişdır. Azərbaycanlıların, o cümlədən Qarabağdan və Qərbi Azərbaycandan məcburi köçkün və qaçqın düşmüş vətəndaşlarımızın hüquqlarının müdafiəsi beynəlxalq müstəviyə çıxarılmışdır. Dövlət başçısı Qərbi Azərbaycanın soydaşlarımızın tarixi torpağı olduğunu nüfuzlu beynəlxalq kürsülərdən bəyan etmişdir.

Qərbi Azərbaycan İcması Ağsaqqallar Şurasının sədr müavini, Əməkdar elm xadimi, professor Vaqif Şadlinski deyir ki, İrəvan şəhərindəki Göy məscid istisna olmaqla, Qərbi Azərbaycanda mövcud olmuş 300-ə yaxın məscidin hamısı Ermənistan tərəfindən məhv edilib. Eyni zamanda 500-dən artıq qəbiristanlıq dağıdılıb, azərbaycanlıların mədəni və dini irsi sistemli şəkildə Yer üzündən silinib. Bu, beynəlxalq hüququn və insan haqlarının kobud şəkildə pozulmasıdır.

Bu günlərdə Qafqaz Müsəlmanları İdarəsinin Qazılar Şurası tərəfindən İrəvan Qazılığının fəaliyyətinin bərpa edilməsi, İrəvan Qazılığının Əsasnaməsinin təsdiq edilməsi və İrəvan Qazısının seçilməsi barədə qərarları ictimaiyyətdə məmnunluqla qarşılanıb.

Bu, dini etiqad azadlığının təmin edilməsi, Qərbi Azərbaycanda multikultural mühitin yenidən canlandırılması və tarixi ədalətin bərpası baxımından əhəmiyyətli bir addımdır. Bu qərar eyni zamanda Ermənistandan zorla çıxarılmış azərbaycanlıların öz tarixi torpaqlarına qayıdışına xidmət edən mühüm bir addımdır. 27 sentyabr 2020-ci ilədək Qarabağa və Şərqi Zəngəzura dönüş arzumuza nə qədər ümidli idiksə, indi də əzmkarlıqla və inamla Qərbi Azərbaycana qayıdışa əminik.

Bununla bağlı Qərbi Azərbaycan İcması nüfuzlu beynəlxalq təşkilatlara, dünyanın tərəqqipərvər insanlarına, hökumət və qeyri-hökumət təşkilatlarına bəyanat ünvanlayıb. Bəyanatda deyilir: "Qərbi Azərbaycan İcması olaraq Ermənistan hökumətindən azərbaycanlıların Göy məsciddən sərbəst istifadəsinə şərait yaratmağı, dağıdılmış məscidləri və azərbaycanlılara məxsus digər mədəni abidələri bərpa etməyi, habelə Qərbi Azərbaycandan qovulmuş azərbaycanlıların öz doğma torpaqlarına təhlükəsiz və ləyaqətli şəkildə qayıdışına şərait yaratmağı tələb edirik.

Biz dünya dövlətlərini, BMT-ni və digər müvafiq təşkilatları Ermənistanın törətdiyi haqsızlıqların aradan qaldırılması üçün bu dövlətə təzyiq etməyə çağırırıq".

Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin sədri Fazil Mustafa bu barədə mətbuata açıqlamasında bildirmişdir ki, tarixən fəaliyyət göstərən İrəvan Qazılığının həmin dövrlərdə insanların dini-mənəvi dəyərlərinin qorunmasında böyük rolu olub: "Torpaqlarımız uzun illər işğal altında olduğundan bu fəaliyyəti bərpa etmək mümkün deyildi. İndi İrəvan Qazılığının da təyinatı olduqca ciddi və önəmli məsələdir. İrəvan Qazılığının fəaliyyətinin bərpası zamanın tələbidir. Qayıdış prosesi başa çatandan sonra İrəvan Qazılığının fəaliyyəti canlanacaq, orada yaşayan insanlarımızın mənəvi, dini tələbatının ödənilməsinə böyük fayda olacaq".

Qarabağ və Şərqi Zəngəzurun bərpasını, quruculuğunu və məskunlaşdırılmasını strateji hədəflərin ilkin mərhələsi hesab edən İlham Əliyev növbəti mərhələni belə xarakterizə edir: "Bu gün biz Azərbaycan xalqının əyilməz ruhunu Qarabağa və Şərqi Zəngəzura qayıdan soydaşlarımızın timsalında görürük. Mən əminəm ki, biz eyni mənzərəni Qərbi Azərbaycana qayıdış dövründə də görəcəyik".

İlham Əliyev Qərbi Azərbaycana qayıdışı milli ideyanın tərkib hissəsi kimi qiymətləndirərək yalnız bu bölgənin insanlarını deyil, bütün xalqı bu mövzu ətrafında səfərbər edib. Bu mühüm məsələdə Azərbaycanın xarici ölkələrdəki səfirlikləri, nümayəndəlikləri, diaspor təşkilatları xüsusi fəallıq göstərirlər. Bu sıradan mayın ikinci ongünlüyündə Azərbaycanın İordaniya Haşimilər Krallığındakı səfirliyinin təşkilatçılığı və Qərbi Azərbaycan İcmasının dəstəyi ilə Əmman şəhərində "Qərbi Azərbaycan mədəni irsinin izi ilə" mövzusunda keçirilən elmi-praktiki konfransda ətraflı bəhs edilib. Konfransda Qərbi Azərbaycana aid maddi mədəniyyət nümunələrindən ibarət "Qərbi Azərbaycan mədəniyyəti" adlı sərgi, həmçinin "Qərbi Azərbaycanın zəngin mədəni irsi" adlı videoçarx nümayiş etdirilib.

İordaniyanın Baş nazirinin müavini, Yerli idarəetmə nazirinin müşaviri və "Yaxın Şərqdə Sülh Mədəniyyəti Birliyi"nin rəhbəri Məhəmməd Əl-Malkavi Ermənistan ərazisindən didərgin düşmüş azərbaycanlıların doğma yurdlarına ləyaqətlə və təhlükəsiz qayıdışının təbii hüquqları olduğunu qeyd edib. Vurğulayıb ki, kofransdakı çıxışlardan və sənədlərdən məlum olur ki, azərbaycanlılara qarşı etnik və mədəni təmizləmə kampaniyası ermənilər tərəfindən sistemli və planlı şəkildə həyata keçirilib. Qərbi Azərbaycanın mədəni kimliyi ötəri siyasi məsələ deyil. Mədəni irs beynəlxalq qanunlar və konvensiyalarla qorunur. Bu səbəbdən Qərbi Azərbaycandan didərgin salınmış insanların qayıdış hüququ emosional çağırışlar deyil, BMT Nizamnaməsi və Ümumdünya İnsan Hüquqları Bəyannaməsinə əsaslanan qanun və humanitar tələbdir.

*Rəhman SALMANLI,*
*"Azərbaycan"*

# Türkiyə növbəti İstanbul görüşündən sonra Zelenski, Putin və Trampın görüşünü təklif edir

**Dünən Türkiyə Ukraynadakı müharibəni başa çatdırmaq üçün ABŞ, Rusiya və Ukrayna liderləri arasında görüş keçirməyi təklif edib. Bunu Kiyevə səfəri zamanı qardaş ölkənin xarici işlər naziri Hakan Fidan deyib.**




"European Pravda"nın məlumatına görə, Fidan qeyd edib ki, üç liderin, eləcə də Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə danışıqlar Ukrayna və Rusiya arasında gələn həftə İstanbulda baş tuta biləcək potensial ikinci danışıqlardan sonra keçirilə bilər. Hakan Fidan Kiyevə səfəri zamanı deyib: "Biz səmimi-qəlbdən inanırıq ki, İstanbulda birinci və ikinci birbaşa danışıqları cənab Donald Tramp, cənab Vladimir Putin və cənab Volodimir Zelenski arasında cənab Ərdoğanın rəhbərliyi altında keçiriləcək görüşlə yekunlaşdırmaq olar". Mayın 30-da Kiyevdə Zelenski ilə görüşən Fidan əlavə edib ki, "danışıqlar davam etsə, irəliləyiş, şübhəsiz ki, mümkündür". Xatırladaq ki, həftənin əvvəlində türkiyəli nazir Moskvada yüksəkvəzifəli şəxslərlə, o cümlədən Putinlə danışıqlar aparmışdır.

Kreml cümə günü bildirib ki, Putin yalnız Kiyevlə danışıqların nəticə verəcəyi halda Zelenski, Tramp və Ərdoğanla Zirvə görüşünü nəzərdən keçirəcək. Bu arada RF Prezidentinin mətbuat katibi Dmitri Peskov bildirib ki, Rusiya nümayəndə heyəti İstanbula yola düşür və bazar ertəsi səhər Ukrayna nümayəndələri ilə danışıqları davam etdirməyə hazır olacaq.

Danışıqların ikinci raundu zamanı tərəflər Rusiya və Ukraynanın atəşkəslə bağlı baxışlarını özündə əks etdirən memorandum layihələrini müzakirə etmək niyyətindədirlər. Peskov qeyd edib ki, hər iki memorandum layihəsinə iyunun 2-də İstanbulda keçiriləcək iclasda baxılması planlaşdırılır. Amma layihələrin məzmunu ictimaiyyətə açıqlanmayacaq. Söhbət tərəflərin atəşkəslə bağlı mövqelərini əks etdirən sənədlərdən gedir, lakin onların təfərrüatları geniş ictimaiyyət üçün qapalı qalacaq.

Xarici işlər naziri Sergey Lavrov da bildirib ki, V.Putinin köməkçisi Vladimir Medinskinin rəhbərlik etdiyi Rusiya nümayəndə heyəti iyunun 2-də İstanbulda Rusiyanın memorandumunu Ukrayna tərəfinə təqdim etməyə hazırdır.

Ukraynanın Rusiya və ABŞ-yə təqdim etdiyi müharibənin dayandırılması şərtlərinə dair memorandum quruda, dənizdə və havada atəşkəslə bağlı müddəaları ehtiva edir. Ehtimal olunur ki, monitorinq beynəlxalq tərəfdaşlar tərəfindən aparılacaq. Bu barədə Amerikanın "The New York Times" qəzeti Ukraynanın yüksəkrütbəli məmurları arasında olan mənbəyə istinadən məlumat yayıb. Məlumatda oda qeyd edilir ki, hazırkı "diplomatik rəqslər" Kiyev və Moskva arasında yeni danışıqların baş tutacağına və onların hansısa mühüm irəliləyişə gətirib çıxara biləcəyinə dair şübhələri artırıb.

Son məlumata görə, Ukraynanın xarici işlər naziri Andriy Sibiqa türkiyəli həmkarı Hakan Fidanla mayın 30-da keçirdiyi mətbuat konfransında bildirib ki, Kiyev danışıqların ikinci raunduna qədər müharibəni dayandırmaq üçün Rusiya Federasiyasının şərtləri ilə bağlı memorandumu almaq istəyir. Onun sözlərinə görə, Ukrayna hərbi əməliyyatları bu il dayandırmağa çalışır. Nazir xüsusilə qeyd edib ki, Moskva danışıqların ikinci raunduna qədər Ukraynaya "memorandum" təqdim etməlidir ki, görüş substantiv və məzmunlu olsun. "Planlaşdırılan növbəti görüşün mahiyyətli və məzmunlu olması üçün sənədin əvvəlcədən alınması vacibdir ki, ayrılan nümayəndə heyəti müvafiq mövqeləri müzakirə etmək səlahiyyətinə malik olsun", - deyə Sıbiqa bildirib. O həmçinin vurğulayıb ki, Kiyev Rusiya ilə danışıqları davam etdirməkdə maraqlıdır, çünki 2025-ci ildə tammiqyaslı müharibəyə son qoymaq istəyir. Nazir həmçinin xatırladıb ki, Ukrayna sülh səylərinə sadiqdir və ABŞ-nin atəşkəs təklifini qəbul edib.

*Rizvan CƏFƏROV,*
*"Azərbaycan"*

**Dünya çempionatı**
**Yarımfinal**
**Azərbaycan - Monteneqro - 2:1**
**Qollar: Ağaseyid Qasımov, 23. Ramiz Çovdarov, 44 - Nikola Radoniç, 30**

# FİNALDAYIQ!





**Minifutbol üzrə Azərbaycan millisi növbəti oyununu keçirib. Yığmamız Bakıda keçirilən dünya çempionatında yarımfinal matçına çıxıb.**

Elşad Quliyevin yetirmələri Monteneqro ilə üz-üzə gəlib. Milli Gimnastika Arenasında baş tutan görüş millimizin qələbəsi ilə yekunlaşıb-2:1. Komandamızın heyətində Ağaseyid Qasımov və Ramiz Çovdarov fərqləniblər.

Qələbə sayəsində Azərbaycan yığması dünya çempionatının ilk finalçısı olub.

Komandamızın iyunun 1-də keçiriləcək həlledici mərhələdə rəqibi Macarıstan millisi olacaq.

Azərbaycan Minifutbol Federasiyası ölkəmizdə sosial statusundan, peşəsindən və yaşından asılı olmayaraq bütün həvəskarları minifutbol bayrağı altında birləşdirdi. Bu peşəkar yanaşma, diqqət və qayğı Azərbaycan Minifutbol Ferderasiyasına tarixi zəfər qazandırdı. Minifutbol üzrə milli komandamız 2022-ci ildə ikinci dəfə qatıldığı Avropa çempionatının qalibi oldu.

Demək olar ki, çoxlarının tanımadığı, yalnız yerli futbolçu və məşqçilərdən təşkil olunmuş minifutbol yığmamız əsl əzmkarlıq nümayiş etdirərək 5 il öncə Vətən müharibəsində qazandığımız şanlı Zəfərə rəng qatdılar, azarkeşlərə ən böyük qələbə sevinci yaşatdılar və bütün ölkənin sevimlisinə çevrildilər. İnanırıq ki, finalda millimiz qalib gələcək, dünya çempionluğu ünvanına sahib olacaq.

Uğurlar, Azərbaycan!

*Elçin CƏFƏROV,*
*"Azərbaycan"*

**Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tabeliyində Sosial Xidmətlər Agentliyi "18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxslər üçün sosial reabilitasiya mərkəzlərinin fəaliyyətinin təşkili (Bakı, Sumqayıt və Abşeron rayonu istisna olmaqla respublikanın şəhər və rayonları üzrə)" adlı müsabiqə keçirir**

Müsabiqədə qeyri-hökumət təşkilatları, hüquqi və fiziki şəxslər iştirak edə bilərlər. İştirak haqqı yoxdur. Maraqlanan təşkilatlar müsabiqənin Əsas şərtlər toplusunu və texniki tapşırığını əldə etmək üçün nazirliyin tabeliyində Sosial Xidmətlər Agentliyinə (Ünvan: Nərimanov rayonu, Ziya Bünyadov prospekti 1965, "Çinar Park" biznes mərkəzi, bina 1) yazılı müraciət edə bilərlər.

Müsabiqədə iştirak edən təşkilatların təklifləri 18 iyun 2025-ci il saat 17:00-dan gec olmayaraq agentliyə təqdim edilməlidir. Gecikdirilmiş təkliflər qəbul olunmayacaqdır. Müsabiqə 19 iyun 2025-ci il saat 11:00-da agentliyin inzibati binasında keçiriləcəkdir.

**Əlaqə telefonu: (012) 525-41-30 (daxili-5036)**

***Müsabiqə komissiyası***

## 31 May Ümumdünya Tütünlə Mübarizə Günüdür

# Sağlam gələcək istəyirsinizsə, siqaretdən imtina edin

**Tütün məhsullarından davamlı istifadə qeyri-infeksion xəstəliklərin və bu xəstəliklərlə əlaqəli ölümlərin əsas səbəbidir. Tütün tüstüsünün tərkibində 7000-dək kimyəvi maddə mövcuddur. Bunlardan 250-si xüsusi təhlükəli zəhərli, 70-i isə xərçəng xəstəliyi yaradan maddələr hesab edilir.**

Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) hesabatına görə, tütün istifadəsi hər il 8 milyondan çox insanın ölümünə səbəb olur və təəssüf ki, bu rəqəmin 1,2 milyonu passiv siqaret çəkənlərin payına düşür. Əgər tütün sənayesi bu şəkildə fəaliyyət göstərməyə davam edərsə, onun qurbanları 2100-cü ilə qədər 572 milyonadək artacaq. Məhvedici vərdişlə mübarizə çərçivəsində hər il mayın 31-i Ümumdünya Tütünlə Mübarizə Günü kimi qeyd edilir. Bu beynəlxalq aksiya 1988-ci ildə ÜST-nin Assambleyasının 42-ci sessiyasında təsis olunub.

Azərbaycan da tütün məhsulları və onların fəsadları ilə mübarizə aparan ölkələr sırasındadır. Ölkəmiz ÜST-nin Tütündən istifadəyə Nəzarət üzrə Çərçivə Konvensiyasına 2006-cı ildə qoşulub. Bu konvensiya tütündən istifadənin azaldılması üçün tədbirlər proqramı təklif edir. 2017-ci ildə isə ölkəmizdə "Tütün məmulatlarının istifadəsinin məhdudlaşdırılması haqqında" qanun qəbul edilib. Bu qanuna əsasən, tütün məmulatlarının qapalı məkanlarda istifadəsi, yetkinlik yaşına çatmayanlara satışı qadağandır.

## Siqareti tərgitdikdən sonra dərhal müsbət dəyişiklik müşahidə edilir

Tütün məmulatlarının istifadəsi insan sağlamlığı üçün çox ciddi təhlükə yaradır. Siqaret çəkmək ağciyər xərçəngi, ürək-damar, xroniki bronxit və insult kimi xəstəliklərə səbəb olur. Torakal cərrah Nuray İmanovanın sözlərinə görə, hər kəs üçün təhlükəli olan tütün tüstüsünün sağlamlıq riski həssas qrupa daxil olan yeniyetmələr, hamilə qadınlar və xroniki xəstəliyi olan insanlar üçün daha yüksəkdir. Belə ki, gənc yaşda siqaretə başlama beyində nikotinə qarşı asılılığın daha sürətli formalaşmasına səbəb olur. Siqaret həmçinin gənclərin fiziki və psixoloji inkişafını ləngidir, öyrənmə qabiliyyətinə və yaddaşa mənfi təsir göstərir. Yeniyetmələrdə siqaret vərdişi gələcəkdə digər zərərli maddələrin istifadəsi riskini də artırır. Hamiləlik dövründə siqaret çəkən qadınlarda isə döldə oksigen çatışmazlığı yaranır.

"Siqareti tərgitmək insan sağlamlığı üçün atılan ən vacib və müsbət addımlardan biridir. Araşdırmalar göstərir ki, siqareti tərgitdikdən sonra orqanizm özünü bərpa etməyə başlayır və bu proses artıq ilk saatlardan etibarən hiss olunur. Dərinin görünüşü yaxşılaşır, yaşlanma əlamətləri gecikir, dad və qoxu hissi güclənir, yuxu keyfiyyəti artır, psixoloji rahatlıq və həyat keyfiyyəti yüksəlir. İlk 12 saatdan sonra qanda karbonmonoksit səviyyəsi azalır və oksigen səviyyəsi normallaşır. 2-12 həftə sonra qan dövranı daha da yaxşılaşır, ağciyər funksiyaları 30 faizədək artmağa başlayır. 3-9 ay sonra öskürək, nəfəs darlığı və yorğunluq xeyli azalır. Ağciyərlər özünü təmizləməyə başlayır, tənəffüs yolları infeksiyalarına qarşı müqavimət artır. Bir il sonra ürək xəstəlikləri riski siqaret çəkən şəxslərlə müqayisədə yarıya enir. 5 il sonra insult riski siqaret çəkməyən bir insanın riski ilə eyni səviyyəyə düşür. 10-15 il keçdikdən sonra isə ağciyər xərçəngi və digər siqaretlə bağlı xərçəng növlərinin riski



xeyli azalır, ürək-damar xəstəlikləri riski siqaret çəkməyən şəxslərlə, demək olar ki, eyni olur", - deyə Nuray İmanova bildirib.

## 16-25 yaş aralığında tütün vərdişindən qurtulmaq daha asandır

Tütün asılılığı həm fizioloji, həm də psixososial köklərə malik kompleks bir vərdişdir. Psixologiya Elmi-Tədqiqat İnstitutunun sədri Elnur Rüstəmov bildirib ki, nikotin mərkəzi sinir sisteminə təsir edərək, beyində zövq və mükafat hormonu olan dopaminin ifrazını artırır. Bu da insanda süni rahatlıq, diqqət artımı və gərginlikdən azadlıq hissi yaradır. Effekti təkrarlamaq istəyi isə asılılığın başlanğıcını qoyur. Xüsusilə stres, gərginlik və ya depressiya fonunda siqaret çox zaman emosional tənzimləmə vasitəsi kimi istifadə olunur. Araşdırmalar göstərir ki, tütün istifadəçilərinin əhəmiyyətli bir qismi tütün məhsullarına "psixoloji dayaq" kimi baxır.

Psixoloq bildirib ki, gənclər arasında siqaretə başlamağın əsas səbəblərindən biri qəbul olunmaq istəyi və bərabərlik hissidir: "Sosial çevrədə siqaretin normal davranış kimi təqdim edilməsi təhlükəli davranış yaradır. Siqaretə başlamanın qarşısının alınmasında ailənin rolu həlledicidir. Valideynlərin davranışı, ünsiyyəti və nümunəvi mövqeyi bu prosesdə əsas faktorlar hesab olunur. Əgər onlar siqaret çəkmir və ya onu tərgitməyə çalışırlarsa, uşaqlar bu davranışı təqlid etmir. Əgər valideyn siqaret çəkirsə, uşaqda bunun normal olduğu təsəvvürü formalaşır. Uşaqlarla tütünün zərərləri barədə açıq danışmaq, fikirlərini dinləmək və onları maarifləndirmək vacibdir. Təkcə qadağa qoymaq kifayət deyil, səbəblər izah edilməlidir".

Tədqiqatlar göstərir ki, 16-25 yaş aralığında tütün vərdişindən qurtulmaq daha asandır. Elnur Rüstəmovun sözlərinə görə, gənclərin davranış modelləri hələ tam formalaşmadığı üçün dəyişikliklərə daha açıq olurlar. Üstəlik, bu yaşlarda orqanizm tütünün uzunmüddətli təsirinə məruz qalmadığından bərpa prosesi daha sürətli və uğurlu olur. Təhsil, karyera və ailə planlaması kimi motivasiyalar gəncləri tütündən uzaqlaşdırmaq üçün stimul yaradır.

"Siqareti tərgitmək heç bir yaşda gec deyil. ÜST-nin məlumatına görə, siqareti 40 yaşdan əvvəl tərgitmək ömrü 9 il uzada bilər. Tütün məhsullarından istifadəni dayandırmaq üçün bir sıra metodlar var. Bu arada farmakoloji dəstək alaraq nikotin əvəzedici vasitələr (nikotin saqqızı, plastırları və s.) və müvafiq dərman preparatları (bupropion, vareniklin) istifadə oluna bilər. Mobil tətbiqlər də siqareti tərgitmədə əhəmiyyətli dəstək rolunu oynayır. Araşdırmalara görə, psixoloji terapiya ilə müşayiət olunan siqarettərgitmə proqramları təkbaşına edilən cəhdlərdən 2-3 dəfə daha uğurlu olur. Üstəlik, mütəmadi həyata keçirilən qrup terapiyaları zamanı aparılan seanslar və həmrəylik hissi motivasiyanı gücləndirir", - deyə psixoloq vurğulayıb.

Mütəxəssis onu da bildirib ki, ölkəmizdə tütünlə mübarizə təkcə hüquqi mexanizmlərlə deyil, ictimai-psixoloji səfərbərliklə də həyata keçirilməlidir. Məktəb və universitetlərdə "sağlam həyat" mövzusunda mütəmadi seminarlar keçirilməli, sosial çarxlar və real həyat hekayələri əsasında çəkilmiş qısa filmlər yayımlanmalı, tütünə qarşı mübarizəyə yeniyetmələrin maraq dairələrinə uyğun ictimai şəxslər cəlb olunmalı, iş yerlərində "tütünsüz zona" proqramları və motivasiyaedici kampaniyalar təşkil edilməli, ən əsası psixoloji yardım və konsultasiya mərkəzlərinin fəaliyyəti gücləndirilməlidir. Tütünlə mübarizə yalnız fərdi məsələ deyil, ictimai sağlamlığın qorunması üçün milli məsuliyyətdir. Bu istiqamətdə hüquqi çərçivələrin gücləndirilməsi, elmi əsaslı yanaşmalar və psixoloji dəstək mexanizmlərinin inkişafı hər bir cəmiyyət üzvünün rifahı üçün vacibdir.

*Ülkər XASPOLADOVA,*
*"Azərbaycan"*

# Temperatur 36 dərəcəyədək yüksələcək



**Azərbaycanda mayın 31-nə gözlənilən hava proqnozu açıqlanıb.**

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, sabah Bakıda və Abşeron yarımadasında hava şəraitinin yağmursuz keçəcəyi gözlənilir. Şimal-şərq küləyi əsəcək, axşam şimal-qərb küləyi ilə əvəzlənəcək. Havanın temperaturu gecə 17-21, gündüz 30-35 dərəcə isti olacaq. Atmosfer təzyiqi 756 millimetr civə sütunundan 759 millimetr civə sütununa yüksələcək. Nisbi rütubət 40-50 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarında havanın əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin gündüz bəzi dağlıq ərazilərdə qısamüddətli az yağış yağacağı, şimşək çaxacağı ehtimalı var. Səhər bəzi yerlərdə zəif duman olacaq. Şərq küləyi əsəcək, bəzi yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 16-21, gündüz 31-36, dağlarda gecə 10-15, gündüz 20-25 dərəcə isti olacağı ehtimal edilir.

**ALLAH RƏHMƏT ELƏSİN!**

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının rəhbərliyi və kollektivi iş yoldaşları Hikmət Nəbiyevə əzizi

**ŞAHİN ƏLİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR

**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və | |
| Baş redaktor müavinləri | - 538-86-86, 539-72-39 | informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Məsul katib | - 539-43-23, | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib müavinləri | - 539-44-91, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

az.reklam@mail.ru




www.azerbaijan-news.az

**Qeydiyyat № 1**

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

**Gündəlik rəsmi dövlət qəzeti**

Tiraj 3570
Sifariş 1082

Qiyməti 60 qəpik